# Abdullahla birlikdə Həmd diyarına etdiyim səfər



## Allahın izni ilə Həmd diyarında görüşəcəyik

Doktor Abdulmuhsin Abdullah əl-Carullah əl-Xərafi

Tərcümə edən: Əbu Zəkəriyya

əl-Küveyt

2016

# Abdullahla birlikdə

## Həmd diyarına etdiyim səfər

**Abdullahla birlikdə Həmd diyarına etdiyim səfər**

**Allahın izni ilə Həmd diyarında görüşəcəyik**

Doktor Abdulmuhsin Abdullah əl-Carullah əl-Xərafi

Tərcümə edən:  Əbu Zəkəriyya

əl-Küveyt
2016

## Mərhəmətli və rəhimli Allahın adı ilə

Ey qəlbimin meyvəsi Abdullah

Bu kitab bizim böyük valideyinlik hisslərimizi özündə əks etdirən böyük bir təcrübədən söhbət açır. Atan həmin hisslərə ibrətamiz əlavələr etməklə onları qələmə almaq qərarına gəlmişdir.

Tarix bunları qeyd etmiş və bu hekayəni nəql etmiş olsa belə, ey könlümün əsası, sən mənim üçün tarix olmayacaqsan. Həyatda olduğum müddətdə sən mənim qəlbimdə diri olacaqsan.

**Anan**

## Səfər zamanı ayaq saxladığımız dayanacaqlar


| | |
|---|---|
| İthaf olunur | 10 |
| Tərif və dua | 11 |
| Möhtərəm əmirə təşəkkür və təqdir | 12 |
| Kitabın yazılma səbəbi nədir? | 14 |
| Bu kitabdan yararlananlar | 15 |
| Kitabın özəllikləri barədə | 16 |
| Kitabın başlanğıcı | 17 |
| Kitabın içindəkilərin tərtibat fəlsəfəsi | 18 |
| Kitabın dili | 19 |
| Səfərdən öncə təşəkkür sözləri | 20 |
| Səfər əsnasında ən görməli yerlər | 23 |
| Həmd diyarının tərifi (qəsrlər, çadırlar və otaqlar) | 23 |
| >Cənnət əhlinin həmd diyarındakı məclisləri | 25 |
| Cənnətdə həmd evi kimə verilir? | 28 |

| | |
|---|---|
| Övladını itirənin nail olduğu savablar barədə | 28 |
| >Əvvəlkilərdən övladını itirənlərin xəbərlərindəki ibrətlər | 31 |
| >Bəlaya səbir etmək | 34 |
| >Səbir sözünün mənası | 34 |
| >Razılığın məqamı və səbirlə əlaqəsi | 34 |
| >Bəlanın səmərələri (bəlaya səbir etmənin səmərələri) | 35 |
| >Səbir edənlər zəfər çalıb nicata çatanlardır | 35 |
| >Əcrlərini hesabsız əldə edənlər | 36 |
| >Uca Allah səbir edənlərə bunun əvəzini xeyirlə verir | 36 |
| >Səbir günahların bağışlanmasına və savabların ço-xalmasına səbəbdir | 36 |
| >Səbir qəlblərin hidayətə varmasına səbəbdir | 37 |
| >Sıxıntı ilə xəstəlik arasında | 37 |
| >Ah-nalə çəkib ağlamaq və şivən salmağın nəhy olunması | 38 |
| Meyitə hörmət etmək barədə | 41 |

| | |
|---|---|
| Allahdan daha doğru söz söyləyən kim ola bilər! | 43 |
| Can verən şəxsə tövhid kəlmələrini təlqin etmək | 45 |
| İslamda xəstəlik fəlsəfəsi | 46 |
| İslamda ölüm fəlsəfəsi | 51 |
| İslamda dua və ruqya fəlsəfəsi | 55 |
| Dualar və ruqyalar | 59 |
| Müstəcəb duanın formaları | 64 |
| Duanın qəbul olunması üçün qoyulan şərtlər | 66 |
| Duanın müstəcəb olunmasının formaları | 66 |
| Tanınmış şeyxlərin şəri ruqyalari barədə risalə | 67 |
| Abdullahın anasının öz tanışlarına, habelə Abdullahın tanışlarına müraciət edərək onlardan dua tələb etməsi | 69 |
| Xəstələri sədəqələrlə müalicə etmək | 72 |
| Ey sevimli Abdullah, məni müəyyən müddətədək üzürlü say | 75 |
| Xəstəni ziyarət və ya müşaiyət edən kəs nə etməlidir? | 77 |
| >Xəstəni müşaiyət edənin əcri | 79 |
| >Xəstənin yanında çox oturmamaq | 79 |

| | |
|---|---|
| Həmd evinə etdiyim səfər mənə nələri öyrətdi? | 81 |
| Övladlarınızın həyatında başqa aləmləri kəşf edin | 86 |
| Övladlarımızı hansı dramatik hadisə daha çox cəzb edə bilər? | 88 |
| Dərman qəbul etməyin təvəkküllə ziddiyyət təşkil etməməsi | 90 |
| Xərçəng xəstəliyindən vəfat edən şəxs şəhiddir | 94 |
| Dünyasını dəyişən şəxsin beyininə qurtarma aparatının qoşulmasının düzgünlüyü | 100 |
| Xəstəyə verilən tibbi tövsiyələrin çoxluğu və düzgünlüyü | 102 |
| Həmd diyarındakı qonşumuzu salamlayırıq: Xalid Abdullətif əş-Şayi | 103 |
| İslam ümmətinin xəstələrə qarşı mədəni münasibəti | 105 |
| >Səhiyyə vəqfi | 105 |
| >İslami vəqf və onun tibbi və psixoloji rolu | 105 |
| >Bağdaddakı əl-Bimarstan əl-Adudi tibbi mərkəzi | 106 |
| >Xəstə və qəriblər üçün nızırdı tutulmuş əl-Munis vəqfi | 107 |
| >Xəstədə şəfa təəssüratı yaradan vəqf | 107 |
| >Dəməşqdəki böyük əl-Bimarstan ən-Nuri tibbi mərkəzi | 107 |
| >əl-Bimarstan əl-Saləhi xəstəxanası | 108 |

| | |
|---|---|
| >Bimarstan Qaləvun (əl-Mənsuri xəstəxanası) | 108 |
| >Mərakeş xəstəxanası | 109 |
| >Avropadakı xəstəxanaların o zamankı halı | 110 |
| Dostumuz təsbeh xəstə və onların yaxınlarının yanına | 111 |
| Vəsvəsə verən şeytanın dəf olunması | 114 |
| Şəriət elmi və onun xəstələri fitnə və vəsvəsələrdən qoruması | 116 |
| Həqiqi doğuşun xəbəri ... telefon risaləsində | 121 |
| Övlad üçün dua edən əməlisaleh valideyn! | 123 |
| Sərvətin balansının kəşf edilməsi: Mən milyarderəm! | 126 |
| Qəbulun əlamətlərindən | 129 |
| >Birinci: Sevimli insanların və yaxınların ona dua etməsi | 129 |
| >İkinci: Onun üçün sədəqələr vermək | 130 |
| >Üçüncü: Onun üçün səkkiz dəfə həcc etmək | 130 |
| >Dördüncü: Allahın qəza və qədərinə razı olmaq | 131 |

| | |
|---|---|
| >Beşinci: Müalicə və vəfatda böyük asanlıq | 131 |
| Gözəl sonluğa işarə edən yaxşı yuxular | 133 |
| Saleh əməllərin savabının ölmüş adama hədiyyə olunmasında İslamın əzəmətliliyi | 137 |
| Qəbir əhlinə nə cür sevinc bəxş etmək olar? | 141 |
| Cənnət yalnız hurilərdən ibarət deyil | 143 |
| Cənnətdə müsəlman qadının əzəmətinin müjdəsi | 145 |
| Arxayın nəfs: Həm Rəbbindən razı qalmış, həm də razılıq qazanmış kəs | 147 |
| Abdullah | 149 |
| Əməli təcrübə: Xanım Mi Abdullah Abduləziz əl-Faris | 152 |
| Başqalarının təcrübələrinin təsdiqlənməsinə çağırış | 155 |
| Son söz | 156 |
| Nəfsdəki son titrəyiş | 157 |
| Səfərdəki dayanacaqlar bitdimi? | 158 |
| Bəs şəkillər haradadır? | 159 |
| Kitabın özəllikləri nədən ibarətdir? | 160 |

# İthaf olunur

Bu kitab bizləri Allahın izni, fəziləti və vədi ilə şükür diyarına getməklə qabaqlamış oğlum Abdullahın ruhuna,
Həmçinin şükür diyarına doğru birlikdə getdiyim həyat yoldaşım Ummu Abdullaha,
Habelə Abdullah üçün dəyərli olan bacılarına,
Üstəlik onu gənclik illərində tanımış bütün yaxınlarına,
Həmçinin həm sağlığında, həm də dünyasını dəyişdikdən sonra ona qardaş kimi olmuş bütün dostlarına,
Habelə müalicə zamanı onun üçün şəfa, Allahın izni və fəziləti ilə ölümündən sonra isə ona rəhmət və məğfirət diləmiş bütün əzizlərə

İthaf olunur

**Müəllifdən**

## Tərif və dua

Həmd Aləmlərin Rəbbi olan Allaha məxsusdur!

Hər bir halda Allaha şükürlər olsun!

Özündən başqa heç kəsə həmd olunmayan Allaha şükürlər olsun!

Verən də Odur, alan da.. Nöqsansız olan Allahın hökmü dəyişməzdir.

Allah Həyat vermiş, əcəlləri yazmış və qullarından dilədiyini şəhidlik zirvəsidə qaldırmışdır.

Uca Allah bəzilərinin övladlarının canını almaqla, onların ölümündən sonra həmin övladlara saleh dualar etməmələrini buyurmuş, lakin onlara bunun əvəzində böyük nemətlər bəxş etmiş, övladını itirən kəslərə buna səbir və Uca Allaha şükür edərək "İnnə lilləhi va innə ileyhi raciun/həqiqətən, biz, Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq" deyəcəkləri təqdirdə mükafat olaraq şükür diyarını (Cənnəti) verəcəyini vəd etmişdir.

Allahım, qulun Abdullahı mərhəmətinlə bürü, Onu Cənnət sakinlərindən et. Allahım, onu Cənnət sakinlərindən et! Onu sevimli Peyğəmbərinin ﷺ xəbər verdiyi şəhidlərin əcrinə yetişdir! Onun qəbrini nurlandır! Onun qəbrini cənnət guşələrindən birinə çevir, ey aləmlərin Rəbbi!

Allahım, həmçinin bizi əməlisaleh, səbir edən, bağışladığın, razı qaldığın qullarından et! Allahım ömrümüzün qalan hissəsinə və əməllərimizə bərəkət ver! Bizi valideynlərimizlə, sevdiklərimizlə, əməlisaleh şəxslərlə, şəhidlərlə birlikdə Cənnət sakinlərindən et! Onlar necə də gözəl dostlardır! Həm bizim, həm də zürriyyətimizin qəlbini məhəbbət, Sənə itaətə rəğbətlə doldur ki, hər iki diyarda bununla xoşbəxtliyə nail olaq!

## Möhtərəm əmirə təşəkkür və təqdir ([1])

Həmd diyarına etdiyimiz səfərimiz əsnasında qəlbimizdə özəl iz buraxan bir şəxs vardır ki, o da mötərəm əmirdir... Küveyt Dövlətinin Əmiri Əlahəzrət şeyx Sabah əl-Əhməd əl-Cabir əl-Sabahdır.

Hər zamankı kimi o, xalqına, o cümlədən də mənə qarşı olduqca mərhəmətlə davrandı.

Hər hansı bir sıxıntı duymadan o, Abdullaha qarşı xəstəliyinin ilk günlərindən etibarən olduqca mərhəmət göstərər, onun barəsində maraqlanardı.

O, bilirdi ki, Abdullah valideynlərinin yeganə övladı, bacılarının tək qardaşıdır və təhsilini yenicə bitirib. Lakin Allah Öz işində qalibdir.

Abdullah ﵀ dünyasını dəyişər dəyişməz Əlahəzrət əmir onun dəfnində iştirak etmiş və əza məclisinə erkən gələnlərdən olmuşdu. 01.10.2014-cü ildə çərşənbə günü övladım dəfn edildikdən sonra cümə axşamı səhər istirahət vaxtını ayıraraq heç bir müşaiyətçi və ya mühafizəçi olmadan, sadəcə sürücü ilə birlikdə təşrif buyurmuşdu. Çünki o, yaxşı bilirdi ki, həqiqi himayə Küveyt əhlinin qəlbini ələ almaqla mümkündür.

O, əza məclisində bir müddət oturaraq mənim təşəkkürlərimə qulaq asdı. Mən də öz növbəmdə övladımın həm Küveytdə, həm də ölkənin hüdudlarından kənarda müalicə almasında yardımçı olmuş başda özü olmaqla bütün məsul şəxslərə öz dərin minnətdarlığımı bildirdim. Mən ona bildirdim ki, övladımı itirdikdən sonra qız övladı Səlvanı itirmiş Əlahəzrət əmiri daha yaxşı anlamağa başladım. Bu elə bir acıdır ki, bədənin hər hansı bir yerində hiss olunduqda digər bədən üzvlərinə də təsirsiz ötüşmür. Hər bir halda Allaha şükürlər olsun.

Əlahəzrət əmir bir müddət məclisdə oturduqdan sonra ayağa qalxaraq təşəkkür əlaməti olaraq məclisi tərk etmək istədikdə, mən də ayağa qalxaraq onu avtomobilədək ötürmək istədim. Lakin o, and-

---

[1] Bu məqalə, 17.01.2016 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

aman edərək mənim məclisi tərk etməməyimə israr etdi. Allahın təqdiri ilə mən yenə onun andını üzrxahlıqla pozaraq avtomobilə qədər onu ötürmək istədim. Bu zaman əlahəzrət əmirə xitabən zarafatyanə dedim: "Allah ömrünü uzun eləsin, üç gün kəffarə orucu tutaram, ancaq səni ötürməliyəm." O da cavab olaraq gülümsəyərək dedi: "İstəyirsən mən də üç gün oruc tutum?"

Hər kəs təbəssüm etdi. Nəhayət əhlimizdən məndən yaşca böyük olan ağsaqqal qalxıb əlahəzrəti yola salası oldu.

Biz küveytlilərə məhz bu özəlliyimizə, rəhbərlə rəiyyət arasındakı bu münasibətə görə hər zaman qibtə olunur. Gözümü açandan bəri mən küveytin rəhbər şəxslərinin, habelə onların ailə üzvlərinin küveytlilərin xeyir və şər məclislərində iştirak etdiklərinin şahidi olmuşam. Bu onlar üçün təbii haldır. Küveyt cəmiyyətində rəhbərlə rəiyyət arasındakı bu mütəmadi xoş münasibət bir lütfdür.

Təşəkkür edirik, ey möhtərəm əmir.

## Kitabın yazılma səbəbi nədir?

Bu kitabın yazılma səbəbləri yeddidir:

- Bu kitab başqalarına faydalı ola biləcək ağrılı bir təcrübəni özündə əks etdirir.

- Burada xəstəlik, onun müalicəsi və vəfat barədə misli görünməmiş məlumatlar vardır.

- Bu əsər qafil olanlar üçün bir xəbərdarlıq, cahil olanlar üçün faydalı elm, əməl edənlər üçün sabitlikdir.

- Bu kitabın cildləri arasında kövrək keçmişin və indiki zamanın mövzusu yer almaqdadır.

- Bu əsər belə mövzuya ehtiyac duyanlar üçün bir xatırlatmadır.

- Burada faydalı məlumatlar, müdrik fikirlər və yeni faydalar vardır.

- Bir çox insanlar bənzər təcrübələrlə qarşılaşmış, lakin başqalarına fayda verməkdən ötrü həmin hadisələri qələmə ala bilmə bacarığına və ya imkanına malik olmamışlar.

## Bu kitabdan yararlananlar

- Özləri, yaxınları və ya dostlarından xəstəliyə mübtəla olmuş kəslər.

- Xəstəlikləri müalicə edənlər.

- Övladlarını və ya yaxınlarını itirmiş kəslər.

- Küveytdə və ya onun hüdudlarından kənarda, ələlxüsus da, Amerika Birləşmiş Ştatlarında müalicə almış kəslər.

- Sağlam olan kəslərdən xəstəlik, onun müalicəsi, övlad və ya yaxınlarından birini itirmiş kəslər barədə məlumat toplamaq istəyənlər.

Onlardan dua etmələrini diləyir və təşəkkürümüzü bildiririk.

## Kitabın özəllikləri barədə

Məlumdur ki, yazarın öz əsərini tərifləməsi qüsurdur.

Allah şahiddir ki, niyyətim əsəri tərifləmək deyildir.

Allahın təqdiri ilə kitabı bitirdikdən sonra mətbəəyə təhvil verməmişdən öncə dil baxımından müəyyən səhvlərin düzəldilməsindən ötrü onu Əhli-beyt və səhabələr ictimai birliyinin əl-Əzhərdən olan ən fəzilətli nümayəndələrindən olan möhtərəm şeyx doktor Əhməd Seyyid Əhməd Əliyə verdim. O da öz növbəsində qrammatik düzəlişlərdən əlavə bəzi hədislərin təxricini çıxarmış, kitabdan olduqca təsirlənərək kitabın müxtəlif yönlərdən İslam və ərəb aləmində misilsiz bir əsər olduğunu bildirmişdir.

Kitabın həmin özəllikləri barədə əvvəldən yazmayaraq bu işi kitabın sonuna saxladım. Son sözdən sonra kitabın əsas məqsədini, dünya həyatından həmd diyarınadək getdiyim yolu sonadək oxumuş dəyərli oxucuya müləxxəs etdim.

## Kitabın başlanğıcı

Kitabın başlanğıc nöqtəsi Uca Allahın vədlərinin şübhəsiz həyata keçiriləcəyinə tam əminlikdir. Belə ki, hədisdə buyururlur ki, övladını ittirən kəs bu bəlaya səbir edərsə ona Cənnətdə həmd diyarı adlanan bir ev inşa edilər. Bunun üçün insan bəlanın ilk anında Uca və Nöqsansız Allaha şükür etməli və "[İnnə lilləhi va innə ileyhi raciun] həqiqətən, biz, Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq" deməlidir. Mövzu ilə bağlı inşallah Quran və Sünnəyə müraciət edəcəyik. Xəstəlik və vəfat dövründəki kiçik təcrübəmizi nəql edəcəyik ki, istəyən kəs bundan istifadə edə bilsin.

Bu kitabı yazmağa məni təşviq edən daha bir amil mövzu ilə bağlı "əl-Qəbəs" qəzetində nəşr etdirdiyim silsilə məqalələrə olan maraq idi. Həmin məqalələrin də ünvanı "Abdullahla həmd diyarına səfərim" idi.

## Kitabın içindəkilərin tərtibat fəlsəfəsi

Bir çox kitablarımdakı kimi bu kitabı fəsil və bölmələrə ayırmamışam. Oxucu da görəcək ki, bu kitab bir sıra müxtəlif xoş xatirələri özündə ehtiva edir ki, mən də onları bölmə və fəsillərə bölərək tərtib etmədən qeyd etmişəm. Bunun da əsas məqsədi oxucunun mövzudan mövzuya keçərək növbəti mövzunun nə olacağına maraq göstərməsidir.

Hər bir halda burada söhbət müxtəlif mövzulardan bəhs edən çalışmalardan gedir.

Bunun daha bir səbəbi ondan ibarətdir ki, buradakı mövzuların çoxu ayrı-ayrı məqalə şəklində qəzetlərdə nəşr olunmuşdur. Bir il ərzində hər həftə həmin məqalələr tədricən nəşr olunmuşdur. Hər kəs də qəzetdə nəşr olunması nəzərdə tutulan məqalələrin məhdud olduğunu yaxşı bilir. Ələlxüsus da, müxtəlif mövzulardan ibarət olan əl-Qəbəs qəzetindən söhbət gedirsə. Mən də, beləcə öz məqalələrimdə bu inzibati qaydalara riayət etmək məcburiyyətində qaldım.

Ola bilsin ki, həmin məqalələrin böyük oxucu kütləsi tərəfindən maraqla oxunması məni bu kitabı yazmağa sövq etmişdir. Çünki xəstəlik, müalicə və vəfat mədəniyyəti haqqında məlumatlar çoxlarına məlum deyil.

Kitabın sonunda məlumat üçün qeyd olunan məqalələrin nə zaman və harada nəşr olunduğunu, habelə həmin məqalələrlə kitabdakı mövzular arasındakı əlaqəni qeyd etmişəm. Çünki həmin mövzular səfər əsnasındakı dayanacaqlardır ki, bunu da mən kitabın mövzularına ad olaraq seçmişəm.

Bu tərtib heç də mövzu və faydaların önəmini göstərmir. Bunların hamısı faydalıdır. Bu mövzuların hər biri digərini tamamladığı üçün onları mövzu və fəsillərə ayırmağa lüzum görmədim.

Bundan əlavə kitabın elmi mənhəcə əsasən bölmələrə ayrılması oxucunu əsas hədəfdən yayındıra bilər.

## Kitabın dili

Allaha həmd olsun ki, O, məni bir məni bir müəllif kimi on beş kitab yazmağa, habelə redaktor kimi bir sıra məqalələr qələmə almağa müvəffəq edib. Bütün bunları mən mövzusundan asılı olaraq asan dildə qələmə almışam. Məhz elə bu özəlliyinə görə, yəni çətin olmadığına görə də, oxucular tərəfindən coşqu ilə qarşılanmışdı. Yazılanların mövzuları tarix elmində mütəxəssis araşdırmaçıların işi olan dərin təhlillərdən, həmçinin siyasi hadisələrin təzahüründən uzaq idi.

Həmin kitabların yazılmasında əsas məqsəd xidmət olunmamış sahələrdə gərəkən məsələlərin təsdiqlənməsi idi. Həmin mövzu da əsasən Küveytdə həm keçmişdə yaşamış, həm də indiki zamanda yaşamaqda olan xeyirxah kişi və qadınların, habelə tanınmış küveytlilərin tərcümeyi hallarını qələmə almaqdır. Bu baxımdan kitabda tarixi məlumatların yer alması təbiidir. Əlavə olaraq imanla bağlı, habelə ictimai və tərbiyəvi məsələlərin də yerinə görə qeyd olunması da təbiidir.

Kitabın yazılma dilinə gəlincə müəllif onu qəlbinin dərinliklərində yer alan hisslərlə qələmə almışdır. Onun elə bir səhifəsi yoxdur ki, müəllif göz yaşlarına qarışımış, habelə ibrətamiz məsələlər yer almış olmasın. Belə ki, kitab nəzəri və ya xəyali olaraq deyil, real hadisələr əsasında qələmə alınmışdır. Mən hər zaman söhbətlərimdə qeyd edirəm ki, "qəlbdən çıxan sözlər qəlblərə nüfuz edir. Dildən çıxan sözlər isə qulaqlardan o tərəfə keçmir."

Kitabı yazmaq ruhu və onun mövzuları da məhz bundan ibarət olmuşdur. Əks halda hər kəsə bəllidir ki, kitab ərəb dilində qələmə alınmışdır. Ərəb dilinin də bir neçə xüsusiyyəti vardır: Ədəbi xüsusiyyət, əməli xüsusiyyət, elmi-ədəbi xüsusiyyət, yazıçının imkanı çərçivəsində möhkəmlik. Qurani Kərimdə buna bir çox sübutlar vardır. Belə ki, əgər Qurani Kərim dağa nazil olunmuş olsaydı sən onun Allah qorxusundan param-parça olduğunu görərdin. Bu da, Quranın nazil olunduğu dilin əzəmətini göstərir. Uca Allah ərəb dilçilərini bacarırlarsa, Quranın bir surəsinin mislini gətirmələrini əmr etmiş, onlar isə bunda aciz olmuşlar.

Uzun sözün qısası kitabın yazılma dili barədə onu deyə bilərik ki, o, qəlbin dərinliklərindən çıxmışdır. Məncə bundan sonra oradakı məlumatların səhihliyi barədə əlavə təkidə lüzum yoxur. Allah bütün bu söylədiklərimə şahiddir.

Bu arada kitabı dil baxımınan yoxlamış cənab Hazim Əli Mahir müəllimə də təşəkkür etmək yerinə düşərdi.

## Səfərdən öncə təşəkkür sözləri

"Səbəbin xüsusiliyi faydanın ümumiliyinə təsir etmir" qaydasına əsasən, Uca Allah, övladını itirdikdə səbir edib: "[İnnə lilləhi va innə ileyhi raciun] həqiqətən, biz, Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq" deyən valideyinlərə Peyğəmbərinin ﷺ dili ilə vəd etdiyi "həmd diyarı"na səfərimizdən söhbət açaq. Bu barədə İmam Əhmədin və Tirmizinin səhih olaraq nəql etdikləri hədisdə məlumat verilir. Bu səfər əsnasında ilk dayanacağımız Abdullahı sevən və onun üçün Allahdan şəfa diləyən, habelə ölümündən sonra onun üçün bağışlanma və rəhmət diləyən, valideyinlərini sevib onlar üçün səbir diləyən kəslər barədə olacaqdır. Bundan da öncə mən başda Əmir olmaqla mərhumun müalicəsi ilə bağlı ona göstərdikləri diqqət və qayğıya görə bütün Küveyt xalqına təşəkkürümü bilirirəm.

Ey Abdullahın sağalması üçün sağlığında dua edən, vəfatından sonra isə onun üçün bağışlanma diləyən, həm Küveytdə, həm də ölkədən kənarda onun üçün başsağlığı vermiş bacı və qardaşlarım, saf duyğularınız üçün Allah sizlərdən razı olsun. Sizin bu duyğularınız həm mənim, həm də onun anasının qəlbini sakitləşdirərək bizlərə rahatlıq verdi. Biz, uca və nöqsansız Allahın dualarımızı qəbul etdiyinə, həmçinin, duanın Peyğəmbərdən ﷺ nəql olunduğu kimi bir neçə cür qəbul olunmasına əmin olduq. Belə ki, dua ya dünya həyatında həyata keçmiş olur, ya axirətdə onun savabı əta edilir, ya da duanın müqabilində günahlar əfv olunur. Allahdan diləyirik ki, Abdullah vəd olunmuş ikinci və üçüncü növü əldə etmiş olsun. Həmçinin, sizlərə müjdə verim ki, alimlər xərçəng xəstəliyi üzündən dünyasını dəyişən şəxslərin Allahın izni ilə şəhid sayıldıqları barədə fitva vermişlər. Belə ki, onlar şəhidlərin növləri ilə bağlı səhih hədisə əsaslanaraq taun xəstəliyindən ölən kəsin, mədəsindəki xəstəlikdən dünyasını dəyişənin, yanğın zamanı dünyasını dəyişən, dənizdə bataraq dünyasını dəyişən, habelə, dağıntı altında qalaraq dünyasını dəyişən kəsin şəhid olması ilə xərçəng xəstəliyindən dünyasını dəyişənləri qiyas etmişlər. Bu da, Uca Allahın Muhəmmədin ﷺ ümmətinə bəxş etdiyi əvəzolunmaz bir nemətdir ki, şəhidlərin sayı çox olsun və onlar öz valideyinlərinə və yaxınlarına şəfaət versinlər. Allahdan diləyirik

ki, Abdullah da onlardan olsun və bizlərə şəfaətçi olsun. Niyə də olmasın? Sanki mən Uca Allahın bizlərə Abdullahın sayəsində Cənnətdə bəxş etdiyi həmd diyarına baxıram. Sanki mən Qurani Kərimdə vəsf olunan bizim üçün hazırlanmış taxtlara tamaşa edirəm. Sanki mən onun yaşıl atlasdan  hazırlanmış libasına tamaşa edirəm. Sanki mən Allahın bizim üçün ayırdığı bizə qulluq edən kiçik uşaqları görürəm. Sanki onlar bizim ətrafımızda qablar və çaydanlarla dolaşaraq bizlərə cənnət içkilərindən ikram edirlər. Burada mən Qurani Kərimdə və Sünnədə cənnət əhlinin vəsfi ilə bağlı varid olmuş digər məsələləri də qeyd edə bilərəm. Lakin mən bilirəm ki, Cənnəti nə qədər vəsf etsək belə orada heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi, hətta heç kimin ağlına belə gəlmədiyi nemətlər olacaq.

Həmçinin, Abdullah mübarək Zil-hiccə ayının on üçüncü günü, hacılar Məkkəyə üz tutduqları zaman dünyasını dəyişmişdir ki, bu da inşəAllah onun insanlar arasından seçilərək şəhid kimi dünyasını dəyişməsinə bir əlamətir. Bir çox insanlar da könüllü olaraq onun əvəzinə həcc ziyarəti etmək istəmişdir. Bundan əlavə onunla bağlı çoxlu gözəl yuxular da görənlər az deyil ki, bütün bunlar onun gözəl sonluğa çatdığının bir göstəricisidir.

Peyğəmbər ﷺ xəbər verdiyi kimi, insanlar Allahın yer üzərindəki şahidləridir. Sizlərə xəbər vermək istəyirəm ki, qəbirsanlıqda onun cənazə namazını qılmaq və başsağlığı vermək üçün gələn insanlar məğribdən sonrayadək gəlməkdə davam etdilər. Bu da çox nadir hallarda baş verən bir hadisədir. Yeri gəlmişkən onun yanında dəfn olunmuş səkkiz cənazənin yaxınlarını da təqdir edirik.

Qeyd etmək lazımdır ki, ora gələnlərin hər hansı bir dünyavi məqsədləri yox idi. Hələ çoxları izdiham səbəbindən başsağlığını gözləmədən cənazə namazından dərhal sonra məzarlığı tərk edib getmişdi. Xüsusən də bir qisim insanlar başsağlığını növbəti günə saxlamışdılar. Həm də, onlar Zil-hiccə ayının yeddinci gününün orucunu tutduqları üçün iftara tələsirdilər. Digər tərəfdən bir çox tanışlar həcc mərasimini yerinə yetirmək üçün səfərə getmiş, orada, Ərəfat dağında Abdullah üçün Allahan bağışlanma diləmişdilər. Dünyada bu

rəbbani nemətlərdən daha üstün nə ola bilər? Görəsən bu, Ərəfat günü çoxsaylı küveytlilər tərəfindən edilmiş dualarınmı tərənnümü idi?

Sonda bir daha vurğulamaq istəyirəm ki, hər kəs gün batan zaman üfüqdəki parıltının artdığının şahidi olmuşdu.

Allah gözəl dualarınızla bizləri hifz etsin, sizlərdən xahiş edirik ki, öz yaxınlarınız üçün dua etdikdə bizlər və Abdullah üçün dua etməkdə davam edəsiniz. Çünki biz də sizin yaxınlarınızdanıq.

**Aləmlərin Rəbbi olan Allaha həmd olsun!**

## Səfər əsnasında ən görməli yerlər ([2])
## Həmd diyarının tərifi (qəsrlər, çadırlar və otaqlar)

Bu anlayışı mən Peyğəmbərdən ﷺ nəql olunmuş hədisdən götürmüşəm. Həmin hədis övladını itirmiş hər bir kəs üçün bir təskinlikdir. Hədisdə bildirilir ki, övladını itirmiş adam Allaha həmd edərək "[İnnə lilləhi va innə ileyhi raciun] həqiqətən, biz, Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq!"- deyərsə, Cənnətdə ona bu əməlinin mükafatı olaraq Həmd evi adlanan bir ev inşa edilər.

Əbu Musa əl-Əşari ﵁ rəvayət edir ki, Rəsusulullah ﷺ demişdir: "Bir adamın uşağı öldükdə Allah mələklərindən soruşur: "Qulumun uşağınımı aldınız?" Onlar: "Bəli"– deyə cavab verirlər. Allah soruşur: "Qulumun ürəyinin meyvəsinimi aldınız?" Onlar: "Bəli"– deyə cavab verirlər. Sonra Allah soruşur: "Qulum nə dedi?" Onlar: "Sənə həmd və istirca[3] etdi"– deyə cavab verirlər. Onda Allah buyurur: "Quluma Cənnətdə bir ev tikin və adını da "Həmd evi" qoyun!"[4]

Göründüyü kimi hədisdə bildirilir ki, övladını itirmiş kəs buna səbir etdiyi təqdirdə Rəbbi tərəfindən ona Cənnətdə ev əta edilir və həmin ev "Həmd evi" adlanır. Alimlər bu hədisdən belə bir nəticə çıxarmışlar ki, xəstəlik və müsibətlərə görə insan savab əldə etmiş olmur, çünki bu onların istəyi ilə baş vermir. Həmin müsibətə səbir etdikdə isə savab qazanmış olurlar. İbn Abdussalam və İbn əl-Qeyyim bu rəydə olmuş və demişlər: "Övladını itirmiş kəs həmin savaba məhz başına gələn müsibətə görə deyil, müsibət anında Allaha şükür edib "innə lilləhi va innə ileyhi raciun" deməsinə görə əldə etmiş olur. Müsibətə görə isə onun günahları əfv olunur. Lakin daha doğru rəy bunun əksidir..." Burada bir məqama da diqqət yetirmək lazım-

---

[2] Bu məqalə, 19.10.2014 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[3] Yəni "innə lilləhi va innə ileyhi raciun/həqiqətən, biz, Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq!"- demək.

[4] Sunən ət-Tirmizi 1021; Musnəd İmam Əhməd, 19725; Səhih İbn Hibban 2948; Sunən əl-Beyhəqi, 7146; Şərh Sunnə, əl-Bəğəvi, 1550; Tərğib vət-Tərhib, əl-Munziri, 3065; Cami əl-Kəbir, əs-Suyuti, 2808; Məvarid əz-Zaman, əl-Heysəmi, 726; Tirmizi demişdir: "Bu, həsən-qərib hədisdir"; şeyx əl-Albani bu hədisin həsən olduğunu demişdir. Bax: "Silsilətul-Əhadisis-Səhihə" əsərində (3/398; 1408-ci hədis).

dır ki, başına belə bir müsibət gəlmiş kəs gərək həm şükür etsin, həm də "innə lilləhi va innə ileyhi raciun" demiş olsun. Belə ki, onlardan birini edib, digərini tərk etsə onun üçün ev bina olunmur. Hətta zahirən həmin ev həmd və istirca evi də adlana bilərdi. Lakin burada əsas insanın şükür etməsidir, "innə lilləhi va innə ileyhi raciun"-deyərək istirca etməsi isə şükürü təkmilləşdirir. Necə ki, bismilləhi də tək deyir."[5]

Məlumdur ki, Uca Allah əməlisaleh qullarına Cənnətdə mükafat olaraq gözəl məskənlərlə müjdə vermişdir. Necə ki, Uca Allah buyurur: **"Allah mömin kişilərə və mömin qadınlara *ağacları* altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları və Ədn bağlarında gözəl məskənlər vəd etmişdir. Allahın razılığı isə daha böyükdür. Bu, böyük uğurdur."**[6]

Adətən Cənnət əhlinin məskənləri üç cür ifadə olunur:

Qəsrlər, evlər və ya çadırlar, bir də otaqlar. Qəsrlərə gəlincə bu, Peyğəmbərdən ﷺ nəql olunan bir çox hədislərdə qəsr və ya ev formasında qeyd olunur. Misal üçün Peyğəmbər ﷺ demişdir: "Kim on dəfə "De ki, O Allah təkdir"[7] surəsini oxuyarsa, Allah ona Cənnətdə bir qəsr inşa etdirər."[8] Hədisi əl-Albani "Silsilətül əhadis əs-səhihə" əsərində (2/136) 589 nömrəli hədisdə qeyd etmiş və "həsən" olduğunu bildirmişdir. Çadırlara gəlincə Uca Allah buyurur: **"Çadırlarda gözlərini *öz ərlərinə* dikmiş hurilər vardır."**[9] Otaqlar isə Qurani Kərimdə müxtəlif yerlərdə zikr olunur. Uca Allah buyurur: **"Lakin Rəbbindən qorxanları üst-üstə tikilmiş, altından çaylar axan otaqlar gözləyir. Bu, Allahın vədidir. Allah vədinə xilaf çıxmaz."**[10] Həmçinin buyurur: **"Sizi bizə yaxınlaşdıra biləcək nə var-dövlətiniz, nə də oğul-uşağınızdır. Ancaq iman gətirib yaxşı işlər görənlər istisnadır. Məhz onların mükafatları etdikləri əməllərə görə qat-qat artırılacaq və onlar *Cənnətdəki* mənzillərində asudə yaşayacaqlar."**[11]

---

[5] əl-Munəvinin Feydul-qadir fi şərh Cami əs-səğir əsəri, (1/440).

[6] ət-Tövbə, 72.

[7] əl-İxlas, 1.

[8] İmam Əhmədin əl-Müsnəd əsəri, 15610.

[9] ər-Rəhman, 72.

[10] əz-Zumər, 20.

[11] Səba, 37.

Ev və ya mənzil ləfzi işləndikdə qəsr nəzərdə tutulur. Bu xüsusda imam Nəvəvi, əl-Xəttabidən və başqalarından nəql edərək buna işarə etmişdir.[12]

Ola bilsin ki, bəziləri bu adları – yəni möminlər üçün müəyyən olunmuş məskənlərin adlarını- dünyadakı bənzərləri ilə qarışdırmış olsun. Bu barədə qeyd etmək istəyirik ki, həmin adlar insan zehnində təsəvvür yaratmaq üçündür. Necə ki, Uca Allah buyurur: **"Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir."[13]** Həmçinin Əbu Hüreyrədən ﷺ nəql olunmuş qüdsi hədisdə Peyğəmbər ﷺ demişdir: "Uca Allah buyurur: Əməlisaleh qullarım üçün gözlərin görmədiyi, qulaqların eşitmədiyi, habelə heç kimin ağlına belə gəlmədiyi mükafatlar hazırlamışdır."[14]

İbn Abbasdan ﷺ rəvayət olunur ki, o, demişdir: "Cənnətdə dünyada olanlardan heç biri olmayacaq. Yalnız adlardan başqa."[15]

Misal üçün Uca Allahın: **"Çadırlarda gözlərini *öz ərlərinə* dikmiş hurilər vardır."[16]** - ayəsini oxuduqda dərhal gözlərimizin önündə dünya həyatında gördüyümüz çadırlar canlanır. Halbuki hədislərin birində həmin çadırlar tamamilə başqa cür vəsf olunur. Əbu Bəkr ibn Abdullah ibn Qeys öz atasından rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Cənnətdə içərisi boş olan mirvaridən çadırlar olacaq. Onun qalınlığı altmış mil uzunluğunda olacaq. Çadırın küncündə olanlar digər küncündə olanları görməyəcək və möminlər onların ətrafında dolanacaqlar."[17]

**Cənnət əhlinin həmd diyarındakı məclisləri**

Maşallah

Cənnətdə, həmd diyarındakı, qəsrlərdəki, çadır və otaqlarakı məclislərimizi vəsf edən Rəbbimiz necə də Ucadır.

---

[12] Şərh ən-Nəvəvi alə Muslim (15/200).

[13] əs-Səcdə, 17.

[14] əl-Buxari (3244), Muslim (2824).

[15] əl-Beyhəqinin əl-Bəasu van-nuşur əsəri (332). Hədisi Şeyx Albani Səhih hədislər silsiləsi əsərində (2188) qeyd etmişdir.

[16] ər-Rəhman, 72.

[17] əl-Buxari (4879), Muslim (2838).

Hörmətli oxucu, icazə ver bu məqamda ilk öncə Cənnət əhlinin məclisləri barədə varid olmuş ayələri zikr edək:

Peyğəmbərimiz ﷺ övladını itirərək buna səbir edən kəsə həmd evi veriləcəyini qeyd etdikdən sonra biz həmin evi adi bir ev kimi təsəvvür etməməliyik. Bunun üçün də ilk öncə Cənnət əhli və onların məskənləri ilə bağlı varid olmuş ayələri oxumalıyıq. Uca Allah buyurur: **"Biz onların köksündəki kin-küdurəti çıxarıb kənar etdik. Onlar taxtlar üzərində qarşı-qarşıya əyləşən qardaşlar olacaqlar."**[18] Həmçinin buyurur: **"Məhz onlar üçün *ağacları* altından çaylar axan Ədn bağları hazırlanmışdır. Onlar orada qızıl bilərziklərlə bəzədiləcək, taftadan və atlazdan yaşıl paltarlar geyəcək və orada taxtların üstündə dirsəklənəcəklər. Nə gözəl mükafat, necə də gözəl məskəndir!"**[19] Başqa bir ayədə buyurur: **"Həqiqətən də Cənnət əhli həmin gün nemətlər içində kef çəkəcək. Onlar zövcələri ilə birlikdə kölgəliklərdə taxtlara söykənəcəklər."**[20] Həmçinin buyurur: **"və onlara səbr etdiklərinə görə Cənnəti bəxş edər və *orada geyəcəkləri* ipəklə mükafatlandırar. *Onlar* orada taxtlar üzərində *mütəkkələrə* dirsəklənəcək və orada nə günəş, nə də şaxta görməyəcəklər. *Cənnət ağaclarının* kölgələri *özləri* onlara yaxınlaşacaq, meyvələri də tam onların ixtiyarına veriləcək."**[21]

Bu vəsf cənnət əhlinin məclislərinin qarşı-qarşıya qoyulmuş taxtlarda xilqətcə oxşar olacağını bildirir. Məhz bu qarşı-qarşıya oturuş da dünya həyatında olduğu kimi məclisdə söhbət və fikir mübadiləsi aparmağa imkan verir. Beləcə onların qəlblərindən kin-küdurət yox olur və onlar qardaş olurlar. Onlar dünya həyatındakı ixtilaf və kədərləri arxada qoymuş və həqiqi qardaşlığın ruhunu dinləmişlər.

Başqa bir ayə onların cənnətdəki məclislərini vəsf edərək bildirir ki, onlar orada mütəkkə və yastıqçalara söykənəcəklər. Bu da rahatlığın, Allaha sevgi və şükürün ən üstün mərtəbəsidir. Onların mütəkkələrə söykənmiş vəziyyətdə oturmaları içində əbədi qalacaqları cənnətlərdə böyük nemətlərə nail olmalarının və son dərəcə rahatlıq içərisində olmalarının göstəricisidir.

---

[18] əl-Hicr, 47.

[19] əl-Kəhf, 31.

[20] Yasin, 55-56.

[21] əl-İnsan, 12-14.

Beləliklə bir ayədən digərinə keçirik. Əvvəlki ayə cənnətdə qardaşların üz-üzə məclislərdə yastıqçalara söykənmiş halda oturacaqlarını vəsf edirsə, növbəti ayə Cənnət əhlini vəsf edir: "**Onlar zövcələri ilə birlikdə kölgəliklərdə taxtlara söykənəcəklər."**[22] Bu ayədə isə cənnət əhlinin qarşı-qarşıya oturacaqları qeyd olunmur və oxucu onların yanaşı olmalarını böyük ədəb və zövqlə bildirir.

Hər bir halda başqa bir ayədə bildirildiyi kimi, Cənnət əhli öz qardaşları və yaxınları ilə birlikdə oturacaq, orada nə günəş, nə də ki şaxta görəcəklər. Yəni onlar nə istidən, nə də ki soyuqdan əziyyət çəkməyəcəklər. Əksinə onlar oturduqları halda budaqlar onlara yaxınlaşacaq və onlar istədikləri meyvəni dərə biləcəklər.

Ah, bu necə də gözəl vəsfdir, nə gözəl məclislərdir!

Allahım, bizləri bu məclislərə qovuşdur! O məclislər ki, orada vətəndaşlıq, ictimai səviyyə və vəzifə rol oynamayacaq. Hərkəs qardaş olacaq və Allah yanında onların ən hörmətlisi Allahdan ən çox qorxanı olacaq.

Bu mənaları və gözəl vəsfləri eşitdikdə insanda ona nail olmağa rəğbət və istək yaranır. İnsan pak və müqəddəs Allahın vədinə ümid bəsləyir. Bu elə vəsflərdir ki, onların önündə bütün müsibətlər heçə çevrilir, bütün təhlükələr sovuşur, bütün nemətlər öz dəyərini itirir. Bizlərdən kim bu nemətlərə nail olmaq istəməz ki? Kimin nəfsi bunlar üçün darıxmaz ki? Uca Allah buyurur: **"Həqiqətən, bu, böyük uğurdur. Qoy çalışanlar bunun üçün çalışsınlar!"**[23]

Yekun olaraq bildirmək istəyirəm ki, insanın cənnətdə evinin olmasının dəyəri Uca Allahın aşağıdakı ayəsində bildirilir. Həmin ayədə Fironun zövcəsi Allaha dua edərək ona Cənnətdə bir ev tikməsini istəyir. O, buyurur: **"Allah, iman gətirənlərə isə Fironun zövcəsini misal çəkdi. O zaman o: 'Ey Rəbbim! Mənə Öz yanında – Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən xilas et. Məni zalım adamlardan qurtar!'– demişdi."**[24]

Allahım, ey Mərhəmtlilərin Mərhəmətlisi, bizlər də ciyərparəmizi, övladımızı itirdiyimiz üçün bizim üçün Cənnətdə ev tik.

---

[22] Yasin, 56.

[23] əs-Saffət, 60-61.

[24] ət-Təhrim, 11.

## Cənnətdə həmd evi kimə verilir:

**Doktor Ömər Abdulkafi (1 : 07)**

Bildiririk ki, **Reader QR** tətbiqini endirməyin önəmini qeyd edirik. **QR Quick Response** sözünün yəni "təcili suala cavab" sözünün müxtəsər formasıdır. Bu tətbiqi endirdikdən sonra telefonun ekranı kameraya çevrilir. Sonra səhifənin yuxarı hissəsindəki **code QR**-a müraciət olunur. Bu isə **Code Bar** rəmzinin yeni nəsil növlərindən hesab olunur və hal-hazırda məhsulların qiymətlərinin öyrənilməsi üçün geniş istifaə olunur. Bu zaman bu səhifənin proqlamlaşdırılmış linki və kitabın bütün səhifələri açılacaq. Beləliklə səs və görüntülü mövzular əlavə olunacaq.

## Övladını itirənin nail olduğu savablar barədə:

Özündən başqa ibadətə layiq heç bir məbud olmayan, Qüvvət və Hikmət Sahibi olan Allah buyurur: **"Ey iman gətirənlər! Səbr etmək və namaz qılmaqla *Allahdan* kömək diləyin. Həqiqətən, Allah səbr edənlərlədir! Allah yolunda öldürülənlərə: 'Ölüdürlər!' deməyin. Əksinə, *onlar* diridirlər, lakin siz *bunu* ayırd edə bilmirsiniz. Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: 'Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!'– deyirlər. Onlara öz Rəbbi tərəfindən təriflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır."**[25]

Şübhəsiz ki, övlad itirmək ən böyük müsibətlərdəndir. Bu, qəlbi yandırıb yaxan böyük bir ağrıdır. Ümumiyyətlə insanın seviyi bir kəsi itirməsi ən böyük müsibətlərdəndir. Doğru intuisiyaya malik hər bir ağıl sahibinin qəlbi bundan əziyyət çəkir. Bu ayrılıq həmişəlik olduqda isə əziyyət daha çox olur. Əlelxüsus da, əgər bu ayrılıq insanın gözünün ağı-qarası, ciyərparəsi və səmərəsi olan övladındandırsa, bu daha böyük müsibətdir. Bununla belə övladını itirən kəs səbir edib, Allaha həmd edərək "innə lilləhi va innə ileyhi raciun"[26] deyər-

---

[25] əl-Bəqərə, 153-157.

[26] Həqiqətən biz Allahdanıq, dönüşümüz də Allahadır.

sə, və Allahın qəza və qədəri ilə razılaşarsa Allah onu böyük savaba, üstəlik Qiyamət günü övladının şəfaətinə nail etmiş olur.

Əbu Musa əl-Əşari ﵁ rəvayət edir ki, Rəsusulullah ﷺ demişdir: "Bir adamın uşağı öldükdə Allah mələklərindən soruşur: "Qulumun uşağınımı aldınız?" Onlar: "Bəli"– deyə cavab verirlər. Allah soruşur: "Qulumun ürəyinin meyvəsinimi aldınız?" Onlar: "Bəli"– deyə cavab verirlər. Sonra Allah soruşur: "Qulum nə dedi?" Onlar: "Sənə həmd və istirca[27] etdi"– deyə cavab verirlər. Onda Allah buyurur: "Quluma Cənnətdə bir ev tikin və adını da "Həmd evi" qoyun!"[28]

İmam Buxarinin "Səhih" əsərində Əbu Hureyrədən ﵁ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: Uca Allah buyurmuşdur: "Qulumun dünya həyatında sevdiyi yaxınının canını almış olsam, o da buna səbir etsə, bunun mükafatı yalnız Cənnətdir."[29]

Bütün qullarını fani yaradan, Öz hikmətinə və istəyinə uyğun olaraq onlar barədə əmr buyuran, qəza və qədərinə səbir edənləri mükafatla müjdələyən, razı olmayanları isə peşman edən Allaha həmd olsun. O, Öz tədbiri ilə arif insanların qəlblərinə rahatlıq vermiş, Allahın qəza və qədərinə razı olmaqla qəlblərinə sevinc bəxş etmişdir. Hər bir halda Allaha həmd və şükürlər olsun! Biz yalnız Ondan müvəffəqiyyət və imdad umuruq.

Övladını itirən kəsə verilmiş müjdələr:

Birinci müjdə: Allah tərəfindən tariflər, mərhəmət və hidayət.

Uca Allah buyurur: **"Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!"– deyirlər. Onlara öz Rəbbi tərəfindən təriflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır."**[30]

İkinci müjdə: Cəhənnəm odundan qurtuluş:

Övladını itirən kəs buna səbir etdikdə, Cəhənnəm odundan və Allahın qəzəbindən qurtulmuş olur.

---

[27] Yəni "innə lilləhi va innə ileyhi raciun/həqiqətən, biz, Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq!"- demək.

[28] Sunən ət-Tirmizi 1021.

[29] Buxari, 6424.

[30] əl-Bəqərə, 155-157.

Əbu Hureyrədən ﷺ rəvayət olunan hədisdə o, demişdir: Bir dəfə bir qadın uşağı ilə birlikdə Peyğəmbərin ﷺ yanına gələrək dedi: Ey Allahın Rəsulu, bunun üçün Allaha dua et, mən övladlarımdan üçünü artıq dəfn etmişəm. Peyğəmbər ﷺ buyurdu: "Bununla sən Cəhənnəm oduna qarşı etibarlı bir maneəyə yiyələnmisən."[31]

Üçüncü müjdə: Cənnətə daxil olmaq.

Uca Allah buyurur: **"Möminlərin imanda onların arxasınca gedən nəsillərini də *Cənnətdə* özlərinə qovuşduracağıq. Onların əməllərindən heç bir şey əskiltməyəcəyik. Hər kəs qazandığının girovudur."**[32]

Ənəs ibn Malikdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: "İnsanlardan hər hansı bir müsəlmanın həddi-büluğa çatmamış üç övladı vəfat etmiş olarsa, Uca Allah onlara olan mərhəməti sayəsində həmin şəxsi Cənnətə daxil edər."[33]

Mahmud ibn Ləbid, Cabirin ﷺ belə dediyini rəvayət etmişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Kimin üç övladı ölərsə və buna səbir edərsə Cənnətə daxil olar." Biz soruşduq "Ey Allahın rəsulu, bəs ikisi ölmüş olsa?" O, buyurdu: "İkisi ölmüş olsa da." Mahmud dedi: Mən Cabirdən soruşdum: Görəsən bir övladını itirən barədə də soruşsaydınız ona da razılıq verərdimi? Cabir dedi: Vallahi ki, məncə verərdi."[34]

Dördüncü müjdə: Həmd evi.

Uca və Nöqsansız Allah övladını itirən kəsə Cənnətdə ona məxsus və xüsusi əlamətə malik ev veriləcəyi barədə xəbər vermişdir. Həmin ev Həmd evidir. Əbu Musa əl-Əşaridən ﷺ rəvayət edilən hədisdə Rəsusulullah ﷺ demişdir: "Bir adamın uşağı öldükdə Allah mələklərindən soruşur: "Qulumun uşağınımı aldınız?" Onlar: "Bəli"– deyə cavab verirlər. Allah soruşur: "Qulumun ürəyinin meyvəsinimi aldınız?" Onlar: "Bəli"– deyə cavab verirlər. Sonra Allah soruşur: "Qulum nə dedi?" Onlar: "Sənə həmd və istirca[35] etdi"– deyə ca-

---

[31] Muslim, 2636.

[32] ət-Tur surəsi, 21.

[33] Buxari, 1248.

[34] Əhməd 3/306 (14336), Buxarinin Ədəbul-mufrad əsəri (146).

[35] Yəni "innə lilləhi va innə ileyhi raciun/həqiqətən, biz, Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq!"- demək.

vab verirlər. Onda Allah buyurur: "Quluma Cənnətdə bir ev tikin və adını da "Həmd evi" qoyun!"[36]

## Əvvəlkilərdən övladını itirənlərin xəbərlərindəki ibrətlər

Şəkk yoxdur ki, bu həyat qəm, qüssə və kədərdən ibarətdir. Bəla, müsibət və fitnələr hər bir insanın həyatında olur. İnsanın başına müxtəlif hadisələr gəlir və həyatdan gedənədək həmin müsibətlər də mövcud olur. İnsan da çətinliyə düşmədən öyrəncəli olmur. Bəlalar həqiqi kişiləri üzə çıxarır. Necə ki, İmam İbn əl-Cəuzi demişdir: "Hər kim əsla bəlaya düçar olmadan, hər zaman salamatlıq və afiyət içərisində olmaq arzusundadırsa, o kəs mükəlləfiyyət və təslimçilikdən bixəbərdir. İman gətirməyindən və ya kafir olmağından asılı olmayaraq hər bir nəfsin ağrı çəkməsi labüddür. Odur ki, heç kim imtahan və ağrıdan salamat olacağını düşünməsin. İnsan nemət bəxş olunmaqla imtahanlara mübtəla olmaq arasında həyat sürür."[37]

Lakin kim bu ayrılığın mahiyyətini dərk edərək onun qaçılmaz olduğunu anlayarsa bilməlidir ki, ondan daha fəzilətli olanlar da imtahanlarla üzləşiblər. Həmçinin anlamaq lazımdır ki, şivən qoparmaq və ah-nalə çəkmək itkini geri qaytarmır. Əksinə, bu kimi əməllər nöqsansız və uca olan Allahı qəzəbləndirir və düşmənləri azğınlaşdırır. Bunu bildikdən sonra gərək hər kəs yalnız səbir etsin və ilk sələflərin yolunu tutub getsin. Baxmaq lazımdır ki, onlar imtahanla üzləşdikdə nə edərdilər.

Sabitdən rəvayət edilir ki, Ənəs ibn Malik ﵁ demişdir: "Biz Peyğəmbərlə ﷺ birlikdə dəmirçi Əbu Seyfin yanına gəldik. Əbu Seyf İbrahimin süd anasının əri idi. Peyğəmbər ﷺ oğlu İbrahimi qucağına alıb öpdü və onu iylədi. Bir müddətdən sonra biz yenə onun yanına getdik. İbrahim artıq can verirdi. Peyğəmbərin ﷺ gözləri yaşla doldu. Abdurrəhman ibn Auf dedi: "Sən də *ağlayırsan*, ya Rəsulullah?" O: "Ey ibn Auf, bu bir mərhəmətdir!"– deyə buyurdu, sonra ağlaya-ağlaya dedi: "Həqiqətən, gözlər ağlayır, qəlb kədərlənir və biz ancaq

---

[36] Sunən ət-Tirmizi 1021.

[37] Sunən ət-Tirmizi 1021.

Rəbbimizin razı qalacağı sözləri danışırıq. Ey İbrahim, həqiqətən də, biz sənin ayrılığına kədərlənirik."[38]

Raşidi xəlifələrdən hesab olunan Ömər ibn Abdüləziz ﷺ öz oğlu Abdulmalik vəfat etdikdə səbir etmək, dözüm nümayiş etdirmək və fəryad deyil sevinc hissləri keçirmək xüsusunda, gözəl bir örnək olmuşdur. Sufyan əs-Sövri demişdir: Ömər ibn Abdüləziz, oğlu Abdulmalik xəstə olarkən ona dedi: Özünü necə hiss edirsən? Oğlu: "Ölü kimi" – deyə cavab verdi. Ömər dedi: "Sənin mənim tərzimdə olmağın, mənim sənin tərəzində olmağımdan daha sevimlidir." Oğlu dedi: "Atacan, sənin sevdiyin şeyin olması, mənim sevdiyimdən daha önəmlidir." Oğlu Abdulmalik vəfat etdikdə Ömər dedi: "Ey oğlum, sən bu dünyada uca Allahın bu ayəsi kimi idin: "Şübhəsiz ki, mal-dövlət və övladlar bu dünyanın ziynətidir." Həqiqətən də, sən bu dünyanın ən əfzəl ziynəti idin. Diləyim odur ki, mən dünyadan savab və ümid baxımından daha xeyirli olan əbədi qalan saleh əməllərdən olum. Vallahi ki, səni kənardan çağırarkən mənə cavab verməyin məni sevindirməz. Onu dəfn etdikdən sonra isə məzarının kənarında durub dedi: "Səni müjdələdiyimdən bəri hələ də sənə görə sevinirəm. Sənin üçün bu gündən daha sevincli bir günüm olmayıb. Sonra dedi: Allahım Abdulmalik ibn Öməri və onun üçün bağışlanma diləyənləri bağışla."[39]

Şair demişdir:

Allah bizi əsla ayırmasın

Çünki ayrılığın dadı çox acıdır.

Əgər ayrılıqla görüşə bilsəydik,

Ayrılığa ayrılığı daddırardıq.

Allahım müsibətə düçar olmuş hər kəsə sükunət nazil et, əzizini itirmiş hər kəsə səbir ver, Allahım bizləri də qəza və qədərlə razılaşaraq səbir edənlərdən buyur.

Rəvayət olunur ki, Sabit demişdir: "Abdullah ibn Mutarrif vəfat etdikdə onun atası Mutarrif öz xalqının yanına gözəl libas geyinib

---

[38] əl-Buxari (1303).

[39] əl-Mucələsə va cəvahirul-ilm (2/250), Nəvəvinin əl-Əzkar əsəri 152-ci səh, Təsliyətu əhlil məsaib (156-cı səh).

saç-saqqalına yağ sürətək çıxır. İnsanlar onu görüb qəzəblənərək deyirlər: “Oğlun Abdullah vəfat edib, sən isə gözəl libas geyinib bu halda çıxmısan.” O, belə cavab verir: “Bəs nə edim, oğlumu itirdiyimə görə müsibətin qarşısında əyilimmi? Uca Rəbbim mənə üç şey vəd etmişdir ki, onlardan hər biri yer üzü və onun üzərindəkilərdən daha xeyirlidir. Uca Allah buyurur: **“O kəslər ki, onlara bir müsibət üz verdikdə: “Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!” – deyirlər. Onlara öz Rəbbi tərəfindən təriflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır.”**[40] Demək, birinci təriflər, ikinci mərhəmət, üçüncü isə doğru yola hidayət olunmaq.

Bir dəfə İbn Abbas səfərdə olarkən ona qızlarından birinin vəfat etməsi barədə xəbər verildi. Bunu eşitdikdə o, “İnnə lilləhi va innə ileyhi raciun” - dedi. Sonra dedi: O, Allahın yaratdığı bir övrət idi, Allah da onu örtdü. O, bir ehtiyac idi, Allah da onu ödədi. O, bir əcr idi Allah onu nəsib etdi. Sonra o, iki rükət namaz qıldı və dedi: Uca Allahın əmr etdiklərini yerinə yetirdik. Uca Allah buyurur: **“Səbir və namazla Allahdan yardım diləyin.”**[41]

Urva ibn Zubeyr də abid və təqvalı insan idi. Bir dəfə o, səfərdə olarkən ayağından ağır xəsarət alır. Həkim çağırırlar və onun ayağı yarıdan amputasiya olunur. Bu zaman onun heç səsi belə çıxmır. Az sonra xəbər gəlir ki, oğlu Muhəmməd qatırın tapdaqları altında qalaraq vəfat edib. Yenə də onun səsi çıxmır. Geri döndükdə o, bu ayəni oxudu: **“Biz bu səfərimizdə lap əldən düşdük– dedi.”**[42] Sonra dedi: “Allahım mənə yeddi övlad bəxş etmişdin, indi onlardan birini məndən aldın, altısı qaldı. Həmçinin mənim dörd ətrafım var idi. Onlardan birini aldın və üçü qaldı. Həqiqətən sən müsibət göndərdikdə, bizi əfv edirsən. Nəyisə aldıqda, bizə də saxlayırsan.

Bilin ki – Allah sizə rəhm etsin – ağlamaq istəyən özü üçün ağlasın. Necə ki, rəvayətə görə sələflərdən biri ölüm ayağında ikən həyat yoldaşı ağlamağa başlayır. O deyir: “Özün üçün ağla. Ağlayırsansa, öz halına ağla. Mənə gəldikdə isə, mən bu günüm üçün qırx il ağlamışam.”

---

[40] əl-Bəqərə, 156-157.

[41] əl-Bəqərə, 45.

[42] əl-Kəhf, 62.

Sevimli şəxslərin həyatda köçməsi bizim üçün bir xatırlatmadır ki, biz də, bu dünyadan köçüb gedəcəyik.

**Bəlaya səbir etmək**

Səbir müsəlmanın həyatdakı çırağıdır. Ondan daha yüksək rütbə Uca Allahın qəza və qədəri ilə razılaşmaqdır. Peyğəmbərlər və əməlisaleh insanlar buna gözəl misal olmuşlar. Onların başında da peyğəmbərimiz Muhəmməd ﷺ gəlir. Həmçinin, Əyyub عليه السلام da, bu xüsusda gözəl nümunədir. Odur ki, əgər müsəlman olan kəs yüksək dərəcələrə nail olmaq istəyirsə, gərək səbir edib razı qalsın.

**Səbir sözünün mənası:**

Səbir sözünün lüğəti mənası həbs və qadağadır.

Şəri mənasına gəlincə isə insanın öz nəfsini ah-nalədən, dilini şikayətdən, bədən üzvlərini isə üzünə vurub, yaxanı cımaqdan həbs etməyə deyilir.

Bəziləri isə səbiri yüksək bir əxlaqi keyfiyyət kimi xarakterizə etmiş, yaxşı əməl hesab olunmayan hər işdən əl çəkməyi səbir adlandırmışdır. Səbir insanın bütün işlərinin səhmana salınmasına yardım edən bir gücdür.

Nəfs iki növ gücə sahibdir: gəlmə güc, həcmi güc. Səbirin mahiyyəti gəlmə gücü faydalı işlərə yönəltmək, həcmi gücü isə zərərli işlərdən həbs etməkdir.

**Razılığın məqamı və səbirlə əlaqəsi:**

Razılıq: qəlbin rahatlığı, qəza və qədərlə barışması, ağrının keçməsini təmənna etməyi tərk etməkdir. Hətta ağrı hissi olsa belə razılıq onu yüngülləşdirərək qəlbə yəqinlik ruhu verir. Yəni insana bir müsibət üz verdikdə həmin müsibətin aradan qalxmasını təmənna etmir ki, izzət və cəlal sahibi olan Allahın verdiyi savabdan məhrum olmasın. Əgər bəndəyə itirdiyi nemətin geriyə qayıtması ilə Allahın qədəri ilə razılaşmaq arasında seçim imkanı verilsə, o, ikincini tərcih etməlidir. Hətta itirilmiş nemət onun övladı, mal-dövləti, görmə və ya eşitmə qabiliyyəti olsa belə. O, yalnız Allahın savabını, qədərinə olan məhəbbətini istəməlidir. Beləsi izzət və cəlal sahibi olan Allahın qədəri ilə razılaşaraq nəfsi rahat olur.

Şeyxul İslam demişdir: "Allahın hökmünə razılıq səbirin ən yüksək mərtəbəsidir və bunu etmək müstəhəbdir. Ondan daha yüksək mərtəbə isə müsibətə görə Uca Allaha şükür etməkdir. Belə ki, O, həmin müsibətin sayəsində onun günahlarını əfv edib, dərəcələrini qaldırmaqla ona misilsiz nemət bəxş etmişdir. Odur ki, Allaha yönələrək Ona yalvarmaq, ixlasla Ona təvəkkül etmək, məxluqlardan deyil Ondan rica etmək gərəkdir."

Şeyxul İslam demişdir: "Səbirdə olduğu kimi razılıq barədə əmr yoxdur. Sadəcə razı qalanlar tərif olunmuşdur."

Razılığı izzət və cəlal sahibi olan Allah öz məxluqlarına vacib etməmiş, müstəhəb buyurmuşdur. Həmçinin O, razı qalanları tərifləyərək onun savabının Allahın razılığı olduğunu bildirmişdir. Hansı ki, Allahın razılığı Cənnətdən və onun üzərindəki nemətlərdən daha böyükdür. Kim öz Rəbbindən razı qalarsa izzət və cəlal sahibi olan Allah da, ondan razı qalar.

**Bəlanın səmərələri (bəlaya səbir etmənin səmərələri)**

Uca Allah öz kitabında səbir edənləri müjdələyərək buyurur: **"Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbr edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!" – deyirlər. Onlara öz Rəbbi tərəfindən təriflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır."**[43]

Peyğəmbər ﷺ də, bizləri öyrədərək demişdir: "Heç kimə səbirdən daha xeyirli və böyük nemət bəxş olunmayıb."[44]

**Səbir edənlər zəfər çalıb nicata çatanlardır:**

Uca Allah axirətdə nicata çatmış möminlər barədə buyurur: "**Bu gün Mən səbir etdiklərinə görə onları mükafatlandırdım. Şübhəsiz ki, uğur qazananlar da onlardır!"**[45]

Həmçinin Uca Allah Qiyamət günü Cənnət əhlinə nə deyiləcəyi barədə müjdə verərək buyurur: **"Səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdunuz necə də gözəldir!"**[46]

---

[43] əl-Bəqərə 155-157.

[44] əl-Buxari (1469), Muslim (1053).

[45] əl-Muminun surəsi, 111.

[46] ər-Rəd surəsi, 24.

Rəvayət edilir ki, Əta ibn Əbu Rəbah demişdir: "*Bir dəfə* İbn Abbas mənə dedi: "Sənə Cənnət əhlindən olan bir qadın göstərimmi?" Mən: "Göstər"- dedim. İbn Abbas dedi: "Bu zənci qadın, *bir zaman* Peyğəmbərin ﷺ yanına gəlib demişdi: "*Ya Rəsulullah,* mən bəzən bayılıram və üstüm-başım açılır. Mənim üçün Allaha dua et!" Peyğəmbər ﷺ buyurdu: "İstəyirsən səbir et, sənə Cənnət nəsib olsun, istəyirsənsə, dua edim, Allah sənə can sağlığı versin." Qadın dedi: "Mən səbir edərəm, amma mənim üstüm açılır. Allaha dua et ki, üstüm açılmasın." Peyğəmbər ﷺ də, onun üçün dua etdi."[47]

**Əcrlərini hesabsız əldə edənlər:**

Uca Allah buyurur: **"Yalnız səbir edənlərə mükafatları hesabsız veriləcəkdir."**[48] Süleyman ibn Qasim demişdir: Hər bir əməlin savabı bəllidir, bircə səbirdən başqa. **"Yalnız səbir edənlərə mükafatları hesabsız veriləcəkdir."**[49] Sonsuz axan su kimi.

**Uca Allah səbir edənlərə bunun əvəzini xeyirlə verir:**

Musab ibn Səad, atası Səad ibn Əbi Vaqqasın ؓ belə dediyini rəvayət etmişdir: Bir dəfə mən dedim: "Ey Allahın rəsulu, hansı insan daha şiddətli bəlaya düçar olunmuş sayılır?" O, buyurdu: "Peyğəmbərlər, sonra da, onlara oxşayanlar. Bəndə dininə görə imtahan olunar. Dinində nə qədər möhkəm olsa bir o qədər çox bəlalarla üzləşər. Yox əgər dinində zəif olarsa o zaman dininə görə imtahan olunar. Bəlalar o qədər gələr ki, insanı yer üzərində gəzməyə imkan verməz. Beləcə onun bütün xətaları əfv olunar."[50]

**Səbir günahların bağışlanmasına və savabların çoxalmasına səbəbdir:**

Sələflərdən bəzisi demişdir: "Əgər müsibətlər olmasaydı, axirətə müflis vəziyyətdə gedərdik." Əbu Hüreyrədən ؓ nəql olunan hədis-

---

[47] Əhməd (3240), Buxari (5652), Muslim (6663).

[48] əz-Zumər surəsi, 10.

[49] əz-Zumər, 10.

[50] Əhməd (1481), Darimi (2783), Tirmizi (2398), Albaninin Silsilətul-əhadis əs-səhihə əsəri (1/225).

də Peyğəmbər ﷺ demişdir: "Müsəlmana üz vermiş elə bir yorğunluq, elə bir naxoşluq, elə bir kədər, elə bir üzüntü, elə bir əziyyət, elə bir dərd, hətta ayağına batan elə bir tikan yoxdur ki, onun sayəsində Allah həmin müsəlmanın günahlarını bağışlamasın."[51]

**Səbir qəlblərin hidayətə varmasına səbəbdir:**

Şübhəsiz ki, səbir qəlblərin hidayətə varmasına, yumşalmasına, sınmasına səbəbdir. Nə qədər insan olub ki, xəstələndikdən sonra Allaha yönəlib. Nə qədər insan olub ki, əzizini itirdikdən sonra Rəbbinə tərəf yönəlib. Uca Allah buyurur: **"Kim Allaha iman gətirərsə onun qəlbi hidayətə varar."**[52] Əlqəmə demişdir: Bu o kəsə aiddir ki, başına müsibət gəlir və o, həmin müsibətin Allah tərəfindən olmasını bilir, bununla razılaşaraq təslim olur. Ayənin mənası: "Kim başına bir müsibət gəldikdən sonra onun Allahın qədəri olmasını biləræk səbir edərsə, Allahın qədərinə təslim olarsa Allah onun qəlbini hidayətə yönəldər, itirdiyi hidayəti ona verərək qəlbini rahat və yəqinli edər və beləliklə böyük bir xeyirə nail olar."[53]

Allahım, bizləri səbir və şükür edən, Sənin qədərinlə razılaşan bəndələrindən et və bizi hidayətə yönələn və yönəldən qullarından et.

**Sıxıntı ilə xəstəlik arasında:**

Ailəmiz Abdullahla həmd evinə səfər etdiyi zaman aşağıdakı ayəni yaşamışdır: **"Yoxsa siz elə güman edirdiniz ki, sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlmədən Cənnətə daxil olacaqsınız? Onlara elə sıxıntı və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və onunla birlikdə olan möminlər də: 'Allahın köməyi nə vaxt *gələcək*?'– dedilər. Həqiqətən, Allahın köməyi yaxındır."**[54] Burada sıxıntı deyildikdə əsayişin pozulması, ölkədən çıxarılma, xəstəlik və ölüm nəzərdə tutulur. Zərər deyildikdə isə insanın özünün xəstələnməsi, əzaba düçar olunması və ya ölməsi nəzərdə tutulur.

---

[51] Əhməd (8014), Buxari (5641), Muslim (6660).

[52] ət-Təğabun, 11.

[53] Təfsir İbn Kəsir, 8/161. Darul-Kutubul-İlmiyyə, 1-ci nəşr, 1419 h.

[54] əl-Bəqərə, 214.

**Ah-nalə çəkib ağlamaq və şivən salmağın nəhy olunması:**

Mərhəmətli Allaha həmd olsun, O, hər zaman hökm verdikləri məsələlərdə Müdrik, bəndələrinin hüznlərini unutmaları üçün Mərhəmətlidir. O, səbir edənlərin sonsuz savaba nail olacaqlarını xəbər vermişdir.

İmam Zəhəbi "Böyük günahlar" əsərində Ömər ibn əl-Xəttabın belə dediyi rəvayət olunur: "Ölüm mələyi ﷺ möminin ruhunu aldıqda qapının önündə durar, evdə isə ölmüş şəxsin yaxınları səs-küy salar. Bəziləri üzünü vurur, digərləri saçını yolur, bəziləri də vay-şüvən qoparır. Bu vaxt ölüm mələyi ﷺ deyir: Bu nə səs-küydür, vallahi ki, o sizlərdən heç kimin ömrünü qısaltmayıb, ruzisini azaltmayıb, heç birinizə zülm etməyib. Əgər şikayətiniz və qəzəbiniz mənədirsə, vallahi ki, mən əmr olunmuş bir qulam. Yox əgər ölünüzədirsə, o da acizdir. Yox əgər Rəbbinizədirsə, Ona qarşı küfr etmiş olursunuz. Mən hələ sizlərin də bircə bircə yanınıza gələrək canlarınızı alacağam." Peyğəmbər demişdir: "Nəfsim Əlində olan Allaha and olsun ki, əgər onlar onugörüb səsini eşitmiş olsaydılar ölülərini yaddan çıxarıb öz hallarına ağlayardılar."[55]

Şeyxul İslam Abdul-Qadir Ceylani öz oğluna vəsiyyət edərək demişdir: "Ey övladım, şübhəsiz ki, müsibətlər səni həlak etmək üçün gəlmir, əksinə sənin səbirini və imanını yoxlamaq üçün gəlir. Ey oğlum, qədər yeddi növdür. Həmin yeddi, isə meyiti yemir."[56]

Əbud-Dərda demişdir: "Allah qədəri buyurmuş və ondan razı qalınmasını istəmişdir."[57]

İmam Buxari ﷺ demişdir: "Ölü üçün ah-nalə çəkilməsinin məkruh olması bölümündə Ömərin belə dediyi rəvayət olunur: "Qoy onlar Əbu Süleyman üçün ah-nalə çəkməmək və başlarına torpaq tökməmək şərtilə ağlasınlar."[58]

Həmçinin İmam Buxari öz isnadı ilə Muğira ibn Şöbədən ﷺ rəvayət etmişdir ki, mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Kimin üzərində ah-nalə çəkilirsə həmin ah-naləyə görə ona əzab olunar."[59]

---

[55] əl-Kəbair, 187.

[56] Təsliyətu Əhlil-Məsaib, səh. 166.

[57] Ədəbuş-Şəriə, İbn Muflih, 2/192. Aləm əl-Kutub nəşriyyatı.

[58] Səhih əl-Buxari, 2/80; Dar İbn Kəsir, Beyrut, 3-cü nəşr, 1407 h – 1987 m.

[59] Səhih əl-Buxari, 1291.

Buxari رحمه الله demişdir: Peyğəmbərin ﷺ: "Üzərində ah-nalə ilə ağlanılan kəsə əzab olunar" babı ah-nalə çəkməyə aiddir.[60] Uca Allah buyurur: **"Özünüzü və yaxınlarınızı oddan qoruyun."**[61] Beləliklə qadağan olunmuş ağlama ah-nalə ilə olandır. Ah-nalə çəkmək isə uca səslə olur ki, bu da Allahın qədərinə qarşı narazılığın ifadəsidir.

Buxari رحمه الله demişdir: Ah-nalə çəkməyin, şivən salıb ağlamağın qadağan olunması fəsli.[62]

Yox əgər insan sadəcə kədərlənərək ağlayarsa, bunda bir qəbahət yoxdur. Çünki bunu hətta insanlar içərisində ən təqvalı olanı da ﷺ etmişdir.

Buxari demişdir: Ah-nalə çəkmədən icazəli ağlamaq fəsli.[63]

Sonra öz isnadı ilə Usamə ibn Zeydin رضي الله عنه belə dediyini rəvayət etmişdir: "Bir dəfə Peyğəmbərin ﷺ qızı onun yanına adam göndərdi ki, övladım dünyasını dəyişib bizə gəl. O da ona salam göndərib dedi: Verən də Allahdır, alan da. Hər şeyin onun yanında bir əcəli var. Qoy səbirli olsun və bunun əvəzini Allahdan umsun. O yenə də onun yanına adam göndərdi ki, hökmən gəlsin. O, ayağa qalxaraq Səad ibn Ubadə, Muaz ibn Cəbəl, Ubey ibn Kəab, Zeyd ibn Sabit və bir neçə nəfərlə birlikdə getdilər. Həmin vaxt uşaq Peyğəmbərin ﷺ hüzuruna gətirilmişdi və Peyğəmbərin ﷺ gözləri yaşarmışdı. Səad dedi: "Bu nədir, ey Allahın rəsulu?" O, buyurdu: "Bu, Allahın öz qullarının qəlblərində yerləşdirdiyi mərhəmətdir. Şübhəsiz ki, Allah mərhəmətli qullarına rəhm edər."[64]

Ayni demişdir: "Hədisdəki "gözləri yaşarmış halda idi" ifadəsi ah-nalə çəkmədən sakit ağlamağın caiz olmasına dəlildir. Buna görə nə ölüyə nə də ağlayana günah yazılmır."[65]

Həmçinin İbn Abdul-Bərr رحمه الله demişdir: "Əbu İshaq əs-Səbiyi, Amir ibn Səd əl-Bəcəlidən, o da Əbu Məsud əl-Ənsaridən və Sabit ibn Zeyddən və Qurza ibn Kəabdan onların belə dediklərini nəql etmişdir: "Vay-şivən qoparmadan ölünün üzərində ağlamağa icazə ve-

---

60 Səhih əl-Buxari, 2/79.

61 ət-Təhrim, 6.

62 Səhih əl-Buxari, 1/439.

63 Səhih əl-Buxari, 2/79.

64 Səhih əl-Buxari, 1284; Muslim, 923.

65 Umdətul-Qari, 8/72. Dar İhya ət-Turas əl-Arabi, Beyrut.

rildi. Peyğəmbərin ﷺ oğlu İbrahim vəfat etdikdə gözləri yaşarmış və kədərlənmişdi."[66]

Ənəs dedi: "Mən gördüm ki, İbrahim Peyğəmbərin ﷺ qucağındadır və Peyğəmbərin ﷺ gözləri yaşla dolub. Sonra Peyğəmbər ﷺ buyurdu: "Gözlər yaşarır, qəlb kədərlənir, buna baxmayaraq biz yalnız Rəbbimizi razı salacaq sözlər deyirik. Ey İbrahim, vallahi ki, biz səndən ötrü kədərlənirik."[67]

Nəvəvi demişdir: "Peyğəmbərin gözləri yaşardı..." hədisi xəstənin və ya hüznlü olanın ağlamağının caiz olmasına dəlildir. Bu növ ağlamaq qədərə razılıqla ziddiyyət təşkil etmir. Ah-nalə çəkmək, fəryad qoparmaq kimi əməllər isə yolverilməzdir. Buna görə də Peyğəmbər ﷺ buyurur ki: "Biz yalnız Rəbbimizi razı salacaq sözlər deyirik."[68]

Bir dəfə Səd ibn Ubadə ؓ ağrıdan şikayət edərkən Peyğəmbər ﷺ ağlamağa başlayır. İnsanlar da, Peyğəmbərin ﷺ ağladığını görüb ağlamağa başlayırlar. Onda Peyğəmbər ﷺ buyurur: "Şübhəsiz ki, Allah gözlərdən axan yaşa və ya qəlbin kədərlənməsinə görə əzab verməz. Sonra o, əli ilə dilinə işarə edərək dedi: yalnız buna görə əzab verir və ya rəhm edir. Həmçinin, üzərində ağlanılan meyitə əzab verilir."[69]

Allahım, həmd Sənə məxsusdur, Səndən başqa ibadətə layiq məbud yoxdur, Sən təksən, şərikin də yoxdur, ey nemətlər bəxş edən, ey göyləri və yeri yaradan, ey izzət və cəlal sahibi, ey Diri və Ölməz, Səndən diləyirik ki, həm bizim, həm də bütün müsəlmanların ölülərini əfv edəsən, Allahım onlara rəhm et, onları bağışla, onları əfv et, onların yerlərini genişlət, onları su, qar və dolu ilə yu, ey Rəhimlilərin rəhimlisi!

**Səbir və bəlalara səbir etmək**

**Şeyx Mutəvalli əş-Şəaravi (6 : 37)**

**Sevdiyin adamın ayrılığına necə dözəsən**

**Şeyx Mişari əl-Xərraz (11 : 13).**

---

[66] İsrizkar, İbn Abdul-Bərr, 3/67; Dar əl-Kutub əl-İlmiyyə, Beyrut, 1421 h – 2000 m.

[67] Muslim, 2315.

[68] Muslimin şərhi, ən-Nəvəvi, 15/75, Dar İhya ət-Turas əl-Arabi, Beyrut, 1392 h.

[69] Buxari, 1304.

## Meyitə hörmət etmək barədə ([70])

Meyitə ehtiram göstərmək deyildikdə ilk ağıla gələn şey: "Meyitə hörmət etmək, onu dəfn etməkdir"- hədisi olur. İnsanların çoxu elə təsəvvür edir ki, meyiti dəfn etməkdə tələsmək şəriətin buyurduğu yeganə ehtiram formasıdır.

Reallıq isə budur ki, İslam dini meyitə həm maddi, həm də mənəvi cəhətdən ehtiram göstərilməsinə diqqət verir. Lakin maddi ehtiramı mənəvi ehtiramdan ayırmaq doğru deyil. Belə ki, meyitə maddi cəhətdən ehtiram, eyni zamanda mənəvi ehtiram da sayılır. Çünki bədənə ehtiram, ruha da ehtiram sayılır. Hətta demək olar ki, bütünlüklə insana hörmət sayılır.

İslamın insana göstərdiyi hörmətin təzahürlərindən onun yuyulub kəfənlənməsində, cənazə namazının qılınmasında, dəfnində və qəbrinin ziyarət edilməsində xüsusi ədəb qaydalarına riayət olunmasıdır. Bunları cəm edən ortaq bir ifadə meyitə ehtiram göstərilməsidir. Həmçinin, meyitlərə xətər yetirmək və ya onu pis halda xatırlamaq olmaz. Əksinə, ölmüş şəxsin yalnız müsbət keyfiyyətlərini xatırlamaq, onlar üçün dua və bağışlanma diləmək gərəkdir.

Bu xüsusda Qurani Kərimdə və şərəfli sünnədə kifayət qədər dəlillər mövcuddur. Misal üçün Uca Allah buyurur: **"Biz Adəm oğullarını hörmətli etdik, onları quruda və dənizdə *minik üstündə* daşıdıq, onlara pak ruzilər verdik və onları yaratdıqlarımızın çoxundan xeyli üstün elədik."**[71] Bu ayənin ləfzi ümumidir. Yəni həm ölülərə, həm də dirilərə aiddir. Peyğəmbərin ﷺ sünnəsində varid olmuş bir çox hədislər sübut edir ki, Adəm oğluna ehtiram göstərmək deyildikdə, ölülər də nəzərdə tutulur. Ölülərə hörmət etmək dirilərə hörmət etməyə bərabərdir. Peyğəmbər ﷺ demişdir: "Ölülərinizin yaxşı cəhətlərini xatırlayın, pis xüsusiyyətlərini dilə gətirməyin."[72]

Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Ölülərinizi etibarlı adamlar yusun."[73]

---

[70] Bu məqalə, 12.07.2015 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[71] əl-İsra, 70.

[72] Əbu Davud (4900), Tirmizi (1019).

[73] İbn Macə (1461). Albani bu hədisin "movdu" olduğunu demişdir. Bax. Silsilətul-Əhadisis-Daifə, 9/386.

Başqa bir hədisdə buyurmuşur: "Ölmüş bir kəsin sümüyünü sındırmaq, diri adamın sümüyünün sındırılmasına bərabərdir."[74]

Həmçinin ﷺ buyurmuşur: "Sizlərdən biri qardaşını kəfənlədikdə gözəl şəkildə kəfənləsin."[75]

Həmçinin, Peyğəmbərin ﷺ qəbirlərin üstünü inşa etməyi, üzərində yazı yazmağı, habelə onu tapdalamağı qadağan etməsi də buna aiddir.[76]

Üstəlik, Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Birinizin köz üzərində oturaraq dərisinə qədər libasını yandırması məzar üzərində oturmasından daha yaxşıdır."[77]

İbn Ömərdən rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Sizlərdən biriniz dünyasını dəyişdikdə onu saxlamayın, onu dəfn etməyə tələsin."[78]

Həmçinin, Peyğəmbər ﷺ ölmüş şəxs barədə tövsiyə edərək demişdir: "Ölülərinizi əməlisaleh şəxslərin arasında dəfn edin. Şübhəsiz ki, diri insan pis qonşusundan əziyyət çəkdiyi kimi meyit də pis qonşuya görə əziyyət çəkir."[79]

Buna bənzər hədislər Sünnədə olduqca çoxdur. Həmin hədislər dinimizin həm diriyə, həm də ölüyə nə qədər dəyər verdiyini göstərir. İslam nemətinə görə Allaha həmd olsun.

---

[74] İbn Macə (1616).
[75] Muslim (943), Əbu Davud (3148), Nəsai (1895).
[76] Tirmizi, (1052).
[77] Muslim (971).
[78] Təbəraninin "əl-Kəbir" əsəri, (13613).
[79] Əbu Nueymin əl-"Hulyə" əsəri, (6/354).

## Allahdan daha doğru söz söyləyən kim ola bilər! ([80])

Burada azacıq iki müxtəlif ayədə keçən "hədisən" və "qilən" sözlərinin üzərində durmaq istəyirəm. Hər iki ayə ən-Nisa surəsindədir. Uca Allah buyurur: **"Özündən başqa ilah olmayan Allah, *baş verəcəyinə* şübhə edilməyən Qiyamət günü sizi mütləq *bir yerə* toplayacaq. *Verdiyi* xəbərdə Allahdan daha doğru *söyləyən* kim ola bilər?"**[81] O, həmçinin buyurur: **"İman gətirib saleh əməllər edənləri isə *ağacları* altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağlarına daxil edəcəyik. *Bu,* Allahın gerçək vədi sayəsində olacaqdır. Sözündə Allahdan daha doğruçu kim ola bilər?"**[82]

Fikir versək görərik ki, hər iki ayədə Qiyamət günündən bəhs olunur və deyilir ki, onun gələcəyinə şübhə yoxdur. Həmçinin, iman gətirib yaxşı işlər görənləri də, Uca Allahın altından çaylar axan cənnətlərə daxil edəcəyi də şübhəsizdir.

Həmçinin, fikir versəniz görəcəksiniz ki, hər iki ayənin sonu sual və təhdidlə bitir. Burada ayə xəbər formasında da nazil oluna bilərdi. Misal üçün deyilə bilərdi ki, Allahdan daha doğru söz söyləyən yoxdur. Lakin Uca Allah insanın bir az düşünməsi üçün ayəni sual formasında nazil etmişdir. İnsan düşünməlidir ki, Allahdan daha doğru söz söyləyən ola bilərmi? Cavab da yəqinliklə: Xeyr – olacaqdır. Bəs görəsən nə üçün insanların çoxu ölümdən sonra yenidən dirilişə şübhə ilə yanaşırlar?

Üçüncü mülahizə isə ondan ibarətdir ki, Uca Allah bu ayələrdə eyni mənanı daşıyan iki fərqli söz işlətmişdir. Təfsir alimlərindən biri bu ayələrdə müxtəlif ləfzlərin işlənməsini dil baxımından uyğun olması ilə əlaqələndirib. Belə ki, işlənən söz özündən əvvəlki sözlərin hərflərinin sayına görə həmahəngdir. Həmçinin, ərəblərin adətindən idi ki, eyni sözü bir neçə dəfə təkrarlamağı qeyri-münasib sayardılar. Beləcə birinci ayədə: **"Özündən başqa ilah olmayan Allah, *baş verəcəyinə* şübhə edilməyən Qiyamət günü sizi mütləq bir yerə topla-**

[80] Bu məqalə, 15.11.2015 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[81] ən-Nisa, 87.

[82] ən-Nisa, 122.

**yacaq"**[83]– deyə buyurularaq Qiyamət gününün, ölümdən sonra dirilişin qəti şəkildə baş verəcəyi bildirilir. Uca Allah ölümdən sonra dirilişi inkar edənlər barədə buyurur: **"Kafirlər dedilər: "Çürüyüb parça-parça olduqdan sonra yenidən yaradılacağınızı xəbər verən bir kişini sizə göstərəkmi?"**[84] Əvvəlki ayədə isə təkidlə buyurur ki; **"Özündən başqa ilah olmayan Allah, *baş verəcəyinə* şübhə edilməyən Qiyamət günü sizi mütləq *bir yerə* toplayacaq."** Beləliklə hər bir ayənin yerinə görə münasib qeyd olunmasının səbəbi bizlərə aydın olur. Daha doğrusunu Allah bilir.[85]

Əzəmətli Rəbbimiz pak və müqəddəsdir.

**Allahla sadiq olmağın mənası**

**Şeyx Salih əl-Məğamisi (2 : 55).**

---

[83] ən-Nisa, 87.

[84] Səba, 7.

[85] Məlak ət-Təvil əl-Qati bi zəvil-İlhadvət-tətil, Əhməd ibn İbrahim ibn əz-Zubeyr əs-Səqəfi, 1/108.

## Can verən şəxsə tövhid kəlmələrini təlqin etmək ([86])

Əfsuslar olsun ki, çoxları bu barədə düşünmür. Halbuki, bu mövzu olduqca önəmlidir və ola bilsin ki, ölüm anında olan kəsin gələcəyini dəyişdirsin!

Təəccüblənmə hörmətli oxucu, Müaz ibn Cəbəldən ﵁ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: “Kimin son sözü “lə ilahə illəllah” olsa Cənnətə daxil olar.”[87]

Əbu Səid əl-Xudridən ﵁ rəvayət edilən hədisdə Peyğəmbər ﷺ demişdir: “Ölülərinizə “lə ilahə illəllah”ı təlqin edin.”[88]

Hafiz İbn Həcər ﵀ demişdir: “Bu və digər hədislərdə “lə ilahə illəllah” deyildikdə şəhadət kəlmələri nəzərdə tutulur.”[89]

Şəhadət kəlmələri isə bunlardır: “Lə ilahə illəllah, Muhəmmədən rəsulullah” və ya “Əşhədu ənlə ilahə illəllah və əşhədu ənnə Muhəmmədən abduhu va rasuluhu”.

Təlqinin necəliyinə gəlincə isə, bu, ölüm anında olan kəsdən mülayim şəkildə “lə ilahə illəllah” deməsini istəməkdir. Lakin bunu həddən artıq təkrarlamaq olmaz. Bir-iki dəfə deməklə kifayətlənmək lazımdır ki, beynində olsun və son olaraq həmin sözləri deyə bilsin.

Allah həm bizə, həm də sizlərə gözəl sonluq nəsib eləsin və bizi tövhid kəlməsi üzərində dünyadan köçməkdə yardımçı olsun!

---

86 Bu məqalə, 22.11.2015 tarixində “əl-Qəbəs” qəzetində dərc edilmişdir.

87 Əbu Davud (3116), Hakim (1229), Albani bu hədisin səhih olduğunu demişdir.

88 Muslim (916).

89 Fəth əl-Bari fi şərh səih əl-Buxari, (3/110).

# İslamda xəstəlik fəlsəfəsi ([90])

Hər şeyi Bilən və Hikmət Sahibi olan Allahın qədəri ilə mütləq şəkildə razılaşmaq o deməkdir ki, biz öz-özümüzə: "Allah nə üçün belə etdi? Yaxud da niyə belə etmədi?"- kimi suallar verməməliyik. Bunu etsək həddimizi aşaraq Allahın haqqına girərək, Onun əzəmətini dərk etməmiş oluruq. Çünki biz Allahın elmindən bixəbərik. Necə ki, Uca Allah buyurur: **"O, *məxluqatın* gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər."**[91]

İnsanların xəstələnmələrindəki ilahi hikmət barədə soruşduqda isə ilk öncə biz etiraf etməliyik ki, kainatın yaradıcısı Allahdır və O, hikmət Sahibidir, Mərhəmətlidir. Çünki belə olmasayı biz ümumiyyətlə bu kainatda ağrının və şərin olması barədə sual verə bilməzdik. Yəni bu bir qayda halını almış olsaydı bizlər bunu soruşmazdıq. Sadəcə bəzən dünya həyatında bəzi insanların başına müxtəlif hikmətli səbəblərə görə müsibətlər gəlir ki, bu barədə də alimlər və müdrik insanlar zaman-zaman danışmışlar.

Alimlərin söylədikləri həmin hikmətlərdən biri budur ki, xəstəlik bir tərəfdən xoşagəlməz hal olsa da, digər tərəfdən müsbət cəhətlərə də malikdir. İmam İbn əl-Qeyyim əl-Cəuziyyənin dediyi kimi: "Uca Allahın yaratdığı hərtərəfli pis ola bilməz. Əksinə, onun yaratdıqlarında xeyir və hikmət olur. Baxmayaraq ki, bəzən pisliyin miqdarı azacıq çox olur. Hərtərəfli pis əmələ gəlincə isə, Uca Allah belə bir şey yaratmaqdan münəzzəhdir."[92]

Həmçinin, xəstəliyin hikmətlərindən biri də odur ki, insan öz Rəbbinə qayıdır, tövbə edir, qəflətdən uzaqlaşır, özünə zülm etdiyini anlayır, bilir ki onun təkəbbürlük etməyə haqqı yoxdur və o, yenilməz qüvvət sahibi deyil. Əksinə, anlayır ki, o, zəif bir bəndədir, hətta gözlə görünməyən bir virus belə onu məhv edə bilər. Əlalxüsus da, o, bir müddət təkəbbürlük göstərərək yaşadıqdan sonra torpağın altına gedəcək.

---

[90] Bu məqalə, 02.11.2014 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[91] əl-Bəqərə, 255.

[92] Şifaul-əlil fi məsail əl-qada val-qadər val hikməti vat-təalil (169-cu səhifə).

Əgər xəstəlik baş verdikdə insan Rəbbinin ona bəxş etdiyi saysız nemətləri dərk etmirsə, öz üzərində işləməli, Rəbbi və insanlar qarşısında təvazökar olmalı, yaxşı işlərini artırmalı, həm özünün, həm də insanların sağlamlığına həris olmalı, xəstələnmiş xüsusən də, kasıb insanların halı ilə maraqlanmalı, onlara öz malından sədəqə verməlidir. Çünki insanın belini qırmayan zərbə onu daha da gücləndirir.

Bir sıra səhih hədislərdə varid olduğu kimi xəstəlik insanı günahlardan xə xətalardan təmizləyir. Odur ki, sünnəyə görə xəstələnmiş adama Peyğəmbər ﷺ xəstələnmiş bədəviyə dediyi sözləri söyləmək lazımdır: "Eybi yoxdur, inşallah, *günahların* təmizlənir!"[93] Çünki başımıza gələn müsibət və bəlaların əksəriyyəti öz əllərimizlə etdiklərimizə görədir. Uca Allah buyurur: **"Başınıza gələn hər bir müsibət öz əllərinizlə qazandığınız *günahlar* üzündəndir. *Allah günahların* çoxunu bağışlayır."**[94]

Uca Allah müsibətə mübtəla olmuş qullarını Peyğəmbərinin ﷺ dili ilə müjdələyərək demişdir: "Müsəlmana üz vermiş elə bir yorğunluq, elə bir naxoşluq, elə bir kədər, elə bir üzüntü, elə bir əziyyət, elə bir dərd, hətta ayağına batan elə bir tikan yoxdur ki, onun sayəsində Allah həmin müsəlmanın günahlarını bağışlamasın."[95] Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Müsəlmana üz vermiş elə bir xəstəlik və ya əziyyət yoxdur ki, onun sayəsində ağac öz yarpaqlarını tökdüyü kimi, Allah da onun günahlardan təmizləməsin."[96] Həmçinin, o, demişdir: "Möminə qızdırma və ya başağrısı üz verdikdə onun halı oda salınmış dəmir parçasına bənzəyir. Bu zaman dəmirdəki pislik-

---

[93] Bu, imam Buxarinin öz "Səhih"ində, "Mənaqib" kitabında, "peyğəmbərlik əlaməti" fəslində (3616) rəvayət etdiyi hədisin bir hissəsidir. Hədisin tamamı belədir:

İbn Abbas rəvayət edir ki, Peyğəmbər ﷺ *həmişə* xəstəni ziyarət etdikdə ona: "Eybi yoxdur, inşallah, *günahların* təmizlənir!"– deyərdi. *Yenə bir dəfə* Peyğəmbər ﷺ xəstə bir bədəviyə baş çəkmək üçün onun yanına gəlib: "Eybi yoxdur, inşallah, *günahların* təmizlənir!"– dedi. Bədəvi isə *cavabında* ona dedi: "Təmizlənir"– dedin?! Xeyr, bu, ixtiyar çağında olan qocanın bədənində od kimi yanan bir qızdırmadır ki, onu qəbirə aparsın." Peyğəmbər ﷺ buyurdu: "Yaxşı, qoy sən deyən olsun!"

[94] əş-Şura, 30.

[95] əl-Buxari (5641), Muslim (2572).

[96] əl-Buxari (5647), Muslim (2571).

lər gedir, yaxşı hissəsi qalır."[1] Başqa bir hədisdə Peyğəmbər ﷺ demiş-demişdir: "Bəndənin başına gələn böyüklü-kiçikli hər bir bəla onun günahları ucbatındandır. Allahın əfv etdikləri günahlar isə daha çoxdur."[2] Həmçinin, o, demişdir: "Allah insanın bütün günahlarını bağışlayanadək onu müsibətlərə düçar edər."[3]

Ey Allahım, Sən necə də Səxavətlisən. İnsana üz verən kədər, üzgünlük, hüzün və batmış tikana görə onun günahlarını əfv edirsən.

Uca və nöqsansız olan Allah bəndəsinə qarşı onun özündən daha mərhəmətlidir. İbn Ömərdən rəvayət olunan hədisdə o, demişdir: "Bir dəfə biz Peyğəmbərlə ﷺ birlikdə döyüşdə ikən bir qövmün yanından keçdik. Peyğəmbər ﷺ soruşdu: "Siz kimsiniz?" Onlar dedilər: "Biz müsəlmanlarıq." Orada bir qadın təndirdə od qalayırdı, yanında da övladı var idi. Odu yandırdıqdan sonra qadın uşağı kənara çəkdi. Sonra o, Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Allahın Rəsulu sənsənmi?" Peyğəmbər ﷺ: "Bəli"– deyə cavab verdi. Qadın dedi: "Atam-anam sənə fəda olsun, Allah rəhimlilərin Rəhimlisi deyilmi?" Peyğəmbər ﷺ: "Bəli"– deyə cavab verdi. Qadın yenə soruşdu: "Məgər Allah öz qullarına qarşı ananın övladına qarşı olduğundan daha mərhəmətli deyilmi?" Peyğəmbər ﷺ: "Bəli"– deyə cavab verdi. Qadın dedi: "Axı ana öz övladını əsla oda atmaz?" Bu vaxt Peyğəmbər ﷺ ağlamağa başladı. Sonra o, başını qaldırıb dedi: "Şübhəsiz ki, Allah qullarından yalnız açıq aşkar Rəbbinə qarşı çıxaraq "lə iləhə illəllah" deməkdən boyun qaçıran şəxslərdən savayı heç kəsə əzab verməz."[4]
verməz."[4]

Allahın rəhmətindəndir ki, bizlərə xəstəlik verir ki, biz Ona yönələk, Ona yalvaraq, dua edək ki, bizlərə və ya sevdiyimiz kəslərə şəfa versin. Bu hikmət hər zaman günahlardan sonra gəlmir, bəzən də nemətlərdən sonra gəlir. Uca Allah buyurur: **"Biz onları yaxşılıq və pisliklə sınadıq ki, bəlkə *doğru yola* dönələr."**[5] Həmçinin, buyurur:

---

[1] əl-Hakimin əl-Mustədrak əsəri (246), əl-Beyhəqinin Sünən əl-kubra əsəri (6544).

[2] Tirmizi (3252).

[3] Təbərani (1548), Hakim (1286), Beyhəqi (9397).

[4] İbn Macə (4297).

[5] əl-Əraf, 168.

buyurur: **"Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız!"**[1] Beləliklə, Allah insanlara həm çətinliklə, həm də rahatlıqla, rəğbət və qorxu ilə, habelə afiyət və bəla ilə imtahana çəkir.[2]

Həmçinin, Uca Allah bəzilərinin xəstələnməsini həm onların özlərinə, həm də başqalarına ibrət etmişdir ki, sağlamlığın qədrini bilsinlər. Bilsinlər ki, nə qədər nemət içindədirlər. Həmçinin, bilsinlər ki, bu nemətlər daimi deyil, müvəqqətidir. Əgər daimi olsaydı insan fövqəlbəşər keyfiyyətlərə malik olardı. Lakin insan naqis və zəif yaradılmışdır.

Bunlar xəstəliklə bağlı bəzi işarələrdir ki, bunlardan yalnız səbir və şükür edənlər faydalana bilir. Anlayır ki, Allah insana bir müsibət göndərdikdə ondan yalnız gözəl bir şəkildə səbir etmək, insanlara şikayət etməmək, fəryad qoparmamaq və qədərlə razılaşmaq tələb olunur. O zaman o, anlayacaq ki, ən çox müsibətlər Peyğəmbərlərə, sonra da ona oxşayanlara gəlir.

Rəvayət olunur ki, bir dəfə Əbu Səid ﷺ Peyğəmbər ﷺ xəstə olarkən yanına gəlir. Həmin vaxt onun üzərində örtük var idi. O, əlini örtüyün üzərinə qoyub görür ki, istilik örtüyün üzərinə çıxıb. O, deyir: Nə çox qızdırman var, ey Allahın Rəsulu? Peyğəmbər ﷺ buyurdu: "Bizim halımız belədir, bəlalarımız şiddətli olur ki, əcrimiz də ikiqat artsın." Əbu Səid dedi: Ey Allahın Rəsulu, hansı insanlara daha şiddətli bəlalar gəlir? O, dedi: "Peyğəmbərlərə, sonra da əməlisaleh kəslərə. Elə olurdu ki, onlara kasıblıq üz verirdi və o, geyinməyə libas tapmırdı. Yaxud da elə bir biti olurdu ki, onun ölümünə səbəb olurdu. Buna baxmayaraq onlar müsibətlərə görə daha çox sevinirdilər nəinki nemətlərə."[3]

Əgər Peyğəmbər ﷺ və əməlisaleh kəslərin halı belədirsə, onlardan daha zəif halda olanların vəziyyəti görəsən necədir?!

---

[1] əl-Ənbiya, 35.

[2] İbn Kəsirin təfsiri (3/497).

[3] Buxarinin Ədəb əl-mufrad əsəri, 510-cu səhifə. Hədisi Albani səhih hesab etmişdir.

Əgər səbir və şükür etmiş olsa, ola bilsin ki, xəstələiyə mübtəla olmuş Peyğəmbərlərin, əməlisaleh kəslərin və onlara bənzəyənlərin zümrəsinə daxil olsun. Əlәlxüsus da, əgər o, izzət və cəlal sahibi olan Allaha dua edibsə ki, onu Öz mərhəməti və lütfü sayəsində İlliyyunda Peyğəmbərlər, siddiqlər, və əməlisaleh kəslərlə birlikdə etsin.

Bu xüsusda şair demişdir:

Bəndə nemətə şükür edərək razılığa çatır,
Səbir də edir və o da ona çətinlikdə yardım edir.
Mərhəmətli Allah kimdən razı olarsa o,
Allahın fəziləti ilə dünya və axirətdə xoşbəxt olar.

## İslamda ölüm fəlsəfəsi ([1])

Ölüm heç kəsin şübhə və ya inkar edə bilməyəcəyi ən böyük həqiqətdir. Ölüm qəflətən, əksər hallarda heç bir xəbərdarlıq etmədən gəlir və əsla təxirə salınmır. Uca Allah buyurur: **"Hər ümmətin bir əcəli vardır. Onların əcəli gəldiyi zaman bircə saat belə nə yubanar, nə də qabağa keçə bilərlər."**[2]

Bu elə bir qabdır ki, oradan hər kəs su içəcəkdir. Elə bir hovuzdur ki, varlı və ya kasıb olmasından, güclü və ya zəif olmasından asılı olmayaraq hər kəs ora girəcəkdir. Uca Allah buyurur: **"Hər bir kəs ölümü dadacaqdır. Lakin Qiyamət günü mükafatlarınız sizə tam veriləcəkdir. Kim Oddan uzaqlaşdırılıb, Cənnətə daxil edilərsə, o uğur qazanmış olar. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir."**[3]

Əbədi və Əzəli olan Allah bu dünyada və kainatda hər şeyin müvəqqəti olduğunu buyurmuşdur. Yalnız Allahın Üzü hər zaman diri və ölməzdir. O, buyurur: ***"Yer* üzündə olan hər kəs ölümə məhkumdur. Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir."**[4]

Hərçənd, insanların çoxu əməllərində, düşüncələrində və hisslərində bu həqiqətdən qaçmağa çalışır, lakin bu əbəsdir. Uca Allah buyurur: **"De: "Qaçdığınız ölüm sizi mütləq haqlayacaqdır. Sonra siz qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcəkdir."**[5]

Axı hara qaçacaqsan?! Harada olursansa ol, ölüm səni haqlayacaqdır. Rəbbimiz buyurur: **"Harada olursunuzsa olun, ölüm sizi haqlayacaq. Hətta yüksək qalalarda olsanız belə. Onlara bir yaxşılıq üz verdikdə: "Bu, Allahdandır!"– deyər, bir pislik üz verdikdə isə: "Bu, səndəndir!"– deyərlər. De: "Hamısı Allahdandır!" Bu adamlara nə olub ki, az qala söz də anlamırlar?"**[6]

---

[1] Bu məqalə, 09.11.2014 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[2] əl-Əraf, 34.

[3] Ali İmran, 185.

[4] ər-Rahmən, 26-27.

[5] əl-Cumuə, 8.

[6] ən-Nisa, 78.

Bundan əlavə ölüm mələyinin bəndənin ruhunu alması ilə bağlı Allahın əmrinə asi olması da mümkünsüzdür. Uca Allah buyurur: **"O, Öz qulları üzərində mütləq hakimiyyət sahibidir. O sizə gözətçi** *mələklər* **göndərir. Nəhayət sizlərdən birinə ölüm gəldiyi zaman elçilərimiz** *mələklər* **onun canını alırlar və heç bir səhvə yol vermirlər."**[7]

Heç kəs düşünmüsən ki, ətrafındakı yaxınları və dostları onu ölümdən xilas etməyə və ruhunun bədəninə geri qaytarmağa qadirdilər ya yox? Onların hamısı bunu etməkdə aciz qalacaqlar. Uca Allah buyurur: **"*Can* boğaza yetişdiyi zaman – həmin an siz *can verən adama* baxırsınız. Biz ona sizdən daha yaxın oluruq, siz isə *bunu* görmürsünüz. Madam ki siz *iddianıza görə* haqq-hesab olunmayacaqsınız. və doğru danışanlarsınız, onda, o canı geri qaytarın?"**[8]

Ölüm bir çox oğulları atalarınan, ataları oğullarından, qardaşı qardaşdan, dostu dostdan, sevgilini sevgilidən, qohumu qohumdan ayırmışdır. Onlardan heç kim həmin əziz adamını geri qaytara bilməmişdir.

Əgər onlar özləri özlərini ölümdən xilas edə bilmirlərsə, yaxınlarını necə xilas edə bilərlər? Uca Allah buyurur: **"*Evlərində* oturub öz qardaşları barəsində: "Əgər onlar bizə qulaq asmış olsaydılar, öldürülməzdilər"– söyləyənlərə de: "Əgər doğru danışırsınızsa, onda ölümü özünüzdən uzaqlaşdırın!"**[9]

Heç şübhə yoxdur ki, ölüm, dünyasını dəyişmiş şəxsin yaxınları üçün böyük bir müsibətdir. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Sizlərdən bir kimsəyə ölüm gəldiyi zaman, vəsiyyət vaxtı içinizdən iki ədalətli kişi, bir yerə səfərə çıxdığınız zaman başınıza ölüm müsibəti gəldikdə isə özünüzdən olmayan iki kişi aranızda şahidlik etsin."**[10] Lakin ola bilsin ki, ölüm bəzi insanlar üçün çəkdiyi ağrı və iztirablardan sonra bir rahatlıq olsun.

Ölüm, Cənnətə gedəcək kəslər üçün bir mərhəmətdir. Belə ki, beləsi üçün ölüm dünyada çəkdiyi iztirab və məşəqqətlərdən sonra ilk rahatlıq olur. Ona görə də Peyğəmbər ﷺ ölüm iztirablarından əziyyət

---

[7] əl-Ənam, 61.

[8] əl-Vaqiə, 83-87.

[9] Ali İmran, 168.

[10] əl-Maidə, 106.

çəkdiyi zaman qızı Fatimə ona belə demişdi: "Səndə əziyyət çəkirsən, atacan?" Peyğəmbər ﷺ demişdi: "Atan bu gündən sonra acı çəkməyəcək. Atanın yanına elə birisi gəlib ki, ondan heç kəs yaxa qurtara bilməyib. Qiyamət günü görüşərik."[11]

Həmçinin, insan sağalmaz və uzunsürən bir xəstəlikdən əziyyət çəkdiyi zaman onun yaxınları üçün də onun ölümü bir rəhmət sayılır. Buna görə də "əl-Kəhf" surəsində ata-anasına əziyyət verə biləcək uşağın öldürülməsi buyurulur. O vaxt ki, Musa عليه السلام əməlisaleh Xızırın yanında ikən o, uşağı qətlə yetirir. Uca Allah buyurur: **"Yenə yola düzəldilər. Nəhayət, bir oğlan uşağı ilə rastlaşdıqda *Xızır* onu öldürdü. *Musa* dedi: "Heç kəsi öldürməyən günahsız bir canamı qəsd etdin? Doğrusu, çox pis bir iş tutdun."**[12] Sonra o, Musaya etdiyi əməlin səbəbini belə izah edir: **"Oğlan uşağına gəldikdə, onun ata-anası mömin idilər. Biz *uşağın böyüyəndə* onları azğınlığa və küfrə sürükləməsindən qorxduq. Biz istədik ki, onların Rəbbi onun əvəzində onlara ondan daha təmiz və daha mərhəmətli olan *başqa bir övlad* versin."**[13] Burada da uşağın ölümü onun atası üçün, hətta özü üçün belə bir mərhəmət idi. Belə ki, o böyüsəydi valideynlərinə əziyyət verəcəkdi.

Bütün bu qeyd olunanlar izzət və cəlal sahibi olan Allahın ölümlə həyatı yaratmağındakı hikmətin insanı imtahan edərək Cənnətlik və ya Cəhənnəmlik etməsidir. Uca Allah buyurur: **"Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır."**[14]

Bu bəlanın məqsədi təhdid və əzabla xəbərdarlıq deyildir. Əksinə, məqsəd insanın ibrət almasıdır ki həyatının mənasını dərk etsin və axirətdəki əsas yurdu üçün çalışsın. Uca Allah buyurur: **"Bu dünya həyatı əyləncə və oyundan başqa bir şey deyildir. Axirət yurdu isə əsl həyatdır. Kaş ki, biləydilər!"**[15]

---

[11] İbn Macə (1628), Albani hədisin səhih olduğunu bildirmişdir.

[12] əl-Kəhf, 74.

[13] əl-Kəhf, 80-81.

[14] əl-Mulk, 2.

[15] əl-Ənkəbut, 64.

İnsan İslamın buyurduğu ölümün fəlsəfəsini dərk etmiş olsa, dünyanın həqiqi qiymətini öyrənmiş olacaq, üzünü də, axirətə tutaraq səmimi şəkildə onun üçün çalışacaqdır. Ölüm vaxtı çatdıqda isə Cənnətə daxil olacaq. Allah bizləri, sizləri və ölülərimizi hesabsız və cəzasız Cənnətə daxil etsin.

Ölümün fəlsəfəsi insanı ona qarşı sakit olmağı öyrədir. Bununla o, heç kimin ölümünə həddən ziyadə kədərlənməyəcək, üzünü cırmayacaq, həddindən artıq ağlamayacaq, fəryad qoparmayacaq. Əksinə, o, ölmüş şəxs onun nə qədər yaxını olsa belə səbir və şükür edəcək, razı qalacaq, sakit olacaqdır.

Rəvayət olunur ki, Ummu Sələmə demişdir: Peyğəmbər ﷺ belə demişdir: "Müsəlmanın başına gələn elə bir müsibət yoxdur ki, o, Allahın əmr etdiyi kimi: "İnnə lilləhi va innə ileyhi raciun, Allahumməcurni fi musibəti, vaxluf li xayran minhə"- deyərsə Allah ona xeyir nəsib edər." Ummu Sələmə vəfat etdikdə mən dedim: Hansı müsəlman Əbu Sələmədən daha xeyirli ola bilər? Peyğəmbərə ﷺ hicrət etmiş ilk ailə onun ailəsi olmuşdur. Sonra mən həmin duanı etdim və əvəzində Allah mənə Peyğəmbəri ﷺ nəsib etdi."[16]

Ölümün mahiyyətini dərk etməyin, onu layiqli şəkildə qarşılamağın faydası budur. Bəli ölüm müsibətdir. Lakin hər bir kəsin geci-tezi başına gələcək bir müsibətdir.

**Təlqin əl-muhtədar əş-şəhədə**

**Şeyx Muhəmməd İsmayıl əl-Muqəddəm (3 : 57)**

**əl-Məradu mutahhirun av muzil, va ədab iyadətil mərid**

**Dr. Ömər Abdulkafi (8 : 37)**

**İza məridal əbdubəasəllahu təalə ileyhi mələkeyn**

**Şeyx Muhəmməd Ratib ən-Nəbilsi (14 : 32)**

[16] Muslim, 918.

## İslamda dua və ruqya fəlsəfəsi ([17])

"Dua ibadətin özüdür."[18] Dua özündə bir sıra mənaları və imani dəyərləri ehtiva edir. Həmin dəyərlər insanın öz Rəbbinə bəndəliyini və Ona təvəkkül etməli olduğunu sübut edir. İnsan iman gətirməlidir ki, onun istəyini yerinə yetirə biləcək, xəstəsinə şəfa verəcək yeganə qüvvə Allahdır. Yalnız Allah bir şey istədikdə ona: "Ol!" – deyir, o da olur.

Duanın əhəmiyyətinə görə də onu etməyənin imanında xələl vardır. Beləsi, gərək özünü islah edə. Uca Allah buyurur: **"Xeyr! İnsan, doğrudan da, həddini aşır, özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə."**[19]

Axı o, necə ehtiyacsız olduğunu düşünür?!

Ona saysız-hesabsız nemətlər bəxş edərək ucaldan Rəbbindənmi ehtiyacsız olduğunu düşünür?! Elə isə əsl həlak olma budur. Bu, təkəbbürlük sahibinin Cəhənnəmə varid olmasına səbəb olur. Bunun da əsas əlaməti duanı tərk etməkdir. Uca Allah bu xüsusda buyurur: **"Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər."**[20]

Yuxarıdakı hədisdə qeyd edildiyi kimi dua ibadətin özüdür. Bu, edilməməsi də caiz olan bir iş deyil. Əksinə, dua insanın Rəbbinə qarşı imanını, Ona olan etimadını üzə çıxarır. Dua barədə istənilən söhbətin mahiyyəti budur ki, dua tövhidin əlamətidir. Yəni insan iman gətirir ki, ona yardım edə biləcək yeganə güc sahibi Allahdır və Ona tərəf yönəlir, dua edir. Qəlbindən məxluqatlarla bağlı bütün fikirləri çıxararaq fikrini Rəbbinə etdiyi müraciətdə cəmləyir. Bundan sonra da o, bütün işini Xaliqinə həvalə etmiş olur. Ən gözəl vaxtları seçərək dualar edir. Rəbbinə ən yaxın olacaq yeri – yəni səcdəni müəyyənləşdirir. Çalışır ki, mümkün qədər Allaha itaət etsin və Ona asi olmasın, Allahdan qorsun, halal yesin, yaxşı dualar etsin, qohum-

---

[17] Bu məqalə, 17.11.2014 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[18] Sunən ət-Tirmizi, 3372. Tirmizi bu hədisin həsən-səhih olduğunu demişdir.

[19] ət-Talaq, 6-7.

[20] Ğafir, 60.

luq əlaqələrini kəsməsin və duanın cavabını almaq üçün tələsməsin. Bütün bunlar duanın ədəbləridir.

Ümumi bir qayda olaraq duaya cavab verilməsi üçün gərək duanı edən Allaha iman gətirmiş olsun, Ona itaət etsin, qadağalarından çəkinmiş olsun.Uca Allah buyurur: **"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən *onlara* yaxınam, Mənə yalvaranın dua-sını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər."**[21]

Yalnız məzlumun və xüsusi ehtiyacı olanların etdikləri dualar müstəsnadır. Belələri hətta Allaha iman gətirmiş olmasalar belə Uca Allah onların dualarını qəbul edə bilər. Çünki O, həm kafirlərin, həm də müsəlmanların, ümumən aləmlərin Rəbbidir.

Uca Allahın bu ayələri barədə düşün: **"Sizi quruda və dənizdə hərəkət etdirən Odur. Siz gəmilərdə olduğunuz, *gəmilər də* içindəkiləri xoş bir küləklə apardığı və onlar buna sevindikləri zaman birdən fırtına qopar və dalğalar hər yandan onların üstünə gələr. Dalğaların onları bürüyəcəyini yəqin etdikdə isə Allaha – dini məhz Ona aid edərək yalvarıb deyərlər: "Əgər bizi bundan xilas etsən, əlbəttə, şükür edənlərdən olarıq". *Allah* onları xilas etdikdə isə dərhal haqsız olaraq yer üzündə azğınlıq edərlər. Ey insanlar! Azğınlığınız yalnız sizin öz əleyhinizədir. *Bunlar* dünya həyatının keçici zövqləridir. Sonra isə dönüşünüz Bizə olacaq, Biz də nə etdikləriniz barədə sizə xəbər verəcəyik."**[22]

İnsan öz Rəbbini təkləşdirməyə, yalnız Ondan qorxmağa, Ona təvəkkül etməyə həris olduğu zaman əmin olmalıdır ki, duaları qəbul olunub. Çünki bu, Allahın vədidir. O, buyurur: **"Doğrudan da, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. *Çünki* onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. *Bu, Allahın* Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur."**[23]

---

[21] əl-Bəqərə, 186.

[22] Yunus, 22-23.

[23] Tövbə, 111.

Duanın qəbul olunması üçün şərt deyil ki, insanın istədiyi, yaxud da uzaqlaşmaq istədiyi şey olsun. Səxavətli olan istəyənin istəyini yerinə yetirməklə kifayətlənmir. Uca və nöqsansız Allah Öz elminə uyğun olaraq onun duasını qəbul edir. Ola bilsin ki, insan xeyirli bir şey istəyərək əslində şər istəmiş olsun. Həmçinin, ola bilsin ki, pis bir şeydən uzaqlaşmaq istəsin, əslində isə həmin şey onun xeyrinə olsun. Hər şeydən Xəbərdar olan Allah isə insana nəyin xeyirli olduğunu yaxşı bilir. Bu baxımdan da istixarə namazı buyurulub ki, insan işini Allaha həvalə etsin və yəqinliklə bilsin ki, özü hikmətini həmin an dərk eməsə belə Allah daha yaxşı olanı onun üçün seçəcək.

İstixarə duası ilə tanış olduqda bütün bu söylənilənlərə aydınlıq gətirilmiş olur. Cabir ibn Abdullah ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ Qurandakı surələri bizə öyrətdiyi kimi istixarə duasını da bizə öyrədib deyərdi: «Sizdən biriniz bir işi görməyə qərar verdikdə fərz namazlarından əlavə iki rükət namaz qılsın və desin: "Allahım, Səndən Öz elminlə mənə kömək etməyi və Öz qüdrətinlə mənə qüdrət verməyi diləyirəm. Səndən, Sənin böyük lütfünü diləyirəm. Şübhəsiz ki, Sənin *hər şeyə* qüdrətin çatır, mənimsə qüdrətim çatmır, Sən *hər şeyi* bilirsən, mən isə bilmirəm. Qeybləri bilən Sənsən. Allahım, bu işin (işin adını çəkir) mənim dinim, yaşayışım və aqibətim üçün – yaxud deyir: dünyam və axirətim üçün, – xeyirli olduğunu *məsləhət* bilirsənsə, onu mənə nəsib et, asanlaşdır, sonra da onu mənim üçün bərəkətli et. Bu işin mənim dinim, yaşayışım və aqibətim üçün – yaxud deyir: dünyam və axirətim üçün – zərərli olduğunu *məsləhət* bilirsənsə, onu məndən, məni də ondan uzaq et! Harada olursa-olsun, mənə xeyir nəsib et, sonra məni ondan razı sal![24]"[25]

Dua edən kəs gərək səbəblərdən də ciddi şəkildə istifadə etsin, şəriətin qadağan buyurduğu tənbəllik və dua ilə kifayətlənərək fəaliy-

---

[24] Transkripsiyası: Allahummə inni əstəxirukə bi ilmikə, və əstəqdirukə bi qudratikə, və əs'əlukə min fadlikəl-azım, fəinnəkə təqdiru və lə əqdir, və tə'ləmu və lə a'ləm, və əntə alləmul-ğuyub. Allahummə in kuntə tə'ləmu ənnə həzəl-əmra xayrun li fi dini və məaşi və aqibəti əmri, acilihi və əcilihi – fəqdurhu li və yəssirhu li, summə bərik li fihi. Və in kuntə tə'ləmu ənnə həzəl-əmra şərrun li fi dini və məaşi və aqibəti əmri, acilihi və əcilihi – fasrifhu anni, vəsrifni anhu, vəqdur liyəl-xayra heysu kənə, summə ərdıni.

[25] Buxari, 6382.

yətsizlik etməsin. Belə etmək özünü bilərəkdən təhlükəyə atmaq anlamına gəlir ki, bu da Uca Allahın: **“Özünüzü öz əllərinizlə təhlükəyə atmayın”**[26] – ayəsi ilə ziddiyyət təşkil edir. Bundan əlavə bu, mümkün qədər səbəblərdən istifadə etmiş Peyğəmbərin ﷺ mənhəcinə də uyğun deyil. O, zikr və dua ilə yanaşı səbəblərdən də yararlanardı. Hədislərin birində o, səhabələrindən birinə belə buyurmuşdu: “Dəvəni bağla, sonar Allaha təvəkkül et.”[27]

Bu məcrada şəri ruqyənin də özünəməxsus yeri vardır. Bu da səbəblərdən biri hesab olunur və onun alternativi deyildir. Əgər kimsə düşünürsə ki, xəstələnmiş kəs sadəcə ruqya ilə sağalacaq, həmin adam cahildir. Çünki Rəbbimiz səbəblərdən istifadə olunmasını buyurmuşdur. Misal üçün Uca Allah Məryəmə xurma ağacının budağını silkələməyi əmr etmədən də ona saysız hesabsız ruzilər bəxş edə bilərdi. Yaxud da Uca Allah sevimli Peyğəmbərinə ﷺ döyüşmədən və müşriklərin əziyyətlərini görmədən də zəfər bəxş edə bilərdi.

Sonda qeyd edək ki, dua və ruqyanın təsir etməsi üçün Uca Allahın insanın istəyini yerinə yetirməsi şərt deyilil. Ola bilsin ki, Allah dünyada və ya axirətdə başqa bir yöndən ona əcr nəsib etsin. Önəmli olan insanın Allahın mərhəmətindən ümidini üzməməsidir. Uca Allah buyurur: **“Allahın mərhəmətindən ümidinizi üzməyin. Çünki Allahın mərhəmətindən ancaq kafir adamlar ümidlərini kəsər.”**[28] Həmçinin bir çox hədislərdə buyurulduğu kimi duaya cavab verilməsinə tələsməməlidir. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: “Sizlər tələsmədikcə və: Rəbbimə dua etdim, mənə cavab vermədi – dediyiniz müddətdə dualarınız qəbul olar.”[29]

Məsələn bəzən elə olur ki, ata öz övladının müalicəsi üçün əlindən gələni edir, Rəbbinə ixlasla dualar edir ki, oğlunu hifz etsin. Lakin oğlu ölür. Belə olduğu halda ata qəzəblənməməli və bilməlidir ki, Allah onun üçün xeyirli olanı seçib. Ola bilsin ki, Allah onun oğlunu şəhid olaraq qəbul edərək onu bir çox acılardan uzaqlaşdırıb ki,

---

[26] əl-Bəqərə, 195.

[27] Sunən ət-Tirmizi, 2517; Albani bu hədisin həsən olduğunu demişdir. Bax: Muşkilətul-Fəqr, 1/23.

[28] Yusuf, 87.

[29] Buxari, 6340; Muslim, 2735.

asanlıqla Cənnət sakinlərindən etsin. Sonra da o, yaxınlarından yetmiş nəfəri özü ilə birlikdə Cənnətə daxil etsin. Hansı daha yaxşıdır?!

Sonra bilməlidir ki, ata öz övladına dua etdiyi vaxt ehtiyac halında olur. Ehtiyac halında olanın duasını isə yalnız Allah cavab verə bilər. Uca Allah buyurur: **"Darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var? Siz necə də az düşünürsünüz?"**[30] Bunun mənası odur ki, onun duası hər bir halda məqbuldur. Sadəcə dua Allahın məqsədəuyğun gördüyü şəkildə qəbul olunmuşdur. Burada da övladın ölümü daha məqsədəuyğun imiş.

Bu, İslamda müxtəsər olaraq duanın fəlsəfəsidir ki, müsəlman gərək bunları anlayıb dərk edə. Çünki dua imanın əlamətidir. Allaha dua etməyən Ona, Onun gücünə və əzəmətinə iman gətirmiş ola bilməz. O, istədiyi bir işə: Ol! – deyir o da olur.

**Dualar və ruqyalar:**

Bu şəri ruqyaları qabdakı sulara oxumuşdum ki, oğlum Abdullah ondan içsin, onunla yuyunsun. O da bacardığı qədər həmin su ilə yuyunmuşdu. Lakin xəstəlik ona imkan vermədi. Hər bir halda Uca Allaha həmd olsun:

**"Mərhəmətli və Rəhmli Allahın adı ilə! Həmd olsun aləmlərin Rəbbi Allaha, Mərhəmətli və Rəhmliyə, Haqq-hesab gününün Hökmdarına! Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik. Bizi doğru yola yönəlt – nemət bəxş etdiyin şəxslərin yoluna, qəzəbə uğramışların və azmışların yoluna yox!"**[31]

**"Əlif. Ləm. Mim. Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır. O kəslər ki, qeybə iman gətirir, namaz qılır və Bizim onlara verdiyimiz ruzidən *Allah yolunda* xərcləyirlər; O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar. Onlar öz Rəbbindən *gələn* doğru yoldadırlar. Məhz onlar nicat tapanlardır."**[32]

---

[30] ən-Nəml, 62.

[31] əl-Fatihə, 1-7.

[32] əl-Bəqərə, 1-5.

"Sizin ilahınız Tək olan İlahdır. Ondan başqa ilah yoxdur, Mərhəmətlidir, Rəhmlidir. Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə *yüklənmiş halda* dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, *Onun* bütün heyvanatı *yer üzünə* yaymasında, küləklərin *istiqamətinin* dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır. İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini *Ona* tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər."[33]

"Allah, Ondan başqa ilah yoxdur, *əbədi* Yaşayandır, *bütün yaratdıqlarının* Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, *məxluqatın* gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur. Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir. Allah iman gətirənlərin Himayədarıdır, onları zülmətlərdən nura çıxarır. Kafirlərin dostları isə tağutlardır, onları nurdan zülmətə salarlar. Onlar Od sakinləridirlər və orada əbədi qalacaqlar."[34]

"Əlif. Ləm. Mim. Allah, Ondan başqa ilah yoxdur, *əbədi* Yaşayandır, *bütün yaradılanların* Qəyyumudur. O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi – daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün. Furqanı da O nazil etdi. Şübhəsiz ki, Allahın

---

[33] əl-Bəqərə, 163-165.

[34] əl-Bəqərə, 255-257.

ayələrini inkar edənlər üçün şiddətli bir əzab vardır. Allah Qüdrətlidir, intiqam almağa qadirdir. Şübhəsiz ki, nə yerdə, nə də göydə heç bir şey Allahdan gizli qalmaz."[35]

"Doğrudan da, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Allahdır. O, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyür. Günəşi, ayı və ulduzları Öz əmrinə tabe edən də Odur. Əslində, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi Allah nə qədər xeyirxahdır. Rəbbinizə acizanə, həm də gizlicə dua edin! Şübhəsiz ki, O, həddi aşanları sevmir. Yer üzü islah olunduqdan sonra, orada fəsad törətməyin. Allaha qorxu və ümidlə yalvarın. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə yaxındır."[36]

"Biz Musaya: "Əsanı yerə at!"– deyə vəhy etdik. Elə bu an əsa *ilana çevrilib* onların düzəltdikləri şeyləri uddu. Artıq haqq üzə çıxdı, onların etdikləri isə batil oldu. *Sehrbazlar* orada məğlub oldular və rüsvay olaraq geri döndülər."[37]

"Sehrbazlar gəldikdə Musa onlara dedi: "Nə atacaqsınızsa, atın!" Onlar *əllərindəki ipləri və dəyənəkləri* atdıqda Musa dedi: "Sizin gördüyünüz iş sehrdir. Həqiqətən, Allah onu boşa çıxaracaq. Çünki Allah fitnə-fəsad törədənlərin işini düzəltməz". Günahkarlar istəməsələr də Allah Öz kəlmələri ilə haqqı bərqərar edəcək."[38]

"Sehrbazlar dedilər: "Ey Musa! Ya sən *əvvəlcə əlindəkini* at, ya da birinci atan biz olaq!" *Musa* dedi: "Yox, siz atın!" *Sehrbazlar əllərindəkiləri yerə atan kimi* ona elə gəldi ki, onların kəndirləri və çomaqları sehrləri sayəsində hərəkətə gəlib sürünür. Musanın ürəyi xofland. Biz dedik: "Qorxma, qalib gələn mütləq sən olacaqsan! Sağ əlindəkini yerə at, onların qurduqlarını udsun. Onların qurduqları sadəcə sehrbaz hiyləsidir. Sehrbaz isə, hara gedirsə-getsin, uğur qazanmaz."[39]

---

[35] Ali-İmran, 1-5.

[36] əl-Əraf, 54-56.

[37] əl-Əraf, 117-119.

[38] Yunus, 80-82.

[39] Ta ha, 65-69.

"Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz *heç vaxt* Bizə qaytarılmayacaqsınız?" Haqq Hökmdar Allah *hər şeydən* ucadır! Ondan başqa heç bir ilah yoxdur. O, şanlı Ərşin Rəbbidir. Kim Allahla yanaşı, haqqında özünün heç bir dəlili olmadığı başqa bir tanrıya ibadət edərsə, onun cəzasını Rəbbi Özü verəcəkdir. Şübhəsiz ki, kafirlər nicat tapmazlar! De: "Ey Rəbbim, bağışla və rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan!"[40]

"And olsun *göylərdə və yerdə* səf-səf duranlara, *imansızları* qətiyyətlə qovanlara və Zikri oxuyanlara! Həqiqətən, sizin məbudunuz Təkdir! O, həm göylərin, yerin və onların arasındakıların Rəbbi, həm də məşriqlərin Rəbbidir. Biz dünya səmasını parlaq ulduzlarla bəzədik və *onu* hər bir asi şeytandan mühafizə etdik. Onlar artıq ali topluma *mələklərin söhbətlərinə* qulaq asa bilməzlər və hər tərəfdən üstlərinə *yandırıb yaxan alovlar* yağdırılar *və oradan* qovularlar. Onları uzun sürəcək bir əzab gözləyir. Lakin *şeytanlardan* hər kim *o söhbətlərdən bir söz* qapıb qaçarsa, onu yandırıb-yaxan parlaq bir alov təqib edər. *Kafirlərdən* soruş ki, onları yaratmaq çətindir, yoxsa Bizim *başqa* yaratdıqlarımızı? Biz ki onları yapışqan kimi palçıqdan yaratdıq. Sən onlara təəccüb edirsən, onlar isə *səni* ələ salırlar. Onlara xatırlatdıqda düşünüb ibrət almırlar. Bir möcüzə gördükdə isə ona istehza edir və deyirlər: "Bu ancaq gözlə görülən bir sehrdir."[41]

"Ey ağır yükü olan *insan və cin tayfası!* Tezliklə ancaq sizinlə məşğul olacağıq. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? Ey cin və insan tayfası! Əgər göylərin və yerin hüdudlarını yarıb keçə bilərsinizsə, keçin! Siz ancaq qüdrət və qüvvətlə keçə bilərsiniz. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?"[42]

"Əgər Biz bu Quranı dağa nazil etsəydik, sən onun Allahın qorxusundan boyun əyib parça-parça olduğunu görərdin. Biz bu misalları insanlar üçün çəkirik ki, bəlkə, fikirləşələr. O, Özündən başqa heç bir məbud olmayan, qeybi və aşkarı Bilən Allahdır. O Mərhəmətlidir, Rəhmlidir. O, Özündən başqa heç bir məbud olma-

---

[40] əl-Muminun, 115-118.

[41] əs-Saffat, 1-15.

[42] ər-Rəhman, 31-34.

yan, Hökmran, Müqəddəs, Pak, *haqqı* təsdiq edən, *hər şeyi* müşahidə edən, Qüdrətli, Qadir, Məğrur Allahdır. Allah onların Ona şərik qoşduqlarından ucadır. O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, Qüdrətlidir, Müdrikdir."[43]

"Yeddi göyü təbəqələr şəklində quran Odur. Sən Mərhəmətli *Allahın* yaratdığında qətiyyən bir uyuşmazlıq tapmazsan. Bir başını qaldırıb *göyə* diqqət yetir, heç onda bir çat görürsənmi? Sonra göz gəzdirib təkrar bax. Göz zəlil və yorğun halda özünə tərəf dönəcəkdir."[44]

"Həqiqətən, kafirlər Zikri (Quranı) eşitdikləri zaman öz baxışları ilə az qala səni gözə gətirələr. Onlar *çarəsizlikdən*: "O, dəlidir!"– deyirlər. Halbuki bu *Quran* aləmlər üçün öyüd-nəsihətdən başqa bir şey deyildir."[45]

"De: "Mənə vəhy olundu ki, cinlərdən bir dəstə *Quranı* dinlədikdən sonra *öz tayfalarına qayıdıb* dedilər: "Həqiqətən, biz heyrətamiz bir Quran dinlədik! O, doğru yola yönəldir. Biz ona inandıq və *bundan sonra* əsla kimsəni Rəbbimizə şərik qoşmayacağıq."[46]

"De: "Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim də mənədir!"[47]

"De: "Sığınıram sübhün Rəbbinə! Məxluqatının şərindən, çökən zülmətin şərindən, düyünlərə üfürən *cadugər* qadınların şərindən və həsəd aparan zaman paxılın şərindən!"[48]

"De: "Sığınıram insanların Rəbbinə, insanların Hökmdarına, insanların məbuduna! Vəsvəsə verənin, (Allahın adı çəkiləndə isə

---

[43] əl-Həşr, 21-24.
[44] əl-Mulk, 3-4.
[45] əl-Qələm, 51-52.
[46] əl-Cinn, 1-2.
[47] əl-Kafirun, 1-6.
[48] əl-Fələq, 1-5.

**hövlündən) geri çəkilən *şeytanın* şərindən. *O şeytan* ki, insanların ürəklərinə vəsvəsə salır, cinlərdən də olur, insanlardan da!"**[49]

"Ey insanların Rəbbi olan Allahım, pisliyi uzaqlaşdır və şəfa ver, Sən şəfa verənsən, Sən verdiyindən başqa şəfa ola bilməz. Elə bir şəfa ki, bütün xəstəliklərə üstün gəlir." (yeddi dəfə)

"Əzəmətli Allahdan, əzəmətli ərşin Rəbbindən diləyirəm ki, sənə şəfa versin." (yeddi dəfə)

"Şəfa verən Allahın adı ilə, Allahım bəndənə şəfa ver, rəsulunu isə təsdiqlə."

**Müstəcəb duanın formaları:**

Əziz övladım Abdullah ağır xəstə olduğu zaman özü-özümə bəzən belə sual verirdim: "Görəsən biz nə üçün bu qapını yalnız ehtiyac və zəiflik vaxtı, dünya başımıza dar olanda, ruhumuz acıyanda döyürük?! Məgər Allah məbudumuz, Kərim, qullarına yaxın, Mərhəmətli və Rəhimli deyilmi?! Bəli elədir ki var. Uca Allah yaxın olduğunu bildirərək buyurur: **"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən *onlara* yaxınam, Mənə yalvaranın dua-sını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər."**[50]

Bu ayə dəlildir ki, dua ən əzəmətli ibadətlərdəndir. Qurani Kərimdə "Səndən soruşsalar.."-la başlayan on dörd ayə vardır. Həmin ayələrdə sauldan sonar "de ki" qeyd olunur. Yalnız bircə yerdən başqa. Bu da qeyd etdiyimiz ayədir. Bu da Rəbbimizin insanlara nə qədər yaxın olduğuna dəlildir: **"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən *onlara* yaxınam."** Ayənin nazil olma səbəbi ilə bağlı varid olmuş səhihdirsə orada deyilir ki: Bir dəfə bir nəfər Peyğəmbərə sual verir ki; "Rəbbimiz yaxındır, yoxsa uzaq?"

Ayədəki "Məni çağırsa" ifadəsi dəlildir ki, gərək Rəbbinə dua edən kəs gərək fikrini cəmləmiş olsun, duasında sadiq olsun. Belə ki, o, əmin olmalıdır ki, yalnız uca və nöqsansız olan Allah onun dualarına cavab vermək təqdirindədir.

---

[49] ən-Nas, 1-6.

[50] əl-Bəqərə, 186.

Bu qayda göstərir ki, dua edənin duasını yalnız Uca Allah qəbul edir. Lakin şərt deyil ki, du edənin istəyi dərhal yerinə yetirilsin. Ola bilsin ki, odanın qəbulu geciksin ki, insan Allaha daha çox yalvarsın və imanı və savabı artsın. Ola bilsin ki, duanın qəbulu Qiyamətə qalsın. Yaxud da başına gələ biləcək bir bəla həmin duanın sayısində sovuşmuş olsun. Bu da dua edən üçün olduqca önəmlidir. Müvəffəq olmuş insanlardan savayı bu əzəmətli nemətin qədrini heç kim bilmir. Bir sıra cahil müsəlmanlar övliya və əməlisalehlərə üz tutaraq təvəssül edirlər və elə düşünürlər ki, dua onların vasitəsilə olmasa qəbul olunmur. Bir çoxları bu yöndən yollarını azıblar.

İbn Qeyyim ﷺ demişdir: "Arif insanların yekdil rəyinə əsasən müvəffəqiyyət odur ki, Allah insanı özünə həvalə etməsin. Çünki insanın özbaşına buraxılması məğlubiyyət deməkdir."[51] Müvəffəqiyyət hər bir işin əsasını təşkil edir ki, bu da yalnız Allahın əlindədir. Dua etmək, möhtac olmaq, qorxmaq və rəğbət bəsləmək isə bunun açarıdır. Nə vaxt ki, insan bu açarı əlinə aldı, demək o, Allah onun qapısını açmaq istəyir. Bu açarı itirən kəs üçün isə qapı hər zaman bağlı qalır. Ömər ibn əl-Xəttab ﷺ demişdir: Məni duamın necə qəbul ediləcəyi narahat etmir, dua etməyə müvəffəq olmağım narahat edir. Əgər dua etsəm bilirəm ki, ona cavab veriləcəkdir."

Necə də gözəl bir əlamətdir ki, bəndə dua etməklə, yaradanının və ruzi verəninin qarşısında boyun əyərək qul olduğunu izhar etsin. Çünki insanın hökmdarı Allahdır. Həmçinin, insanın xüsusən duanın müstəcəb olduğu vaxtlarda Rəbbinə yalvarması, Ondan fəzilət diləməsi, dünyanın və axirətin xeyrini istəməsi necə də gözəl əməldir. Uca Allahdan diləyirəm ki, bizləri sidqlə Ona ibadət edənlərdən, yalvaranlardan, təvəkkül edənlərdən buyursun və istəklərimizi cavabsız qoymasın. Günahlarımız ucbatından bizləri çarəsiz buraxmasın. Uca Allahın insana yaxınlığı təsəvvür olunmaz bir haldır. Uca Allah buyurur: **"Biz insana şah damarından da yaxınıq."**[52]

---

[51] Mədaric əs-Salikin, 1/415.

[52] Qaf surəsinin bir hissəsidir.

**Duanın qəbul olunması üçün qoyulan şərtlər:**

1. Dua edən kəs ilk öncə qəlbini və ruhunu təmizləməyi bacarmalıdır. Bundan sonra o, Rəbbinə tərəf yönələrək bəşəriyyətin ən xeyirliləri olan Peyğəmbər və Elçilərə tabe olmalıdır.

2. Gərək insanın qazancı təmiz olsun və qəsbkarlıq və haqsızlıqla əldə olunmuş mal olmasın. Həmçinin, yediyi yemək də, gərək haram olmaya. Peyğəmbər ﷺ demişdir: "Kim dualarının qəbul olunmasını istəyirsə yeməyini və qazancını təmiz etsin." Yəni insan haram yeməkdən uzaq olmalıdır. Belə ki, haram yeyəcəklər insanla dua arasında bir maneəyə çevrilir. Səhih hədisdə Peyğəmbər demişdir: "Şübhəsiz ki, Allah gözəldir və yalnız gözəl olanı qəbul edir. Həmçinin Allah peyğəmbərlərinə əmr etdiyini möminlərə də əmr etmişdir." Sonra o, uzun zaman səfərdə olmuş, üstü toz-torpaqla dolu bir nəfərin əllərini göyə açaraq: Ey Rəbbim, ey Rəbbim - deyə dua etdiyi qeyd etdi. Halbu ki, həmin şəxsin yediyi və geyimi haramdandır. O, haramla bəsləndiyi halda onun duası necə müstəcəb ola bilər?"

3. Dua hər türlü fəsada qarşı mübarizədən ayrı olmamalıdır. Çünki Uca Allah yaxşı işlərə dəvət edib, pis işlərdən çəkindirməyən insanların duasını qəbul etmir. Peyğəmbər ﷺ demişdir: "Ya yaxşı işlərə dəvət edib pis işlərdən çəkindirəcəksiniz, ya da Allah aranızdakı pisləri yaxşıların üzərində hökmran buyuracaq, xeyirliləriniz isə dua edəcək və onlara cavab verilməyəcək."

**Duanın müstəcəb olmasının formaları:**

Bütün bu şərtlər mövcud olduğu təqdirdə Uca Allah duaya cavab verməzsə ya onun başına gələ biləcək bir bəlanı ondan uzaqlaşdırır, ya da onun əvəzini Qiyamətə saxlayır ki, savabını qat-qat artırsın. Yəni duaya cavab verməməklə əcrin ikiqat olması, biri duaya görə, digəri isə duaya cavab verilməməsi müsibətinə görədir.

Həmçinin, insan gərək duaya cavab verilmədikdə həvəsdən düşməsin. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Tələsmədiyiniz müddətdə dualarınıza cavab verilər." Soruşdular: "Necə yəni tələsmək, ey Allahın Rəsulu?" O, buyurdu: "Yəni belə deməsin: Dua etdim, dua etdim cavab verilmədi." Odur ki, gərək insan duaya davam edərək ümidini üzməsin. Duanın sadəcə ibadət olması kifayətdir ki,

müsəlman ona həris olsun. Oğlum Abdullahın da dünyasını dəyişənədək belə idi.

**Tanınmış şeyxlərin şəri ruqyaları barədə risalə:**

Abdullah müalicə olunduğu zaman bunu necə mənə göndərmişdilərsə, eləcə də sizlərə təqdim edirəm. Uca Allahdan onu toplayıb hazırlayana savab verməsini, habelə ehtiyacı olan müsəlmanlara fayda verməsini diləyirəm. Həmçinin, Uca Allah bunları hazırlamış və asanlaşdırmış fəzilətli alimlərə də savab nəsib eləsin. Bəzilərinə daxil olaraq onların olduqca faydalı dualardan ibarət olduğunun şahidi olmuşam. Həmin dualar Quran ayələrindən və səhih hədislərdən götürülmüşdür. Hesab edirəm ki, həmin dualar ixlaslı qəlblərdən çıxaraq müvəffəqiyyət və mərhəmətə səbəb olacaqdır.

**Təlimat:**

Qulaqcıqları qaluqlarına tıxayaraq bir-iki dəfə bunlara qulaq as. Allahın izni ilə halının daha yaxşı olacağına əminəm.

“Rahatlıq verən müti bir qiraət”

http//:ia.600908us.archive.org/5/items/allrqe_h/allrqe_h.mp3

39 dəqiqə 59 saniyədən ibarətdir.

Bu gözəl əməli əldən buraxma.

Müxtəlif səslərlə şəri ruqyalar mp3 variantında.

Allahım bunları mənim, oğlumun,anamın, zürriyyətimin və paylaşan hər kəsin adından davamlı sədəqəyə çevir.

Mahir əl-Mueyqilinin səsi ilə şəri ruqyə (1saat, 10 dəq, 59 san)

http//:v.ht27881/E-99gto

Əhməd Əcəminin səsi ilə şəri ruqyə (1saat 2 ,dəq 28 ,san)

http//:v.ht27881/E-99jNh

Səd əl-Ğamidinin səsi ilə şəri ruqyə (1saat, 2 dəq, 30 san)

http//:v.ht27881/E-99erR

Mişəri əl-Əfasinin səsi ilə şəri ruqyə (1saat, 13 dəq, 38 san)

http//:v.ht27881/E-99Lex

Əbul-Aliyə əl-Curcaninin səsi ilə şəri ruqyə (1 saat, 5 dəq, 18san)

http//:v.ht27881/E-99x0E

Muhəmməd əl-Muheysininin səsi ilə şəri ruqyə (1saat, 24 dəq, 48 san)

http//:v.ht27881/E-99woj

Nasir əl-Qataminin səsi ilə şəri ruqya (1saat, 16 dəq, 50 dəq)

http//:v.ht27881/E-99pzn

Xalid əl-Cəlilin səsi ilə şəri ruqyə (34 dəq, 7 san)

http//:v.ht27881/E-99Djg

Faris Abbadın səsi ilə şəri ruqyə (1saat, 1 dəq, 51 san)

http//:v.ht27881/E-99bk4

Yasir əl-Dəusərinin səsi ilə şəri ruqyə (1saat, 0 dəq, 30 san)

http//:v.ht27881/E-99qVq

Əhməd əl-Buleyhidin səsi ilə şəri ruqyə (32 dəq, 28 san)

http//:v.ht27881/E3-99Q1

Xalid əl-Qahtaninin səsi ilə şəri ruqyə (1saat, 11 dəq, 40 san)

http//:v.ht27881/E-99knS

Nəbil əl-Avadinin səsi ilə şəri ruqyə

http//:v.ht27881/E5-99JL

Hər kəsdən xahiş olunur ki, fayda üçün mümkün qədər bunları yayın.

Allah sizləri xeyirlə mükafatlandırsın.

Onu da qeyd edim ki, Abdullah həm xəstə olduğu müddətdə, həm də vəfat etdikdən sonra vatsap vasitəsilə bizə xeyli sayda dualar varid olmuşdur. Həmin dualarda onun tezliklə şəfa tapması, rəhm olunması dilənir, bizlərə isə səbir arzulanır. Həmin dualar olduqca çox olduğu üçün bura onları qeyd edə bilməyəcəyik.

Uzun sözün qısası, önəmli olan dua qısa və müxtəsər olsa belə onun ixlasla edilməsidir. Önəmli deyil ki, dua uzun və rəngarəng sözlərlə dolu olsun.

Allahdan bütün duaların qəbul olmasını, bizlərə isə əcr və savab nəsib etməsini diləyirik.

**Tam on üç şəri ruqya**

## Abdullahın anasının öz tanışlarına, habelə Abdullahın tanışlarına müraciət edərək onlardan dua tələb etməsi

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur.

Ey mənim və saf qəlbi olan, təmiz qəlbli Abdullahı sevən kəs, keçmiş iyirmi dörd il ərzində görməmişəm ki, bircə dəfə belə Abdullah kiminsə xətrinə dəymiş olsun və ya onun xətrinə kimsə dəysin. Allah onun bu gözəl fəzilətini daha da artırsın.

Sizlərdən xahiş edirəm ki, Allaha çoxlu dua edəsiniz.

Biz dua edək, Sən isə, ey aləmlərin Rəbbi, onları qəbul et.

Ey Diri və Ölməz olan, ey əzəmətli olan, ey güc-qüvvət Sahibi, ey Böyük, Uca, Qadir olan, göyləri və yeri Yaradan, mənim bu oğlum Abdullah Sənə möhtac olan zəif qullarından biridir, ona xəstəlik üz verib, o da, biz də buna səbir etmiş, Sənə həmd edərək qəza və qədərinlə razılaşmışıq, Allahım o, Sənin iradən və mərhəmətin altındadır, ey Əyyubun bəlasını dəf edən, Musanı anasına qaytaran, ey Yunusu balığın bətnindən xilas edən, ey odu İbrahim üçün soyuq edən Allah, oğlum Abdullaha şəfa ver. Allahım, həqiqətən, onlar özləri qədər iddia etmişdilər, əslində isə qədər Sənin əlindədir, təqdir və qüdrət Sənə məxsusdur, ona qarşı lütfkar ol, xəstəliyi ondan uzaqlaşdır, ey Allah, xəstəliyi uzaqlaşdır ki, bir daha qayıtmasın.

Allahım, ey hüznü aradan qaldıran, kədəri aparan, dua edənlərin dualarını qəbul edən, bizi bu hüzün və kədərdən uzaq et, duama cavab ver, zəif və çarəsiz olduğum üçün rəhm et, gözləməiyim yerdən oğlum Abdullaha şəfa ver. Ola bilsin ki, Allah bundan sonra bir əmr buyursun.

Allahım, Sənin lütfündən, kəramindən, mərhəmətindən, nemətindən diləyərək çarəsiz bəndən Abdullaha şəfa verməyini diləyirik. Şübhəsiz ki, Sən hər şeyə Qadirsən. Sən bizim etibar etdiyimiz və istədiyimiz yeganə varlıqsan, işimizi Sənə tapşırırıq, ona və bizə qarşı lütfkar ol, onun müalicəsini asanlaşdır, xəstəliyini aradan qaldır və dərmanlarını onun üçün faydalı et.

Allahım, Sənə ən əzəmətli və səxavətli adınla dua edirik, Səndən başqa ibadət haqqına malik məbud yoxdur, Sən nöqsansızsan, mən isə özümə zülm edənlərdənəm, Allahım tezliklə şəfa ver, Allahım

tezliklə şəfa ver, Allahım tezliklə şəfa ver. Sən istədiyin şeyə: Ol! – deyirsən, o da olur. Oğluma səbir ver, ona üz vermiş bu xəstəliyi dərəcələrinin, gücünün artmasına səbəb et, ona güc ver, və afiyət ver.

Allahım, o, Sənin çarəsiz qulundur, Sən Bəxş edənsən, Səxavətlisən, ona afiyət və şəfa bəxş et, ey duaları Eşidən, Yaxın olan, ey Rəbbimiz.

Allahım, ona sabit olmağı, sükunət, razılıq ver, ey Allahım ona qarşı lütf et, ona öz əskərlərindən və gücündən göndər, zəiflikdən qurtar onu, ona şəfa ver, əfv et. Allahım öz gücün və əsgərlərin vasitəsilə onun zəifliyini aradan qaldır, ona şəfa ver.

Allahım, onun qəlbini genişləndir, ona şəfanın sevincini yaşat, həqiqətən də, Sən buna qadirsən, ey ən Əzəmətli adın sahibi.

Allahım, həmd sənə məxsusdur, Səndən başqa ibadətə layiq məbud yoxdur, ey göyləri və yeri Yaradan, izzət və cəlal sahibi, ey Ölməz və Diri olan, həqiqətən də, çarəsiz Abdullah sənə möhtac olan bəndənin oğludur, ey Allah bizi sevindir, ona şəfa ver, həm onun, həm də bizim qəlbimizi sevindir.

Allahım, nəfsimi və məni kədərləndirən işi Sənə tapşırıram, Sən mənə kifayətsən, Allahım istəyimi yerinə yetir, duama cavab ver. Allahım mənə yardım et, başıma gələnlərdə Allahım mənə yardım et, Allahım mənim güman etdiyimdən də artıq mənə yardım et. Mənə qorxduğum, həzər etdiyim şeydə yardımçı ol. Həqiqətən Sən öz kitabında buyurmusan: **“Məgər Allah öz bəndəsi üçün kifayət deyilmi?”**

Ey Nuh dua etdikdə ona cavab verən Allahım! Ey Əyyuba xəstəlik üz verdikdə onu sağaldan Allahım! Ey Yaqubu çətinlikdən qurtaran! Ey Yusufu və qardaşını geri qaytaran! Ey Yaqubun gözləri tutulmuş ikən ona yenidən işıq verən, Abdullaha şəfa ver, onu istəyinə çatdır, həm gizlində, həm də aşkarda onunla birlikdə ol, onu kədərdən, üzüntüdən qurtar və ona çətinlikdən sonra asanlıq ver.

Allahım, Abdullahı Sənə əmanət edirəm, şübhəsiz ki, Sənə əmanət olunan əsla itməz. Onun ağlını, qəlbini, sümüyünü, eşitmə və görmə orqanlarını, dilini və digər əzalarını, yaddaşını, gücünü Sənə əmanət edirəm.

Allahım, onu önündən, arxasından, sağından solundan və üstündən mühafizə et, onu altından suiqəstlə üzləşməkdən qoru.

Allahım, onu qorumaq üçün göydəki mələkləri ona ram et. Allahım həkimlərin işlərinə və dərmanların təsirinə də bərəkət ver. Allahım onun ağrılarına son qoy, yaralarını sağalt, ona şəfa ver, Həqiqətən də Sən buna Qadirsən.

Allahım ona qüdrətini göstər ki, bizlər sevinək, həkimlər isə heyran qalsın.

Allahım, Abdullaha şəfa verməklə mənə yardım et, onun qayğısını mənə qismət et, həqiqətən də, Sən hər şeyə Qadursən. Sən öz Kitabında buyurmusan: **"Aləmlərin Rəbbi haqqında zənniniz nədir?"**[53]

Allahım, Sənə etibar edirik, səndən yardım diləyirik, Sənin barəndə yalnız xeyir umuruq, bizlərə nemət bəxş et və bundan məhrum etmə, bizi çarəsiz buraxma, həqiqətən də Sən buna Qadirsən.

Ey bizlərə qarşı Lütfkar olan,

Ey geniş mərhəmət Sahibi,

Ey saysız nemətlər bəxş edən,

Allahın, necə ki, onun həyata gəlişi ilə valideyinləri sevindirmişdin, onların sevincini tamamla,

Sənin verdiyin sevincin bənzəri yoxdur,

Sənin fəzilətinə möhtacıq,

Bizləri Öz Mərhəmətinlə əhatə et, ey Uca Rəbbimiz.

Allahım kədərli qəlblərə yardım et.

Xəstəliklərə şəfa ver.

---

[53] əs-Saffat, 87.

## Xəstələri sədəqələrlə müalicə etmək ([54])

Qurani Kərimin və pak Sünnənin dəlalət etdiyi kimi insanı Uca Allaha yaxınlaşdıran ən əzəmətli əməllərdən biri də sədəqələrdir. Bu baxımdan da sədəqə bir çox xeyir qapılarının açarı və ehtiyacların ödənilməsi hesab olunur. Həmçinin, sədəqə insanın Cənnətə daxil olmasına da səbəbdir. Necə ki, Buxari və Muslimin Səhih əsərlərində nəql olunan hədisdə deyilir: "Kim Allah yolunda sədəqə verərsə Cənnətin qapılarından ona səslənər ki, ey Allahın qulu bura gəl, beləcə namaz əhlindən olan namaz qapısından, cihad əhlindən olan cihad qapısından, oruc əhlindən olan Rəyyan qapısından, sədəqə əhlindən olan isə sədəqə qapısından çağırılar."

Həmçinin, sədəqə günahların əfv olunmasına da səbəbdir. Peyğəmbər ﷺ demişdir: "İnsanın fitnəsi onun əhlində, malında, övladında və qonşusunda olur. Günahlar isə namaz, oruc və sədəqələrlə kəffarə olur."[55]

Həmçinin sədəqə Allahın qəzəbini soyudur. Peyğəmbər demişdir: "Şübhəsiz ki, sədəqə Rəbbin qəzəbini söndürür və pis ölümü dəf edir."[56]

Üstəlik sədəqə insanı Cəhənnəm odundan və qəbir əzabından da qoruyur. Hədislərin birində Peyğəmbər ﷺ möminlərin anası Aişəyə belə demişdir: "Ey Aişə, bir parça xurma ilə olsa belə Cəhənnəmdən yaxa qurtar. Şübhəsiz ki, o, tox adamdakı kimi ac olanın da aclığını aradan qaldırır."[57]

Bundan əlaqə sədəqə insanın öz nəfsini tərbiyə etməsi, yoxsullar üçün bir sevincdir. Bu xüsusda Uca Allah buyurur: **"Allahdan ən çox qorxan isə o Oddan uzaqlaşdırır. O kimsə ki, malını Allah yolunda verir, günahlardan təmizlənir. Əvəzi veriləcəknemət üçün onun heç kəsə minnəti olmaz. O bunu ancaq Ən Uca Rəbbinin Üzünü dilədiyindən edər.O, mütləq razı qalacaqdır!"**[58]

---

[54] Bu məqalə, 30.11.2014 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[55] Bu hədisi Tirmizi rəvayət etmişdir.

[56] Tirmizi, 664.

[57] Musnəd imam Əhməd, 24501.

[58] əl-Leyl, 17-21.

Həmçinin sədəqə bəlanı sovuşdurur, mala isə bərəkət verir. Sədəqədə yardımçı olanlar Allah yolunda cihad edən kimsələrin savabını əldə edir. Quran və Sünnədə bu əməlin fayda və səmərələri haqqında kifayət qədər dəlillər vardır. Ola bilsin ki, bunun səbəbi sədəqənin çoxlu gözəl mənaları özündə ehtiva etməsi ilə əlaqədardır. Həmin mənalar insanı öz nəfsinin paxıllığından da uzaqlaşdırır, Allaha təvəkkül etməsinə səbəb olur, insanlara, hətta heyvanlara və quşlara qarşı da mərhəmətli olmağa səsləyir. Ənəs ibn Malikdən rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Müsəlman ağac və ya əkin əkdikdə, ondan da bir quş, bir insan və ya heyvan yeyərsə bu, onun üçün sədəqə sayılar."[59]

Əksər alimlərin rəyinə görə qeyri müsəlmanlara da bu sədəqə sayılır. Uca Allah buyurur: **"Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir."**[60] Həmçinin buyurur: **"Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər."**[61] Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Hər bir canlıya edilən yaxşılıq sədəqədir."[62] Ələlxüsus da, əgər bu onların qəlbini yumşaldaraq hidayətə yönəlmələrinə səbəb olacaqsa bunu etmək lazımdır. Şəkk yoxdur ki, ayədə söyləndiyi kimi sədəqə vermək yaxşı əməllərdən hesab olunur. Ümumilikdə isə sədəqələrin ən yaxşısı kasıbları yedirtməkdir. Məhz bu səbəbdən də ikinci ayədə bu xüsusi qeyd olunur. Çünki yemək insanın əsas ehtiyaclarından biridir. Uca Allah buyurur: **"Qureyşin birliyi xatirinə, onların qış və yay səfərlərindəki birliyi xatirinə, qoy onlar bu Evin Rəbbinə ibadət etsinlər. Allah onlara aclıqdan *sonra* yemək verdi və qorxudan *sonra* əmin-amanlıq bəxş etdi."**[63]

Ola bilsin ki, sədəqə verən kəs sədəqə veriləndən daha çox ehtiyac içərisində olsun. İkinci çox vaxt sədəqədən dünya məqsədləri üçün istifadə edir, birinci isə bu əməli ixlasla, səmimi qəlbdən etmiş

---

[59] Buxari, 2320; Muslim, 1553.

[60] əl-Mumtəhənə, 8.

[61] əl-İnsan, 8.

[62] Buxari, 2363; Muslim, 2244.

[63] Qureyş, 1-4.

olarsa verdiyi sədəqədən həm bu dünyada, həm də axirətdə faydalanmış olacaqdır. Bu baxımdan da insan özü və ya yaxınlarından biri xəstəlik və ya sıxıntı ilə üzləşdikdə sədəqə verməlidir. Bu xüsusda səhih bir hədis də vardır ki, orada müsəlmanlara öz xəstələrini sədəqələr vasitəsilə sağaltmaları tövsiyə olunur. Peyğəmbər ﷺ demişdir: "Xəstələrinizi sədəqə ilə sağaldın." [64] Bu səhih hədis dəlildir ki, "Yaxşı işlər insanı pisliklərdən qoruyur."[65]

Sədəqələrin bəlanı dəf etdiyinə əmin olan müsəlman yaxşı işlər görməyə hər zaman tələsir. O, millətindən, dinindən asılı olmayaraq hər bir möhtac bəndəyə yaxşılıqlar edir.

Bu baxımdan  Allaha həmd olsun ki, mən Amerika Birləşmiş Ştatlarının böyük şəhərlərində Abdullahın müalicə olunduğu xəstəxanaların civarındakı yoxsullara sədəqələr verərdim. Niyyətim isə onun savabını övladıma hədiyyə etmək idi. Həmin an insan kapitalist quruluşlarda milyonçularla yoxsulları bir arada toplayan hökumətlərin əməllərini görmüş olursan. Eyni küçədə evin içərisində milyonçu yaşayır, yolun kənarında isə evsiz-eşiksin yoxsul.

Həmçinin Peyğəmbərin ﷺ : "Hər bir canlıya edilən yaxşılıq sədəqədir" hədisi insanın yaxşı işlər görməyə tələsməsi üçün yetərlidir. İnsan gələk yemək və çörəkdən artıq qalanı götürüb quşların qonduğu yerə qoysun.

Bu minvalla təkcə insanlara deyil, heyvanlara və quşlara da sədəqə vermiş olarıq. Peyğəmbər ﷺ demişdir: "Biq qadın həbs etdiyi pişiyə görə Cəhənnəmə daxil olacaqdır. O, nə ona yemək verməmiş, nə də buraxmamışdı ki, gedib bir şey tapıb yesin."[66] Başqa bir hədisdə isə deyilir: "Allah susamış vəziyyətdə ləhləyən bir itin vəziyyətini görüb ayaqqabısını çıxararaq su quyusundan su çıxarıb ona verən pozğun bir qadının günahlarını bağışlamışdı."[67]

Ah, necə də gözəl bir dindir bu. Necə də Mərhəmətli və Səxavətli Rəbbimiz var. O, həm insanlara həm də bütün canlılara qarşı mərhəmətlidir. Aləmlərin Rəbbi olan Allaha həmd olsun.

---

[64] Mocəm əl-Kəbir, Təbərani, 10196; Albani hədisin həsən olduğunu demişdir. Səhih əl-Cami, (3358).

[65] Mocəm əl-Kəbir, Təbərani, 8014; Albani hədisin səhih olduğunu demişdir.

[66] Buxari, 3482; Muslim, 904.

[67] Buxari, 3321.

## Ey sevimli Abdullah, məni müəyyən müddətədək üzürlü say ([68])

Ey Allah, ey Allahın lütfü, Ey Abdullah məgər səni bu qədər sevdiyim halda ucuz tutacağımımı düşünürsən?

Aşağıdakı ayəni nə qədər oxuyub bu barədə düşünmüsən? Uca Allah buyurur: **"Dost dostunun halını xəbər almayacaq. *Halbuki* onlar bir-birini görəcəklər. Günahkar o günün əzabından qurtarmaq üçün fidyə vermək istəyər – öz oğullarını, həyat yoldaşını və qardaşını, ona sığınacaq vermiş nəslini və yer üzündə olanların hamısını – təki (bu) onu xilas etsin."**[69]

Baxın dostların halı belə olacaqdır. Onlar bir-biri haqqında xəbər almayacaqlar. Ayələrdə Uca Allah ilk öncə dostları, sonra övladı, həyat yoldaşını, qardaşını və nəslini qeyd edir. Bütün bunlar, hətta yer üzərində olanların hamısı yığışsa belə onu Cəhənnəm odundan xilas edə bilməzlər.

Səndən üzr istəyirəm ki, öz valideynlərimdən, sənin anandan uzaq olacağım kimi səndən də uzaq olacağam. Çünki o zaman hər kəs öz hayında olacaq. Uca Allah buyurur: **"Qulaqbatırıcı bir səs gələndə – o gün insan qaçacaq öz qardaşından, anasından, atasından, arvadından və övladlarından! O gün onlardan hər birinin yetərincə işi olacaqdır."**[70]

Aman Allah, nə qədər də çətin an olacaq, necə də qəribə bir vəsfdir bu. Həmin an sən də məndən, yaxınlarından, qardaş və bacılarından qaçacaqsan.

Əzizlərim, lakin bu hal nə qədər uzun çəksə belə, nə qədər acınacaqlı olsa belə haqq-hesabdan sonra bitəcəkdir. Ümidvaram ki, bundan sonra səninlə görüşə biləcəyik. Həmçinin, ümid edirəm ki, Rəbbimizin bizlərə vəd etdiyi həmd evində görüşəcəyik. Bir başqa müjdə isə Uca Allahın mömin bəndələri üçün hazırladığı Cənnətə daxil olmaqdır ki, bu da əvəzolunmaz bir nemətdir.

Həmin sevincli anların tamamlayıcısı da insanın öz ailə üzvləri ilə bir araya gəlməsindədir. Valideyinlər, övladlar və yaxınlarla birlik-

---

[68] Bu məqalə, 01.11.2014 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[69] əl-Məaric, 10-14.

[70] Əbəsə, 33-37.

də. Peyğəmbərin ﷺ şəfaəti də Allahın bir vədidir. Uca Allah buyurur: **"Möminlərin imanda onların arxasınca gedən nəsillərini də *Cənnətdə* özlərinə qovuşduracağıq. Onların əməllərindən heç bir şey əskiltməyəcəyik. Hər kəs qazandığının girovudur."**[71] İbn Abbas bu ayənin təfsirində demişdir: Uca Allah möminlərin yaxınlarını əməl baxımından onunla eyni səviyyədə olmamalarına baxmayaraq ona qovuşduracaqlar ki, sevinsin. Sonra o, bu ayəni oxudu:[72] **"Möminlərin imanda onların arxasınca gedən nəsillərini də *Cənnətdə* özlərinə qovuşduracağıq. Onların əməllərindən heç bir şey əskiltməyəcəyik. Hər kəs qazandığının girovudur."**

Təbəri isə bunu daha geniş izah etmişdir.[73]

Uca Allah həmçinin buyurur: **"əməlisaleh ataları, zövcələri və övladları ilə birlikdə daxil olacaqları Ədn bağları hazırlanmışdır."**[74] Başqa bir ayədə isə buyurur: **"Siz də, zövcələriniz də fərəhlə Cənnətə daxil olun!"**[75] Hafiz İbn Kəsir demişdir: "Yəni insan öz əzizləri, valideyinlər, övladları ilə Cənnətdə bir araya gələcəklər. Hətta aşağı dərəcədə olanlar Allahdan bir lütf olaraq yuxarıya qaldırılacaqlar."[76]

Fətvalar üzrə daimi komitənin də 2/409 saylı fətvası bu barədədir. Həmin fətvaya müraciət edə bilərsiniz.

Ey Abdullah, əvvəlcə səninlə görüşə bilməsəm də sonradan görüşə bilmək ümidindəyəm. Əlbəttə, bu belə də olacaq. Çünki mən Rəbbim haqqında yaxşı zənn edirəm. Şübhəsiz ki, Uca Allah öz vədinə əsla xilaf çıxmaz. Mən sənin üçün və səninlə həmd evində bir yerdə olmamız üçün darıxıram. Allah bizi öz mərhəməti ilə bir-birimizə qovuşdursun.

Əssələmu aleykum va rahmatullahi va barakatuh.

**Səni çox sevən atan**

**Abdulmuhsin əl-Carullah əl-Xərafi**

---

[71] ət-Tur, 21.

[72] Təfsir İbn Əbu Hatim, 10/3316; əl-Əyal, İbn Əbu Dünya, 357; Albani səhih olduğunu demişdir. Silsilətus-Səhihə, 2490.

[73] Təfsir ət-Təbəri, 13/510; 20/641; 21/579.

[74] ər-Rəd, 23.

[75] əz-Zuxruf, 70.

[76] Təfsir əl-Quran əl-Azim, 14/451.

## Xəstəni ziyarət və ya müşaiyət edən kəs nə etməlidir

Ümumilikdə insanın xəstələnməsinin faydalarından biri qəlbin xəstəliklərdən təmizlənməsidir. Sağlam olduqda insan güclü olduğu üçün özündən razı olur və pis işlər görür. Ağrı çəkdikdə isə insanın nəfsi sınır, qəlbi yumşalır, xoşagəlməz əxlaqi keyfiyyətlərdən uzaqlaşır. Böyük İslam alim İbn Qeyyim ﵀ demişdir: "Dünyanın bəla və müsibətləri olmasaydı insanlar fironlar kimi təkəbbürlü və özlərini bəyənən olardılar. Qəlbləri isə sərtləşərdi və beləcə geci-tezi həlak olardılar. Rəhimlilərin rəhimlisi olan Allahın hikmətindəndir ki, insana bəzən müsibət dərmanı daddırır ki, həmin xəstəliklərə düşməsin."[77]

Xəstəlik elə bir haldır ki, bu zaman müsəlman və ya qeyri-müsəlman olmasından asılı olmayaraq hər kəs eyni halda olur. Xəstə olan kəs də ziyarət olunmasını, ağrısının azalmasını və rahatlanmasını istəyir. Buna görə də Peyğəmbər ﷺ müsəlman olub olmamasından asılı olmayaraq xəstələnmiş adama eyni cür müraciət edərdi. Əksər hədislərdə dinindən və ya cinsindən asılı olmayaraq: xəstələri ziyarət edin – deyə buyururlur. Hətta Peyğəmbər ﷺ özü də həm xəstə müsəlmanları, həm də qeyri müsəlmanları ziyarət edərdi. Misal üçün qeri müsəlman olan əmisi Əbu Talib xəstələndikdə Muhəmməd ﷺ onun yanında idi. Hətta Əbu Talib dünyasını dəyişərkən o, belə demişdi: "Lə iləhə illəllah de ki, sənə Qiyamət günü şəfaət edə bilim." O isə belə cavab verdi: Ey qardaşım oğlu, Qureyşdən çəkinməsəydim bunu məmnuniyyətlə söyləyərdim. Bu zaman aşağıdakı ayə nail oldu:[78] **"Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəldir. O, doğru yolda olanları da daha yaxşı tanıyır."[79]**

Bir dəfə hətta Peyğəmbər ﷺ ölüm ayağında olan yəhudi uşağı ziyarət etmişdi. Ənəs ibn Malik ﵁ rəvayət edir ki, bir dəfə Peyğəmbərə ﷺ qulluq edən yəhudi bir uşaq xəstləndi. Peyğəmbər ﷺ də onu ziyarət etməyə getdi. Onun başının üstündə oturub dedi: "İslamı qəbul

---

[77] Zad əl-Məad, 4/179; Muəssəstur-Risalə, Beyrut, 1415 h – 1994 m.

[78] Muslim, 25.

[79] əl-Qəsəs, 56.

et." Uşaq atasının üzünə baxdı. Atası dedi Əbul-qasim nə deyirsə elə. Beləcə uşaq İslamı qəbul etdi. Peyğəmbər ﷺ onun yanından çıxarkən dedi: "Onu Cəhənnəm odundan xilas edən Allaha həmd olsun."[80]

Şəriət xəstələri ziyarət etməyi tövsiyə etmiş və bunu müsəlmanın müsəlman üzərindəki haqlarından biri hesab etmişdir. Tirmizi və İbn Macənin nəql etdikləri hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim Allah üçün bir qardaşını və ya xəstə birini ziyarət edərsə *mələklər* deyərlər: "Halın da, getdiyin yerlər də xoş olsun. Cənnətdəki mənzilinə çatasan."[81] Həmçinin, Muslimin Səhih əsərində Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Müsəlmanın müsəlman üzərində altı haqqı vardır: .... xəstələndikdə ziyarət etmək."[82]

Bu xüsusda ədəb qaydalarından bəziləri aşağıdakılardır:

- Ziyarət üçün münasib vaxtın seçilməsi.
- Xəstənin yanında çox oturmamaq.
- Gözlərinə hakim olmaq (naməhrəmə baxmamaq).
- Çox sual verməmək.
- Qayğı göstərmək.
- İxlasla dua etmək.

Sünnədə xəstəyə edilən dualar barədə İbn Abbasdan ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: "Kim bir xəstəni ziyarət edərsə və ona yeddi dəfə: "Böyük Ərşin Rəbbi olan Əzəmətli Allahdan diləyirəm ki, sənə şəfa versin!" – deyə dua edərsə Allah onu həmin xəstəlikdən qurtarar." Başqa bir hədisdə isə xətəyə ürək-dirək verərək: "Heç nə olmaz,[83] təmizlənirsən inşəAllah"[84]– deyilməsi buyurulur. Həmçinin, xəstəyə ürək-dirək verərək onu səbirli olmağa tövsiyə etməsi də ədəblərdəndir.

---

[80] Buxari, 1356.

[81] Tirmizi, 2008; İbn Macə, 1443.

[82] Muslim, 2162.

[83] Musnəd imam Əhməd, 2138; Əbu Davud, 3106. Albani bu hədisin səhih olduğunu demişdir.

[84] Buxari, 3616; 5656.

Xəstəni müşaiyət etmək və ona yardım etmək də ən fəzilətli əməllərdən hesab olunrur.

Peyğəmbərin ﷺ qızı Ruqayyə xəstələndikdə Peyğəmbər ﷺ onun əri Osmana əmr edir ki, onun yanında qalıb ona kömək etsin. Beləcə, Osman zövcəsinə qulluq etmək üçün onun yanında qalır və Bədr döyüşündə iştirak edə bilmir. Peyğəmbər ﷺ isə ona belə buyurur: "Sən Bədr döyüşündə iştirak etmiş kimi savab qazanmısan."[85]

Burada xüsusi bir məsələni də qeyd etmək lazmdır ki, o da xəstəni müşaiyət edən kəsin yuxusuz əziyyət çəkdikdə səbirli olmasıdır. Gərək o, xəstə ilə mərhəmətlə davransın və işini layiqincə görsün. Çünki o, gördüyü işə görə əcr və savab qazanır.

**Xəstəni müşaiyət edənin əcri:**

Uca Allahın yanında ən fəzilətli, şərəfli əməllərdən biri zəif və xəstə adamlara əl tutaraq onlara yardım göstərməkdir.

Xəstəyə yardım edən isə çəkdiyi əziyyətlərə görə səbirli olmalıdır. Uca Allah buyurur: ***"Qullarıma Mənim bu Sözümü* de: "Ey Mənim iman gətirən qullarım! Rəbbinizdən qorxun! Bu dünyada yaxşılıq edənləri yaxşılıq *Cənnət* gözləyir. Allahın *yaratdığı* yer üzü genişdir. Yalnız səbr edənlərə mükafatları hesabsız veriləcəkdir."**[86] Gərək o, mərhəmətli ola. Peyğəmbər ﷺ demişdir: "Rəhmli olanlara ər-Rəhman rəhim edər, yerdəkilərə rəhm edin, göydəki də sizə rəhm etsin."[87]

Həmçinin gərək xəstəni ziyarət edən kəs onun dərman kimi ehtiyac duyduğu gözəl sözləri də unutmasın və yalnız xeyirli sözlər söyləsin. Əvvəllər İslam vəqfi xəstələrdə ruh yüksəkliyi yaradan xüsusi mütəxəssislər yetişdirərdilər.

**Xəstənin yanında çox oturmamaq:**

Xəstəni ziyarət etmək insanların qəlblərini bir-birinə yaxınlaşdıran, xəstənin yaşadığı acıları yüngülləşdirən, onların arasında mə-

---

[85] Buxari, 3130.

[86] əz-Zumər, 10.

[87] Əbu Davud, 4941; Tirmizi, 1924; Albani "Səhih Əbu Davud" əsərində bu hədisin səhih olduğunu demişdir.

həbbət və ülfət körpüsü yaradan, yardım və dəstək mənalarını özündə birləşdirən sünnət növlərindən biridir.

Müasir dövrümüzdə isə bu xüsusda bir sıra xoşagəlməz yeniliklərin şahidi oluruq. Bəzi insanlar xəstəni ziyarət edərkən onun yanında çox oturur ki, bu da İslamın buyurduğu ədəb normalarına müxalifdir. Əbu Zərdən rəvayət olunan hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdu: "Ey Əbu Zər, xəstəni qısa ziyarət et ki, səni çox sevsin."[88]

Elə xəstələr var ki, onları bir gündən bir ziyarət etmək daha məqsədə uyğundur. Bəziləri hər gün ziyarət olunmasını istəyə bilər. Elələri də var ki, onun yanında çox oturduqda yorulur.

Ümumilikdə isə xəstəni ziyarət etmək onun şəfa tapmasına səbəblərdən biridir. Həmin vaxt insan başqalarının özünə olan diqqətini hiss edir ki, bu da onun nikbinliyini artırır. Müasir tibb mütəxəssisləri də xəstənin mənəvi rahatlıq tapmasını sağalması üçün əsas predmetlərdən hesab edirlər. Ümidsizliyə qapanan xəstənin isə müalicəsi daha da qəlizləşir.

Həmçinin, xəstəni ziyarət edən şəxsin özü də bundan faydalanır, Allahın ona verdiyi nemətləri xatırlayır, Rəbbinə şükür edir və tövbə edir.

Xəstəni ziyarət edən şəxs yaxşı olar ki, onun ürəyini açacaq məsələlər barəsində danışsın, ona səbir etməyi tövsiyə etsin, onun nəfsini gözəl sözlərlə açsın, ona xatırlatsın ki, xəstəliyə səbir edən üçün o, günahların kəffarəsidir.

Şeyx Muhəmməd əl-Avadinin "Xəstələrinizi sədəqələrlə müalicə edin" əsəri (2:50)

Şeyx Muhəmməd Həssanın "Xəstəni ziyarət etmənin fəziləti" əsəri (2:15)

Şeyx Saleh əl-Məğamisinin "Xəstənin yaxınlarının səbir etməsi" əsəri (2:44)

---

[88] Şoəbul-İman, Beyhəqi, 8007. Albani Səhih əl-Cami əsərində (3568) bu hədisin səhih olduğunu demişdir.

## Həmd evinə etdiyim səfər mənə nələri öyrətdi? ([89])

Abdullahla həmd evinə etdiyim səfər mənə öyrətdi ki;

Ümid gözəl dostdur, lakin ola bilsin ki səni qoyub getsin.

Həmçinin, o, heç vaxt xəyanət etməz.

Ümidini hər zaman Allaha bağlayan kəslərin nəfsləri necə də gözəldir.

Sədaqət və vəfa hər zaman yaşayır.

Həmçinin hər bir xeyirə də vəsilə olur.

O, mənim qulağıma pıçıldayaraq demişdi:

O zaman ki, bədbəxlikdən sonra xoşbəxtliyin, göz yaşlarından sonra təbəssümün gələcəyini zənn etdin, bil ki böyük bir iş görmüsən və bu işin adı Allaha hüsni zənn etməkdir."

Həmçinin böyük alim Muhəmməd ibn Saleh əl-Useyminin ﷫ sözləri də yada düşür: "Qurtuluş gözləyən kəs, gözlədiyinə görə savab əldə edər. Çünki qurtuluşu gözləmək Allaha qarşı hüsni zənn etməkdir. Allaha hüsni zənn etmək isə yaxşı əməldir və bunu edən savab qazanır."

Çoxumuzun əhəmiyyət vermədən oxuyub üzərindən keçdiyimiz bir ayəni qeyd etmək istəyirəm: **"Müjdəçi gəlib köynəyi onun üzünə atan kimi gözləri açıldı və o dedi: "Məgər sizə deməmişdimmi ki, mən Allahdan *gələn vəhy sayəsində* sizin bilmədiklərinizi bilirəm?"**[90]

İbn Kəsir öz təfsirində Siddinin aşağıdakı sözlərini nəql etmişdir: "Yəhuda ibn Yaqub özü gələrək qana bulaşmış köynəyi yalandan gətirmiş, Lakin Yusifin qanı atasının gözlərinin açılmasına səbəb olmuşdu."

Odur ki, bəzən bəzi şeylərin sənin ziyanına olduğunu düşünə bilərsən. Bir müddət sonra isə həmin şeyin əksinə sənin səadətinə səbəb olduğunun şahidi ola bilərsən.

Ya Rəbb – deyə dua etdikdə

Bil ki, cavabsız qalmayacaqsan.

Ya istəyin olacaq,

Ya da başına gəlməli olan bir bəla aradan qalxmış olacaq.

---

[89] Vatsap yazılarından götürülüb.

[90] Yusuf, 96.

Bundan əlavə əcr əldə etmiş də olacaqsan."[91]

Rəbbimizə səhər-axşam sonsuz həmd sənalar olsun, Onun bağladığı qapı əsla açılmaz. Heç kəsin yardım eə bilmədikdə O, yardım edər. Ürəklər sərtləşdikdə onun mərhəməti nazil olar.

**Bu səfər əsnasında gəldiyim qənaət belədir:**

Hüznlü olduğun zaman ədəbini itirmə.

Göz yaşlarını Allaha şükür edərək axıt, ağrını səliqəli yaşa. Çünki hüzn də sevgi kimi Allah tərəfindən bəxş olunmuş bir nemətdir. Odur ki, Ona şükür et və səbirli ol.

**Aşağıdakı mənaları da anlamaq lazımdır:**

Təsəvvür et ki, səni elə bir yerə dəvət ediblər ki, orada könlündən keçən hər bir şey vardır. Getdiyin yerin qapısının rəngi sənin xoşuna gəlməsə bunun sənin üçün bir fərqi olarmı?

Nəfsimizin istəmədiyi qədərlər də belədir, Onlar böyük xeyirlərə yol açan darvazalara bənzəyir.

Bizlər isə bəzən qapıya baxıb ümidsizliyə qapanırıq və unuduruq ki, orada içəridə bizi təsəvvür etmədiyimiz nemətlər gözləyir.

Allahın Lütfkar olduğunu anlayan hər bir kəs bilməlidir ki, insan istədiyinə nail olmaq üçün çətin yollardan keçməlidir və xoşlanmadığı məsələlərə ümid gözü ilə baxmalıdır.

Çünki o, bunun arxasında böyük bir xeyirin olduğunu bilir. Allahın qədəri əsla lütfündən ayrı olmur. Sadəcə insanın gözlə deyil, qəlblə yanaşmaya ehtiyac var.

Allahın qədəri mərhəmətlərlə doludur, lakin insan tələsgəndir.

Möhtərəm professor Ömər əl-Muqbilil qələmə aldığı çətinliklər zamanı on qaydaya da nəzər salmaq yerinə düşər:

**Birinci qayda:** Sən tək deyilsən.

**İkinci qayda:** Allahın qədərində nə varsa onda bir hikmət vardır.

**Üçüncü qayda:** Xeyir gətirən, zərəri aradan qaldıran Allahdır. Odur ki, yalnız Ona bağlan.

**Dördüncü qayda:** Sənə üz verən müsibət səni səhvə yönəltmək üçün deyil, etdiyin səhvlər də sənə müsibət verilsin deyə deyil.

**Beşinci qayda:** Dünyanın həqiqətini anla, rahatlanacaqsan.

---

[91] Bu, Peyğəmbərin ﷺ hamıya məlum olan hədisinə uyğundur.

**Altıncı qayda:** Rəbbin haqqında gözəl zənn et.

**Yeddinci qayda:** Allahın sənin üçün seçdiyi, sənin özün üçün seçdiyindən daha yaxşıdır.

**Səkkizinci qayda:** Müsibət şiddətləndikcə qurtuluş da yaxınlaşır.

**Doqquzuncu qayda:** Qurtuluş barədə düşünmə, şübhəsiz ki, Allah bir işin olmasını istədikdə onun baş verməsi üçün ağlasığmaz səbəblər hazırlayar.

**Onuncu qayda:** Qurtuluşun açarı kimin əlindədirsə, Ona dua et.

İbn əl-Qeyyim demişdir: "Elə bilmə ki, sənin nəfsin səni yaxşı işlər görməyə sövq edir, bil ki, sən bir qulsan və Rəbbin səni sevib və yaxşı işlər görməyə müvəffəq edib. Bu məhəbbəti yaddan çıxarma ki, O da səni unutmasın."

Bir dəfə Şeyxulislam İbn Teymiyyədən soruşurlar: "Xəstəliyi artmış kəsin dərmanı nədir? Tənbəllik edən kəsin dərmanı nədir? Müvəffəqiyyətə aparan yol hansıdır? Yaxşı iş görməyə nəfsi icazə verməyənin əlacı nədir? Bir işə başladıqda müvəffəq olmamanın çarəsi nədir?

O, belə cavab verdi:

* Bunun çarəsi Allaha yönəlmək, davamlı şəkildə Ona yalvarmaq, dua etmək, varid olmuş duaları mənimsəmək, duanın müstəcəb olacağına əmin olmaq, gecənin sonunda, azanla iqamə arasında, səcdə əsnasında və namazlardan sonra dua etmək.
* Allahdan bağışlanma diləmək, tövbə etmək. Kim Allahdan bağışlanma diləyərək tövbə edərsə Allah ona misilsiz nemətlər bəxş edər.
* Səhər və axşam vaxtı, habelə yatmamışdan öncə zikrlər etmək.
* Başına gələnlərə görə səbir etmək. Belə etdikdə Allah ona yardım edəcək və qəlbindəki imanı artıracaq.
* Beş vaxt namazı vaxtlı-vaxtında lazımi şəkildə qılmağa həris olmaq.
* İnsan Lə həulə va lə quvvatə illə billəh (Allahdan başqa güc, qüvvət Sahibi yoxdur) zikrini etməyə adət etməlidir. Bu zikri etməklə insanın üzərindən böyük bir yük götürülür və o, rahatlıq tapmış olur.
* Dua edib yardım diləməkdən yorulmamaq. İnsan tələsərək: Dua etdim qəbul olmadı – demədiyi müddətdə onun duasına cavab verilər.

* Bilmək lazımdır ki, yardım səbirlə olur, qurtuluş bəla ilə olur və hər bir çətinlikdən sonra asanlıq gəlir. Nəyəsə nail olmaq istəyən kəs yalnız səbir etməklə buna nail ola bilər.

Həmd Aləmlərin Rəbbi olan Allaha məxsusdur.[92]

Şeyx Muhəmməd Mutəvalli əş-Şəaravi demişdir:

Dörd şeydən məhrum olan dörd kəsə təəccüb edirəm:

1. Məgər qəm-qüssə içərisində olan Uca Allahın bu ayələrini oxumayıbmı? O, buyurur: **"Zün-Nunu da *yada sal!* Bir zaman o qəzəbli *qövmündən* ayrılıb getmiş və onu sıxıntıya salmayacağımızı güman etmişdi. Sonra da zülmətlər içində yalvarıb demişdi: "Səndən başqa heç bir ilah yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!" Biz onun duasını qəbul etdik və onu qəm-qüssədən qurtardıq. Biz möminləri belə xilas edirik!"**
2. Bəlaya düçar olan məgər bu ayələri oxumayıbmı?**"Əyyubu da *yada sal!* Bir zaman o, Rəbbinə yalvarıb demişdi: "Mənə, həqiqətən də, bəla düçar olubdur. Sən rəhmlilərin ən rəhmlisisən!" Biz onun duasını qəbul etdik və ona düçar olmuş bəlanı aradan qaldırdıq. Öz tərəfimizdən bir mərhəmət və ibadət edənlərə bir ibrət olsun deyə, ailəsini ona qaytardıq, üstəlik bir o qədər də əlavə etdik."**
3. Qorxu ilə üzləşən kəs məgər bu ayəni oxumayıbmı? ***"Bəzi* adamlar onlara: "Camaat sizə qarşı *ordu* toplayıbdır, onlardan qorxun!"– dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!"– dedilər.Onlar özlərinə heç bir pislik toxunmadan, Allahın neməti və mərhəməti sayəsində geri döndülər və Allahın razılığına tabe oldular. Allah böyük lütf sahibidir."**
4. İnsanların hiyləsi ilə üzləşən kəs bu ayələri oxumayıbmı? **"Sizə dediklərimi mütləq xatırlayacaqsınız. Mən öz işimi Allaha həvalə edirəm. Həqiqətən, Allah qullarını görür". Allah *Musanı* onların qurduğu hiylələrin şərindən qorudu. Firon nəslini isə dəhşətli əzab bürüdü."**

Həmçinin unutmamalıyıq ki;

Dua ibadətin əsasıdır, ehtiyac zamanı mömin məhz duaya üz tutur. Yaxşı olar ki, firavanlıq dövründə də Allaha dua edəsən. Allah-

[92] Məcmu əl-Fətavə, 10/136-137.

dan israr la istəsən bil ki, Allah sənin dualarını qəbul edəcək. Duanın qəbul olma əlamətini görmədikdə əsla duanı tərk etmə. Çünki Peyğəmbər ﷺ demişdir: “Sizlər tələsmədiyiniz müddətdə dualarınız qəbul olar.”

Bir dəfə İmam Əhməd ibn Həmbəldən soruşurlar: “Bizimlə ər-Rəhmanın ərşi arasındakı məsafə nə qədərdir?” O isə belə cavab verdi: “Qardaşın üçün səmimi dua et.”

Deyilənə görə xəstəxanaların birində ahıl bir kişi var imiş və gənc bir oğlan hər gün gəlib onu ziyarət edər, yanında bir saat oturardı. Həmin vaxt ərzində ona yeməkdə və yuyunmaqda yardım edər, onu xəstəxananın həyətində gəzdirərdi. Sonra da gəlib onu yerinə uzandırar və gedərdi.

Günlərin bir günü tibb bacısı onun palatasına daxil olur ki, ona dərman versin və halını yoxlasın. Sonra da ona deyir: “Maşallah Allah oğlunu saxlasın, hər gün səni ziyarət edir.

Kişi onun üzünə baxıb bir söz söyləmədi. Öz-özünə isə belə dedi: Kaş ki, o mənim övladlarımdan biri olaydı. O bizim küçədə yaşayan yetim bir uşaq idi. Bir dəfə mən məscidin qapısının önündə onu ağlayarkən gördüm. Onun atası dünyasını dəyişmişdi. Mən onun könlünü alaraq aparıb ona şirniyyat aldım. Sonradan onunla əlaqə saxlamadım. Mənim həyat yoldaşımla birlikdə tək olduğumu bildikdən sonra hər gün məni ziyarət etməyə başladı. Vəziyyətim ağırlaşdıqdan sonra isə yoldaşımı öz evlərinə apardı, məni isə xəstəxanaya gətirdi. Mən ona sual verəndə ki, oğlum niyə özünə bu qədər əziyyət verirsən? O belə cavab verdi: “Əmican, sənin mənə aldığın şirniyyatın dadı hələ ağzımdan getməyib.”

Yaxşı işlər gör və bil ki,

Yaxşılıq heç zaman itməz.

Yaxşılığın üzərindən uzun zaman keçsə də,

Onun faydasını yalnız onu edən görər.

Şeyx Muhəmməd Mutəvalli əş-Şəaravinin” ər-Rida bil-qada valqadər şartun lirafil-bələ” əsəri (00 : 23)

Şeyx Mişəri əl-Xərrazın “Keyfə tətəaməlu məəllahi izə vaqaəl bələ” əsəri (9 : 02)

## Övladlarınızın həyatında başqa aləmləri kəşf edin ([93])

Sözüm valideyinlərədir ki, çalışın övladlarınızın daxilindəki fərqli dünyaları kəşf edin. Ələlxüsus da bu virtual əsrdə bu olduqca zəruridir. Çünki uşaqlar indi başqa aləmdə yaşayırlar.

Oğlum Abdullah otağının qapısını gecələr örtərkən təəccüblənirdim. O zaman o öz dostları ilə şirin-şirin söhbətlər edərdi. Onun vəfatından sonra dostları ilə oturdum ki, onun barəsində söhbət edim. Çünki Peyğəmbər ﷺ insanın atası, anası və ya yaxınlarından biri vəfat etdikdən sonra onun dostları ilə əlaqə qurmağı buyurmuşdur. İnanın ki, həmin görüş olduqca emosional bir görüş oldu. Mən onları öz övladım, onlar isə məni ataları kimi təsəvvür edirdilər.

Demək, istəyirəm ki, biz oturub Abdullahdan söhbət açarkən onun barəsində mənə bəlli olmayan xüsusiyyətlər barədə xəbər verdilər. Sanki onlar on nəfərdən ibarət qrup idilər və birlikdə bir oyun oynayırdılar. Həmin vaxt Abdullah sən demə əsas mərkəzdə olardı. Dostları onun barəsində "World open" adlı proqram vasitəsilə onun barəsində bir səhifə açmışdılar. 2012-ci ildə seyrçilərin sayı 12 milyonu keçmişdi. O, əsla maddi maraqlardan çıxış etməzdi. O, həm özünə, həm də başqalarına fədakarlıq edərək pul xərcləyərdi. Sanki o; "Yuxarıda olan əl, aşağıda olandan daha xeyirlidir." Kəlamını praktiki cəhətdən yaşayırdı. İnsanların çoxu isə adətən əksinə faydalanmağa çalışırlar.

İnana bilmərəm ki, oğlum Abdullah öz divanında oturub əlindəki ləbtop cihazından istifadə etməklə müxtəlif ölkələrdən olan bu qədər seyrçi toplamış olsun. Əksinə o daha çox orta məktəbdə oxuyarkən dərsləri ilə çalışaraq Küveyt Dövlət Universitetinə daxil olmuşdu. Bununla belə malik olduğu güclü ingilis dili sayəsində açıq dünya proqramında böyük üstünlüklər əldə edə bilmişdi. O, bacardığı qədər hər kəsə tövsiyələr verərdi.

Abdullah barəsində böyük ağrı hissi ilə danışıram. Lakin bildirmək istəyirəm ki, onun virtual dünyada etdikləri real həyatda da öz əksini tapırdı. Onun real həyatda həyata keçirdiyi layihələrə nəzər saldıqda belə qənaətə gəlmək mümkündür.

---

[93] Bu məqalə, 03.08.2015 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

Odur ki, dəyərli qardaş və bacılarıma tövsiyəm budur ki, virtual həyatda öz övladlarına daha yaxın olsunlar ki, onlara düzgün istiqamət verə bilsinlər.

**İslamda övlad tərbiyəsi**

**Şeyx Muhəmməd Ratib ən-Nəbulsi (40 : 50)**

**Övlad tərbiyəsində məharət**

**Şeyx Casim əl-Mutavva (40 : 48)**

## Övladlarımızı hansı dramatik hadisə daha çox cəzb edə bilər ([94])

Oğlum Abdullahın son vaxtlarında onun bir yapon cizgi filminə meyl bağlaması məni olduqca təəcübləndirirdi. Baxmayaraq ki, İnformasiya Nazirliyi onun üçün bir sıra silsilə proqramlar hazırlamışdı ki, asanlıqla ləbtop vasitəsilə onlara baxa bilsin.

Dostları[95] ilə oturub söhbət etdiyimiz zaman da onlar Abdullahın "Piece One" adlı bir yapon teleserialına baxdığını öyrəndim. Filmin adı bir parça idi, yəni həmin parça vasitəsi ilə cəmiyyətdə müxtəlif insanlara fayda vermək mümkündür. Bu ərəb seriallarında tam fərqli idi. Bizim seriallarda ərəb cəmiyyətləri ailə münaqişələri, ailədaxili xəyanətlər və zərbələrlə vəsf olunur. Sanki cəmiyyətimizin əsasını bu təşkil edir.

Bu yapon cizgi filmi isə uşaqların xəyallara dalmasına və bir sıra dəyərləri mənimsəməsinə səbəb olur. Göstərilir ki, kim sənin haqqında maraqlanırsa o, sənin ailənin bir parçasına çevrilir.

NAKAMA adlı bu teleserial dostluq əlaqələri, cəmiyyətdə və işdə əməkdaşlıqdan bəhs olunur ki, bütün bunlar dinimizin də tələblərindəndir. Əfsuslar olsun ki, cəmiyyətdə bu məfhumlar müxtəlif istiqamətlərdə anlaşıldığı üçün ona əməl də fərqli şəkildə olunur.

Bu teleserialdan Abdullah belə bir ifadəni əzbərləyərək təkrarlayardı:

Səncə insanlar nə zaman ölür?

---

[94] Bu məqalə, 09.08.2015 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[95] Onun dostlarının adlarını qeyd etmək yerinə düşərdi:

- Muhəmməd Şəhatə, Fəhd əl-Qatami, Xalid Dosəri, İbrahim əl-Hacuri, Səud əl-Ğərir, Salim əs-Sənusi, Mişar əl-Huseynat, Fəhd əl-Fəhd, Abdurrəhman əl-Asfur, Dari ər-Rəşid, Suud ər-Rumi, Suud əl-Muslim, Abdullah əl-Muhənnə, Muhəmməd əs-Sənusi, Abduləziz əl-Cəri, Fəhd əl-Cəri, Abdulhadi əl-Cəri, Əhməd əl-Cəri, Ömər əl-Ğənim, Fəh əs-Seyf, Vəlid ər-Rəşid, Mubarək əs-Sabbah, Bərrak əl-Ğanim, Tariq əl-Ğeys, Muhəmməd əs-Sultan, Saleh əs-Sənib, Yusuf əl-Ğənnam, İbrahim Malullah, Hamid əl-Hərran, Abdurrəhman əş-Şəmlan.
- Fəhd Suud əs-Səd, Abdurrəhman Suud əs-Səd, Sultan Mənsur əs-Səd, Abdulmuhsin Muslim əz-Zamil, Əhməd Abdullah əs-Səd, Abdullah Bədr əz-Vəzan, Həmd ət-Tahus, Abdulaziz ər-Rifai, Fəhd əl-Qadi, Əhməd ər-Ramih, Bədr ət-Tahus, Əhməd ət-Tərkib, Abdurrəhman ət-Tahus, Suud Nasir əs-Saleh.

Onlara atəş açıldıqdamı? Xeyr.

Möhkəm bir xəstəliyə düçar olduqdamı? Xeyr.

Zəhərli göbələkdən hazırlanmış nektar içdikdəmi? Xeyr.

Onlar unudulduqları zaman ölürlər.”

Ey Abdullah, şahidlik edirəm ki, sən bizim ürəyimizdəsən. Allaha həmd olsun ki, sənin valideyinlərin, yaxınların və dostların sənin barəndə yalnız müsbət keyfiyyətlər danışırıq.

## Dərman qəbul etməyin təvəkküllə ziddiyyət təşkil etməməsi

Ola bilsin ki, bəziləriniz bu məlum mövzunu nə üçün vurğulamağıma təəccüblənəsiniz. Lakin mən başqa yöndən bu məsələyə aydınlıq gətirmək niyyətindəyəm.

Peyğəmbər ﷺ demişdir: "Necə də qəribədir möminin həyatı və bu yalnız mömin üçündür. O, xeyirlə üzləşdikdə şükür edər və bu onun xeyrinə olar. Zərərlə üzləşdikdə də isə səbir edər və bu da onun xeyrinə olar."[96]

Xəstəlik insanın günahlarının kəffarə olunmasının dil, eşitmə, görmə və digər orqanları vasitəsilə təzahürüdür. Uca Allah buyurur: **"Başınıza gələn hər bir müsibət öz əllərinizlə etdiyiniz əməllərə görədir."**[97]

Ola bilsin ki, insan Allah yanında xüsusi bir məqama sahib olsun, lakin onun həmin məqama layiq əməli olmasın. Bu zaman Allah onu xəstəliyə mübtəla edir ki, Onun mərhəməti sayəsində həmin məqama layiq olsun.

İslam şəriətinə görə şəfa məqsədilə dərmandan istifadə etmək zəruridir. Peyğəmbər ﷺ demişdir: "Ey Allahın qulları, dərmandan istifadə edin. Şübhəsiz ki, Uca Allah elə bir dərd verməyib ki, onun dərmanını da vermiş olmasın. Yalnız ölümdən başqa."[98] Bu hədisdə Peyğəmbər ﷺ öz ümmətinə haram olmayan dərmanlardan istifadə etməyi buyurmuşdur. Dərmandan istifadə barəsində alimlərin müxtəlif rəyləri vardır:

Cümhur yəni əksər alimlərin, o cümlədən hənəfi və malikilərin rəyinə görə dərmandan istifadə etmək mübahdır. Lakin malikilər: Dərmandan istifadə etmək olar – deyə qeyd etmişlər.

Şafiilər və hənbəlilərdən Qazi, İbn Aqil və İbn əl-Cəuzi bunun müstəhəb olduğunu bildirmişlər. Buna dəlil olaraq da Peyğəmbərin ﷺ bu hədisini gətirmişlər: "Şübhəsiz ki, Uca Allah dərd də verib dərman da. Hər bir dərdin dərmanını da verib. Odur ki, dərmanla müalicə olunun, lakin, haram şeylərlə müalicə olunmayın."[99]

---

[96] Muslim (2999).

[97] əş-Şura, 30.

[98] İbn Macə (3436).

[99] Əbu Davud (3874).

Bəzi başqa hədislərdə də dərmandan istifadə etmək buyurulur. Necə ki, Peyğəmbərin ﷺ qan aldırmasının da dərmandan istifadəyə dəlil kimi götürmüşlər. Şafiilərə görə isə dərmanın təsir edəcəyi dəqiqdirsə ondan istifadə vacib, yox dəqiq deyilsə müstəhəbdir.

Əksər hənbəlilərə görə isə dərmanı tərk etmək daha əfzəldir. Çünki bu təvəkkülə daha çox uzlaşır.

Bir dəfə İmam Əbu Abdullah Əhməd ibn Hənbələ müalicə alan bir nəfər barədə sual verirlər. O, belə cavab verir: "Bu bir rüxsətdir. Onu tərk etmək isə daha əfzəldir."

İmam əl-Həmavi bunlara cavab olaraq demişdir: "Təvəkkül səbəblərdən istifadə etməyə zidd deyil. Çünki təvəkkül insanın qəlbinin İzzət və Cəlal Sahibi olan Allaha bağlı olmasıdır ki, bu da səbəblərlə heç də ziddiyyət təşkil etmir. Səbəblərin çoxu elə təvəkküllə də əlaqəlidir. Həkim də yalnız öyrəndiklərinə əməl edir. Sonra isə işin gerisini Allaha tapşırır. Əgər təvəkkül özü-özlüyündə kifayət etmiş olsaydı Uca Allah buyurmazdı ki; "**Ey iman gətirənlər, eytiyatınızı tutun.**"[100] Həmçinin, Peyğəmbər ﷺ bədəviyə belə demişdi: "Dəvəni bağla, sonra Allaha təvəkkül et." [101] Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Qapıları örtün."[102]

Kim təvəkkülün səbəbləri tərk etmək olduğunu zənn edərsə təvəkkülün mənasını anlamayıb. Əgər onun iddia etdiyi kimi olsaydı Peyğəmbər ﷺ mağarada gizlənməzdi. Kim desə ki, qapını örtüb Allaha təvəkkül edirəm, həm ağıla, həm də şəriətə müxalif olar.

**Dərmanı tərk etmək nə deməkdir:**

Kim sələflərdən bəzilərinin, o cümlədən Əbu Bəkr əs-Siddiqin müalicəni tərk etməsini dəlil gətirərsə, ona belə cavab verilər:

**Birincisi:** Əvvəl dərmandan istifadə et, sonra onu tərk et.

**İkincisi:** Bunu demək dərmandan istifadə etməyə zidd deyil, sadəcə qədərlə razılaşmaq baxımından bu deyilib.

**Üçüncü:** Əgər insan əcəlinin yaxın olduğunu hiss edibsə bu ayrı məsələdir.

---

100 ən-Nisa, 71.

101 Tirmizi (2517).

102 Əhməd (15057), İbn Hibban (1271).

**Dördüncü:** Ola bilsin ki, insan öz aqibətinin hayında olsun və müalicəyə əhəmiyyət verməsin.

**Beşinci:** Ola bilsin ki, xəstəlik sağalmaz olsun və dərmanın ona təsir etməsi ehtimalı az olsun. Bütün bu məsələlərə ayrıca baxmaq lazımdır. İmam Əhməd ibn Hənbəlin sözləri də bu mənada açıqlanmalıdır. Çünki bu ümumiyyətlə səbəbləri tərk etmək mənasında deyildir. Əksinə, gərək insan məqsədinə çatmasa belə də, çalışsın."[1]

**Müalicə vacibdir və təvəkkülə zidd deyil:**

Əgər mötəbər tibb mütəxəssislərinin təkidi ilə müalicə olunmasa insanın həyatının risk halında olması ehtimalı varsa, bu vacibdir.

Bunu dəlil gətirən fiqh alimləri Uca Allahın aşağıdakı ayəsini dəlil gətiriblər: **"Özünüzü öz əllərinizlə təhlükəyə atmayın."**[2] Həmçinin, buyurur: **"Özünüzü öldürməyin. Şübhəsiz ki, Allah sizə qarşı mərhəmətlidir."**[3] Həmçinin, hədislərdə də dərmandan istifadə etmək etmək buyurulur. Usamə bin Şərik demişdir: "Mən Peyğəmbərin ﷺ yanına gəldikdə sanki səhabələrin başlarına quş qonmuş tək oturmuşdular. Mən salam verib oturdum. Ərəblər hər tərəfdən onu əhatə edərək soruşdular: "Ey Allahın Rəsulu, dərmandan istifadə edəkmi?" O, belə cavab verdi: "Dərmandan istifadə edin, Şübhəsiz ki, Uca Allah elə bir dərd verməyib ki, onun dərmanını da vermiş olmasın."[4]

Aşağıdakı hədis də dərmanı tərk etmənin təvəkkülün şərti olmadığını göstərir. Ömərdən və digər səhabələrdən nəql olunmuş Taunla bağlı hədisdə deyilir ki, onlar Şama üz tutmuşdular. Orada onlara xəbər çatır ki, Şamda öldürücü və sağalmaz bir xəstəlik yayılıb. Orada insanlar iki qismə bölünür. Onlardan bəzisi deyir ki, oraya daxil olmayaq ki, özümüzü təhlükəyə atmayaq. Digərləri isə deyirlər ki, əksinə daxil olaq, Allaha təvəkkül edək və Onun qədərindən qaçmayaq. Çünki beləlləri haqqında Uca Allah buyurur: **"Minlərlə *adam* olduqları halda ölüm qorxusundan yurdlarından çıxanları görmədin-**

---

[1] əl-Əhkam ən-Nəbəviyyə fi sinaətit-tibbiyyə.

[2] əl-Bəqərə, 195.

[3] ən-Nisa, 29.

[4] Əbu Davud (3755).

**mi? Allah onlara: "Ölün!"– dedi. Sonra isə onları diriltdi. Doğrudan da, Allah insanlara qarşı lütfkardır, lakin insanların çoxu *buna* şükür etmir."**[1] Onlar Ömərin yanına qayıdaraq ona bu barədə sual verdilər. O dedi ki; Qayıdırıq və Vəba xəstəliyinin yayıldığı yerə girmirik. Ona müxalif olanlar ona etiraz edərək deyirlər: "Allahın qədərindənmi qaçırıq?" Ömər deyir: "Bəli, Allahın qədərindən Allahın qədərinə qaçırıq." Səhər açıldıqda Abdurrahman gəldi və Ömər ondan da bu barədə soruşdu. Abdurrahman dedi: "Məndə bu barədə Peyğəmbərdən ﷺ bir hədis var, o demişdir: "Taun barədə eşitsəniz, həmin yerə getməyin, sizin olduğunuz yerdə baş versə oradan çıxıb başqa yerə qaçmayın."[2]

**Şeyx Mustafa əl-Ədəvinin "Birinin təvəkkül edərək müalicəni tərk etməsi olarmı? - əsəri (3 : 18).**

---

[1] əl-Bəqərə, 243.

[2] Buxari (5729), Muslim (2219).

## Xərçəng xəstəliyindən vəfat edən şəxs şəhiddir ([1])

Peyğəmbərin ﷺ bu xüsusda olduqca əzəmətli bir müjdəsi vardır ki, onunla tanış olduqda o, insanlara ümid və rahatlıq verir. Xəstəliyə düçar olmuş və öz aqibəti barədə narahatlıq keçirən şəxslər də bundan rahatlıq tapır. Çünki son dövrlər bu xəstəlik demək olar ki, hər kəsin evinin qapısını döyür. Bəs həmin müjdə nədən ibarədir?

Həmin müjdə Peyğəmbərin ﷺ şəhid məfhumunu geniş şəkildə izah etməsi barədə varid olmuş hədisdir. İmam İbn Həcər bunun iyirmi yeddiyə, Şəukani isə əlliyədək növə şamil olunduğunu bildirmişdir.[2]

İslamda "şəhid" məfhumunun geniş olduğunu bildirən hədislərdən biri Buxari və Muslimin Səhih əsərlərində Əbu Hureyrədən ؓ rəvayət olunan hədisdir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "Şəhidlər beşdir: Taun xəstəliyindən ölən, qarın yatalağından ölən, suda batıb ölən, dağıntı altında qalıb ölən və Allah yolunda vuruşub ölən."[3]

İmam Malik "Muvatta" əsərində, İmam Əhməd isə "Müsnəd" əsərində, həmçinin Əbu Davud, Nəsai və İbn Macə "Sünən" əsərlərində Cabir ibn Uteykdən ؓ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Allah yolunda öldürülməkdən savayı şəhidlik yeddi növdür: Allah yolunda öldürülən şəhiddir, taun xəstəliyindən ölən şəhiddir, suda boğulub ölən şəhiddir, asma xəstəliyindən ölən şəhiddir, qarın yatalağından ölən şəhiddir, yanğında ölən şəhiddir, dağıntı altında ölən şəhiddir, doğuş zamanı ölən qadın şəhiddir."[4]

İmam Muslimin Səhih əsərində Əbu Hureyrədən ؓ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Aranızda kimləri şəhid sayırsınız? Dedilər: Ey Allahın rəsulu, o kəslər ki, Allah yoluna vuruşub ölüblər." Peyğəmbər ﷺ dedi: "Elə isə ümmətimdən şəhidlər olduqca az olacaq." Soruşdular: "Bəs kimlərə şəhid deyilir, ey Allahın Rəsulu?" O, dedi: "Allah yolunda öldürülən kəs şəhiddir, Allah yolunda ölən şəhiddir, taun xəstəliyindən ölən şəhiddir, qarın yatalağından ölən kəs şəhiddir, suda boğulub ölən şəhiddir."[5]

---

[1] Bu məqalə, 26.10.2014 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[2] əl-Fəthur-Rabbəni min fətaval-imam əş-Şəukani (10/4947).

[3] Buxari (2829).

[4] Muvatta (996), Müsnəd (23753), Əbu Davud (3111), Nəsai (1846).

[5] İbn Hibban (3186).

Bu babda hədislər olduqca çoxdur. Bütün bu hədislər də Allahın bu ümmətə olan lütfünə dəlalət edir. Hətta Hafiz ibn Həcər Əli ibn Əbu Talibdin ﵁ belə dediyini rəvayət etmişdir: "Müsəlmanın öldüyü hər ölüm şəhidlikdir. Sadəcə şəhidliyin mərtəbələri vardır."[1]

Bəzi alimlər də şəhidlik məsələsinə qayda qoyublar ki; Kim davamlı ağrılar içərisində, ya da böyük xəstəlik nəticəsində, yaxud da qəfil bəla nəticəsində dünyasını dəyişərsə ona şəhidin savabı yazılır. Birinci növə misal olaraq qarın yatalağından ölən kəsi göstərmək olar. İkinci növə taun xəstəliyindən ölən misaldır. Üçüncü növə isə suda boğulub ölən kəs misaldır."[2]

Xərçəng xəstəliyinə gəlincə isə mən bu xüsusda bir sıra fitvalarla tanış olmuşam. Orada da bu xəstəlikdən ölən kəsin Allahın izni ilə şəhid olduğu bildirilir. Çünki xərçəng xəstəliyi də uzun müddət sahibinə ağrı verir və bu acı davam edir. Hədislərdə qeyd olunan xüsusiyyətlər bu xəstəlikdə də vardır. Məhz buna görə də alimlər bu xəstəliyi də həmin siyahıya əlavə ediblər.

Bu barədə oxuduğum fitvalardan bəziləri aşağıdakılardır:

1. Səudiyyə Ərəbistanı Krallığında Kralın müşaviri, böyük alimlər heyətinin üzvü və elmi araşdırmalar üzrə daimi komitənin üzvü Möhtərəm Şeyx Doktor Abdullah bin Muhəmməd əl-Mutlaqın fitvası. Həmin fitvada şeyx xərçəng xəstəliyindən ölənin şəhid olduğunu bildirmişdir. Çünki xərçəng xəstəliyi də taun, qarın yatalağı və vərəm xəstəliyinə bənzəyir. İmam Muslimin Səhih əsərində Əbu Hureyrədən ﵁ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Aranızda kimləri şəhid sayırsınız?" Dedilər: "Ya Rəsulullah, o kəslər ki, Allah yoluna vuruşub ölüblər." Peyğəmbər ﷺ dedi: "Elə isə ümmətimdən şəhidlər olduqca az olacaq." Soruşdular: "Bəs kimlərə şəhid deyilir, ey Allahın Rəsulu?" O, dedi: "Allah yolunda öldürülən kəs şəhiddir, Allah yolunda ölən şəhiddir, taun xəstəliyindən ölən şəhiddir, qarın yatalağından ölən kəs şəhiddir, suda boğulub ölən şəhiddir."[3]

---

[1] Fəthul-Bari (6/44).

[2] Feydul Bari (2/248).

[3] İbn Hibban (3186).

2. İordaniyanın fitvalar mərkəzinin fətvası. Orada deyilir. Həmd Allaha məxusdur. Peyğəmbərə salavat və salam olsun. Hədislərdə şəhidlərin müxtəlif növləri qeyd olunmuşdur. Əbu Hureyrədən ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Taun xəstəliyindən ölən, qarın yatalağından ölən, suda boğulub ölən, dağıntılar altında qalıb ölən və Allah yolunda vuruşub ölən."[1]

Alimlər şəhidə belə bir qayda qoyublar ki, o kəs ki, davamlı ağrı-acı çəkərək və ya qəflətən ölərsə o, şəhid hesab olunur. Qarın yatalağından ölən, taun xəstəliyindən ölən, suda boğulub ölən buna misaldır."[2]

Hədislərdəki növlərə nəzər saldıqda orada şiddətin, ağrı-acıların olduğu görülür. Beləliklə, bu davamlı acı onların günahlarının əfv olunmasına səbəb olur və onlar şəhid mərtəbəsinə yüksəlirlər.

Lakin şəhidlik məqamını fəth etmənin şərtlərindən biri xəstəliyə səbir etməkdir. Necə ki, imam Subki şəhidlik barədə suruşulduqda demişdir: "Bu insanın nail ola biləcəyi şərəfli bir məqamdır və o, səbəb, şərt və nəticə ilə baş verir."[3] Sonra da o, bəzi şərtləri qeyd etmişdir ki, onların da arasında səbir, savabın Allahdan umulması, borcun olmaması, başqasının haqqına girməmək kimi şərtlər vardır.

Kim xərçəng xəstəlyinə tutulsa, sonra da buna səbir edərək ölsə şəhidlik məqamına çatmış olar. Çünki bu xəstəlik dövrümüzdə əksər hallarda ölümlə nəticələnən sağalmaz bir xəstəlikdir. İnsanlar hələ də ona bir çarə tapa bilməyiblər. Odur ki, həmin xəstəliyə tutulan gərək kədərlənməsin, səbirli olsun, Allahın qədəri ilə razılaşsın, əmin olsun ki, qədərdən başqa onun başına bir şey gələ bilməz və səbir etmiş olsa şəhilik məqamına yüksələcək.

Hafiz İbn Həcər Fəthul-bari əsərində demişdir: "Həsən ibn Əli əl-Həlvani əl-Mərifə əsərində həsən isnadla Əli ibn Əbu Talibin ﷺ belə dediyini nəql etmişdir: "Müsəlmanın öldüyü hər bir ölüm şəhidlikdir, sadəcə şəhidlik məqamı fərqli səviyyələrdə olur." Daha doğrusunu Allah bilir.

---

[1] Buxari (2829).

[2] Feydul qadir (2/248).

[3] Fətava əs-Subki (2/339).

3. əl-Əzhar Universitetinin müəllimi Şeyx Doktor Əhməd Taha Rayyənin fitvası: "Həmd Allaha məxsusdur, aləmlərə rəhmət olaraq göndərilmiş Peyğəmbərə salavat və salam olsun. İmam Malik, Nəsai və Əbu Davudun nəql etdikləri, Nəvəvinin də səhih hesab etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah yolunda öldürüləndən başqa şəhidlər yeddi növdür: taun xəstəliyindən ölən şəhiddir, suda batıb ölən şəhiddir, asma xəstəliyindən ölən şəhiddir, qarın yatalağından ölən şəhiddir, yanğında ölən şəhiddir, dağıntı altında qalaraq ölən şəhiddir, doğuş zamanı ölən qadın şəhiddir."[1]

Hafiz İbn Həcər hədislərdə qeyd olunan şəhid növlərini zikr edərək onların iyirmi yeddi növ olduğunu bildirmişdir. Sonra da demişdir ki: "Başqa növlərlə də rastlaşmışam, lakin hədislər zəif olduğu üçün nlara əhəmiyyət vermədim."[2]

Həmin hədislərdə vərəm xəstəliyindən ölən kəslər də qeyd olunur. Həmçinin, əd-Deyləmi Ənəsdən ﷺ nəql etmişdir ki; "Qızdırmadan ölən şəhiddir." Hafiz İbn Əli əl-Həlvani əl-Məarifə əsərində öz isnadı ilə Həsən ibn Əlinin belə dediyini rəvayət etmişdir: "Müsəlmanın öldüyü hər bir ölüm şəhidlikdir. Sadəcə şəhidlik müxtəlif cür olur."

İmam əl-Baci və imam İbn ət-Tin şəhidlik sözünün bu ölümlərə şamil olunmasının səbəbini həmin xəstəliklərin davamlı şəkildə acı verməsi olduğunu zikr etmişlər. Beləcə, Muhəmmədin ﷺ ümməti günahlarının əfv olunma dərəcələrinə görə fərqlənir. Alimlər hədislərdə qeyd olunan bəzi detallar barədə ixtilaf ediblər. Misal üçün onlar taun xəstəliyinin qatırlarda olan xəstəliyə bənzətmiş, qoltuq altı yerlərdə təzahür etdiyini bildirmişlər. Bəziləri asmanın qarınağrıya səbəb olan vərəm olduğunu bildirmişlər. Qarın yatalağının da davamlı ishalda olana şamil etmişlər. Həmçinin burada sehr olunmuş kəslərin nəzərdə tutulduğunu da bildirmişlər. İbn əl-Əsir və Əbu Bəkr əl-Mərvəzi də bu xəstəliyi fərqli şəkildə izah etmişlər.

Xülasə anlaşılan odur ki, xərçəng xəstəliyinə mübtəla olmuş kəs uzun müddət şiddətli ağrı çəkdiyinə görə hədislərdə qeyd olunan

---

[1] Muvatta (996), Əhməd (23753), Əbu Davud (3111), Nəsai (1846).

[2] Fətul-Bari, 6/44.

xəstəliklərə bənzəyir. Alimlər də məna baxımından bu xəstəliyin oxşarlığını izah etmişlər. Şübhəsiz ki, Allahın fəziləti geniş, lütfü böyükdür. Daha doğrusunu Allah bilir.

4. Möhtərəm Doktor Şeyx Səfər ibn Abdurrəhman əl-Həvalinin fitvası. Ona sual verirlir: "Xərçəng xəstəlyindən ölən kəs şəhid hesab edilirmi?"

O, belə cavab verir: "Ümid edirik ki, elədir. Çünki Peyğəmbərə ﷺ yalnız döyüşdə ölən kəsin şəhid olması xəbəri yetişdikdə o, belə demişdi: "Elə isə ümmətimin şəhidləri olduqca azdır. Sonra o, Allahdan şəhidlərin daha çox olmasını diləmiş, Allah da ona cavab vermişdi. İmam Suyuti ﷺ onların iyirmi dörd növdən artıq olduğunu bildirmişdi."

Onlardan: taun xəstəliyindən ölən, qarın yatalığından ölən, doğuşdan sonra öləni göstərmək olar. Günümüzdə xərçəng, qaraciyər serrozu kimi xəstəliklərə düçar olanlarında onlara aid olmasına ümid edirik.

5. Şeyx Abdüləziz Abdullah ibn Bəzzin ﷺ fitvası. Xərçəng və digər buna bənzər xəstəliklərə mübtəla olanlar böyük bir xeyir üzərindədirlər. Çünki möminə üz verən hər bir xəsəlik, hətta ayağına batan hər bir tikan belə onun günahları üçün kəffarədir.

6. Küveyt Dövlətinin Vəqflər və İslam İşləri Nazirliyinin fitva heyətinin üzvü, fiqh ensiklopediyasının mütəxəssisi, İslam Şriəti fakultəsində müəllim Şeyx Doktor Əhməd əl-Həcci əl-Kurdinin fətvası. Yaxın şəxslərdən biri xərçəng xəstəliyindən ölən kəsin şəhid olub olmaması barədə ona sual vermişdi. Sual belə idi: "Yaxın şəxslərdən birinin övladı beynində xərçəng xəstəliyindən ölmüşdü. Həmin şəxs axirətdə şəhidlərdən hesab olunacaqmı? Çünki bu barədə fikir müxtəlifliyi vardır. Bəziləri yalnız qarnında xərçəng xəstəliyi olanın şəhid olmasını bildirmişdir. Digərləri isə uzun müddət davam edən xəstəlikdən ölən kəsin şəhid olduğu qənaətindədir. Allah sizdən razı olsun sizi hər bir pislikdən qorusun."

Şeyx isə belə cavab vermişdi: Peyğəmbər ﷺ demişdir: "Şəhidlər beş qisimdir: taun xəstəliyindən ölən, qarın yatalağından ölən, suda boğulub ölən, dağıntı altında qalan və Allah yolunda vuruşub ölən." Hədisi buxari və Muslim rəvayət etmişdir.

Ümid edirik ki, xərçəng xəstəliyindən ölən kəslər də bunlara aid olsun.

Şübhəsiz ki, Allahın mərhəməti genişdir, Onun lütfü olduqca genişdir. Odur ki, hesab edirik ki, oğlum Abdullah və onun kimi xərçəng xəstəliyindən ölən hər kəs şəhidlik məqamına yüksəlmişdir. Allahım onları əməlisaleh qullarından buyur, həqiqətən də Sən duaları qəbul edənsən.

## Dünyasını dəyişən şəxsin beyininə qurtarma aparatının qoşulmasının düzgünlüyü ([1])

Bu, insan üçün ən çətin anlardan biridir ki, həkimlər xəstənin beyininin öldüyü barədə xəbər verirlər. Onu ölümdən ayıran yalnız aparatın söndürülməsi olur!

Bundan daha çətini isə həkimlərin ona seçim vermələridir ki, istəyirsən o, aparata qoşulu halda qalsın, ya da ki aparatı söndürək və o, ölsün.

Aman Allah, bu insanın həyatında ən çətin andır. Bu zaman qərar vermək olduqca çətindir. Çünki aparatın qoşulu qalmasını tələb etsə, o zaman xəstə ilə birlikdə əzab çəkmiş olur. Xəstə isə bu vəziyyətdə ölümlə həyat arasında qalır. Xəstənin sağalması barədə ümidləri isə əsla həqiqətə çevrilmir.

Beləcə, insan iki qərar arasında qalır. Ələlxüsus da bizim xəstəxanalar insana seçim verirlər. ABŞ xəstəxanalarında isə belə deyil. Onlarda müəyyən müddətdə möhlət verilir ki, qərar qəbul edilsin. ABŞ qanunvericiliyinə görə həmin müddətdə qərar verilməsə xəstəxana özü xəstəni aparatdan ayırır.

Allahın lütfündəndir ki, bizləri müsəlman etmişdir. Bu əzəmətli din insanı taqəti olandan artıq yükləmir, onun halını və vəziyyətini nəzərə alır. Həmin mərhəmətdəndir ki, şəriət xəstəyə əziyyət verilməsini bəyənmir. Çünki hər kəsə bəllidir ki, həyat əbədi deyil və ölümün gəlməsi labüddür.

Bir sıra alimlər və elm mərkəzləri xəstənin aparatdan ayrılmasını caiz görmüşlər. Təkrar olmasın deyə biz həmin fətvalardan biri ilə kifayətlənəcəyik. İslam Konfransı Təşkilatının islam fiqhi komitəsi İordaniyanın paytaxtı Amman şəhərində keçirdiyi toplantısında 5-3/7/1986 saylı qərarında deyilir: "Aparata qoşulmuş xəstənin bütün bədən üzvləri fəaliyyətini dayandırarsa aparatının söndürülməsi caizdir. Tibb üzrə üç mütəxəssisin rəyinə əsasən bu vəziyyətdə olanın yenidən həyata qayıtması real deyil. Hətta ürək və tənəffüs sistemi işlək vəziyyətdə olsa belə bu qeyri mümkündür. Aparatdan ayrıldıq-

[1] Bu məqalə, 08.03.2015 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

dan sonra onun qəlbi və tənəffüs sistemi tam fəaliyyətini dayandırdıqdan sonra o, ölmüş hesab olunur.”

Şəkk yoxdur ki, bu fitva xəstə insanların yaxınları üçün böyük bir yüngüllükdür. Xüsusən də əgər yaxınları aparatın qoşulu vəziyyətdə qalması üçün imkana malik deyillərsə. Çünki bu, onlar üçün böyük bir əziyyət hesab olunur.

İslam nemətinə görə Allaha həmd olsun. Allahım belə bir bəla ilə üzləşmiş hər kəsin yaxınlarına səbir ver.

## Xəstəyə verilən tibbi tövsiyələrin çoxluğu və düzgünlüyü ([2])

Bəzi yaxınlarımız xəstəni çox sevdiklərindən dolayı onun yaxınlarına çoxlu nəsihət və tövsiyələr göndərirlər. Çox vaxt belə təcrübələrin paylaşılması olduqca faydalı olur.

Ruqya və dualar göndərənlər gərək onların səhih hədislərə əsaslandığından əmin olsunlar. Çünki dualar Peyğəmbərdən ﷺ səhih olaraq nəql olunmalıdır. Ümumi dualara gəlincə isə bu caizdir. Şəfa niyyəqti ilə isə yaxşı olar ki səhih hədislərdə varid olan dualardan istifadə edilsin.

Tibbi tövsiyələrə və xalq təbabətinə gəlincə isə bu xüsusda aşağıdakıları nəzərə almaq lazımdır:

**Birinci:** Xalq təbabəti şəxsi təcrübələrə əsaslanır və xəstəliyə görə fərqli olur.

**İkinci:** Ola bilsin ki, həmin tövsiyə xəstənin halına uyğun gəlməsin. Belə olduğu halda gərək xəstə xəstəxananın müalicəsini davam etdirsin. Çünki yaxınları belə nəyin faydalı olub olmamasını seçə bilmirlər.

**Üçüncü:** Ola bilsin ki, müalicə xaricdə aparıldığı üçün həmin məlhəmin ləvazimatlarını tapmaq oldduca çətin olsun.

**Dördüncü:** Bəzən zəif nəfsli insanlar bundan istifadə edərək maddi cəhətdən yararlanmağa başlayırlar. Həmin vaxt isə xəstənin yaxınları əllərindən gələni edib böyük məbləğlər ödəməyə hazır olurlar ki, təki xəstələri bundan faydalansın. Onları da qınamaq olmur. Çünki doğru ilə yanlış arasında ayırd etmək təqdirində olmurlar.

**Beşinci:** Xəstə və onun yaxınları müalicə ilə məşğul olduqları üçün həddindən artıq faydasız tövsiyələr onlarda ruh düşkünlüyünə səbəb ola bilər.

**Altıncı:** Xalq təbabətinə aid tövsiyələr əksər hallarda tibbi cəhətdən öz dətəyini tapmır. Odur ki, həkimlərin tövsiyəsi olmadan həmin məlhəmləri qəbul etmək yolverilməzdir.

**Yeddinci:** Heç kim xalq təbabətinin məlhəmlərini inkar etmir, lakin dəlil olmadan onu xüsusi hallara şamil etmək doğru deyildir.

**Səkkizinci:** Ola bilsin ki, bu müalicələrin tövsiyə olunması sevginin bir təzahürü olsun, lakin. Bu o demək deyil ki, ona əməl etmək daha doğrudur. Çünki edilən duaların bərəkətinin olması labüddür və bu barədə ayrıca məqalə hazırlamışam.

---

[2] Bu məqalə, 08.03.2015 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

## Həmd diyarındakı qonşumuzu salamlayırıq: Xalid Abdullətif əş-Şayi ([3])

Həmd evindəki qonşumuza salam olsun.

O, həmd evindəki yeni qonşumuza bir misaldır.

Əvvəlcə onun barədə söhbət açım, sonra onun nə üçün orada qonşumuz olacağını qeyd edəcəyəm.

Onun adı Xalid Abdullətif əş-Şayidir, Allah ona rəhmət eləsin. O, həm böyüklə, həm də kiçiklə necə davranmaq lazım olduğunu bilən bir tibb mütəxəssisi idi. Hər zaman qohumları və yaxınları ziyarət edər və Peyğəmbərin ﷺ: "İnsanın atasının qohumlarını ziyarət etməsi qohumluq əlaqələrinin möhkəmləndirməsinə aiddir"[4]– hədisini tətbiq edərdi. Olduqca səxavətli, əliaçıq, yardımsevər idi və atasındakı müsbət keyfiyyətləri özündə daşıyırdı.

Bu adam istimai və iqtisadi baxımdan cəmiyyətdə özünəməxsus yeri olan hörmətli ailənin möhtərəm bir üzvü idi. Onun İslam aləmində beynəlxalq səviyyədə etdiyi yardımlar olduqca çoxdur. Bu barədə müfəssəl şəkildə "Yardımların toplanması üzrə xalq komitəsi – 2007" kitabında qeydlər aparmışam. Həmçinin qısa şəkildə onun haqqında "əl-Vusul iləl-usul" əsərində yazmışam. Həmin əsər əl-Cərallah əl-Xurafi ailəsi barədədir.

Bu ailənin gələcək nəsillərə tanıdılması olduqca mühümdür ki, gələcək nəsillər bu yardım sevər ailənin əməllərini özlərinə örnək götürsünlər.

Həmd evindəki yeni qonşumuza gəlincə isə onun barəsində bu məqalənin ikinci və sonuncu qismində söhbət açmışdıq. Çünki bilirdim ki, qələmim mürəkkəblə deyil göz yaşlarımla yazacaq. Ötən cümə günü mərhum Xalid əş-Şayi ilə bağlı üç sünnəni icra etdim. Ona cənazə namazı qıldım, dəfnində iştirak etdim, daha sonra isə onun məzarının üzərində duraraq onun üçün dualar edib Allahdan bağışlanma dilədim. Daha sonra övladım Abdullahın qəbrini ziyarət etdim. Ona salam verərək onun üçün də dualar etdim. Gözlərimə ha-

---

[3] Bu məqalə, 22.03.2015 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[4] Muslim, 2552.

kim ola bilməyərək dedim ki; “Həmd diyarında yeni qonşunu qarşılamağa hazırlaş.” Çünki Xalid əş-Şayi də özünün yeganə oğlunu bundan əvvəl avtomobil qəzasında 1999-cu ilil iyul ayında itirmişdi.

O da buna səbir edərək Allaha həmd etmiş və innə lilləhi va innə ileyhi raciun demişdi. Bu baxımdan Allahın vədinə layiq olduğu qənaətindəyəm. Çünki Uca Allah əsla öz vədinə xilaf çıxan deyildir. O, kim övladını itirən kəs buna səbir edərək bu sözləri deyənə Cənnətdə həmd evi inşa etdirəcəyi barədə vəd vermişdir.

Mən oğlum Abdullaha bunu xəbər verdikdə sanki həmd evi gözlərimin önündə canlanırdı. Yaxşı xatırlayıram ki, Xalid əş-Şayinin oğlu dünyasını dəyişdikdə ona səbirli olmasını tövsiyə etmişdim. O isə Allaha həmd edərək innə lilləhi va innə ileyhi raciun - demişdi.

Xalid əş-Şayi mənim kimi yeganə oğlunu itirmiş şəxslərdən biridir. Hətta o, sonradan yeganə nəvəsini də itirmişdi. Allah ona rəhmət eləsin və Cənnətin sakinlərindən etsin.

**Şeyx Muhəmməd əl-Arifinin “Cəzəu mən yəsbiru alə movti valədihi” əsəri (2 : 25)**

**Şeyx Muhəmməd Ratib ən-Nəblusinin “İnnəməl muminunə ixva” əsəri (12 : 00)**

## İslam ümmətinin xəstələrə qarşı mədəni münasibəti

**Səhiyyə vəqfi:**

Şəkk yoxdur ki, vəqf, İslam ümmətində indiki və gələcək nəsillər üçün nəzərdə tutulmuş ən önəmli məsələlərdən biri hesab olunur. Bu zaman ümmətin nəsilləri malik olduqları mülkləri özləri ehtiyac duysalar belə Allah yolunda vəqf edir ki, gələcək nəsillər tibbi və digər baxımdan ondan faydalansınlar.

Xüsusən də, səhiyyə sahəsində mövcud olan vəqflər hər kəsə böyük faydalar vermişdir və verməkdədir. Həmin vəqflərlə bir çox xəstəxana və klinikalar inşa edilmişdir. Bir çox xəstələr üçün yataqlar alınaraq istifadəyə verilmiş, çox miqdarda dərman preporatları xəstələrə təqdim olunmuşdur. Həmçinin, vəqf olaraq xəstəxanalarda xəstələrə onların hallarına münasib olan yeməklər, münasib içməli mayelər və işıqlandırma sistemi də təqdim olunur.

**İslami vəqf və onun tibbi və psixoloji rolu:**

Xəstələrin müayinə və müalicə olunmasında, onlara lazımi dərman preporatlarının təqdim olunmasında İslami vəqfin rolu əvəzolunmazdır. Həmçinin, vəqf olunmuş xəstəxanalarda tədris üçün xüsusi sektorlar yaradılmışdır və orada tələbələrə mühazirələr verilir və tibb mütəxəssisləri ilə açıq fikir mübadiləsi aparılmasına şərait yaradılır.

Cəmiyyətin bütün sahələri bundan yararlanmışdır. Hətta bu xidmətlər təkcə xəstəxanalarda deyil, yoxsul xəstələrin yaşadığı evlərdə də təqdim olunmaqdadır. Onlar lazımi şəkildə müalicə olunur və onlara lazımi dərmanlar və qida məhsulları təqdim olunur. Vəqflər tibb mütəxəssislərinin və tələbələrin xərclərini qarşılamağı öz üzərinə götürmüşdür.

Vəqflər vasitəsi ilə yalnız tibbi müayinə və müalicələr deyil, psixoloji yardımlar da təqdim olunur. Belə ki, xəstələri sevindirərək onlara müsbət psixoloji təsir edən mütəxəssislər də hazırlamışdır ki, onlarda ruh yüksəkliyi yarada bilsinlər. Çünki bu amillər xəstələrin sağalmasında və onlarda mənəvi ruh yüksəkliyinin yaranmasında xüsusi rol oynayır.

Həmçinin, bəzi mütəxəssislər övladını itirmiş valideyinlərə və onun yaxınlarına ürək-dirək verməklə mükəlləf olur və onlara səbirli olmağı tövsiyə edir. Həmçinin, tövsiyə olunur ki, vəfat etmiş şəxx üçün dualar etsin və onun adından sədəqələr versin.

Vəqflər xəstələrin cəmiyyətdə sosial təminatına da yer verir. Belə ki, xəstənin yaxınlarına müəyyən yardımlar edirdi ki, xəstənin xərclərinin bir qismini ödəyə bilsin. Xəstə sağaldıqdan sonra isə müəyyən vaxt işləməsin deyə ona yardımlar edilirdi. Ələlxüsus da əgər onun müalicəsi cərrahiyyə əməliyyatına ehtiyac duyurdusa belə yardımlar təqdim olunurdu.

Vəqflərin qorunması xəstələr üçün həm sağ olduqda, həm də vəfat etdikdən sonra böyük bir nemətdir. Bəzi vəqflər xəstəxanalarda və ya öz evlərində dünyasını dəyişmiş xəstələrin dəfn xərclərini də qarşılayır.

Ümumən vəqflər xətəxanaların inşa edilməsi, xəstələrə yemək, içmək, libas, dərman preporatları və sairə kimi ləvazimatların təmin olunmasında əlahiddə rol oynayır. İnsana lazım olan bütün ehtiyacların qarşılanması vəqflər vasitəsilə mümkündür.

Həmçinin, vəqflər dövlətin üzərinə düşən yükü də azaltmış olur. Belə ki, xəstəxanaların inşa olunması, xəstələrə lazımi yardımın edilməsi hökumətin səhiyyə sahəsinə ayırdığı məbləğin azalmasına səbəb olur.

İslam aləmində ilk xəstəxana Valid ibn Abdulmalikin zamanında inşa edilmişdir. Həmin xəstəxana cüzam xəstələrinin müalicəsi üçün nəzərdə tutulmuşdu. Həmin xəstəxanalarda həkimlərin də xərcləri qarşılanırdı. Sonradan inşa edilən xəstəxanaların sayı çoxalmağa başladı. O zaman xəstəxanalara Beymarstan deyirdilər.

Tarixdə vəqflərin insanların sosial təminatında nə qədər önəmli rol oynamasına dair misallar çoxdur.

**Bağdaddakı əl-Bimarstan əl-Adudi tibbi mərkəzi:**

Hicrətin 366-cı ilində (miladi tarixi ilə 976-cı il) Bağdadda inşa edilmişdir. Orada müalicə tam təmənnasız idi. Orada xəstələr lazımi libas, qida məhsulları və dərmanlarla təmin olunurdu. Hətta xəstə müalicəsini bitirdikdən sonra ona cibxərcliyi də verilirdi ki, öz vətəninə qayıda bilsin.

Həmçinin, İbn Cubeyr öz səfəri barədə qeydiyyatlar apararkən demişdir: "Mən Bağdada çatdım. Orada Marıstan adlı bir bazar var idi. Orada xəstələrin müalicəsi üçün hər növ tibbi ləvazimatlar vəqf olaraq verilirdi. Həmin ərazi tibbi ləvazimatlarla ixtisaslaşmışdı. Orada bütün xəstələri qəbul edirdilər. Tibb elmini öyrənən tələbələr, müəllimlər, əczaçılar vəqf malından istifadə edərək hər kəsə lazımi yardımlar göstərirdilər."

**Xəstə və qəriblər üçün nəzərdə tutulmuş əl-Munis vəqfi:**

Həmin vəqf gözəl səsə malik müəzzinlərə məbləğlər təxsis edirdi ki, gecələr səhərədək xəstələrin yanında dini qəsidələr oxusunlar ki, onlar öz ağrılarını yaddan çıxarsınlar. Kimsəsiz xəstələrə qulluq edənlərin də məsrəfləri bu vəqf tərəfindən qarşılanırdı.

**Xəstədə şəfa təəssüratı yaradan vəqf:**

Bu vəqf növü xəstəxanalarda bir sıra işlərin təmin olunması ilə məşğul olur. Belə ki, iki şəxs xəstənin yanında olur. Xəstənin özü isə onların səslərini eşitsə də özlərini görmür. Onlardan biri digərindən soruşur: Həkim bu xəstə barəsində nə dedi? Digəri isə cavab verir ki; Deyir ki, yaxşıdır, tezliklə sağalacaq. Qorxulu heç bir şey yoxdur. İki-üş gün sonra bəlkə ayağa qalxdı.

Bu da xəstələrə ürək-dirək verən mühüm bir amildir ki, onların sağalmasına səbəb ola bilər.

**Dəməşqdəki böyük əl-Bimarstan ən-Nuri tibbi mərkəzi:**

Bu xəstəxananı ədalətli hökmdar Sultan Nurəddin əş-Şəhid hicrətin 549-cu ilində (miladi tarixlə 1154-cü il) inşa etdirmişdir. O, Firəng hökmdarlarından birindən aldığı fidyə hesabına bu xəstəxananı tikdirmişdi. O, öz dövründə inşa edilmiş ən gözəl xəstəxana hesab olunurdu və yoxsullar üçün nəzərdə tutulmuşdu.

ən-Nuri xəstəxanası təkcə Dəməşqdə deyil bütün İslam aləmində qalmış ən önəmli irslərdən biri hesab olunur. Onun fərqli memarlıq üslubu ərəb müsəlmanların memarlıq sahəsində o zaman nəqədər inkişf etdiyinin əyani göstəricisidir.

Xəstəxana Dəməşq şəhərində, Əməvi məscidi yaxınlığında əl-Həriqa adlanan ərazidə yerləşir. Həmidiyyə bazarının ortasından təqribən yüz metrlik məsafədədir. ən-Nuri xəstəxanası hicrətin 1317-ci ilinə

qədər fəaliyyət göstərmişdir. Tikildiyindən bəri oradakı od hələ də sönməyib. Xəstəxananın şöhrəti olduqca böyükdür və şərqin ən önəmli tibb ocaqlarından biri hesab olunur.

Xəstəxanada insanların müayinə və müalicə olunmaları üçün hər cür şərait var idi. İndiyə qədər də həmin tikili ərəb və İslam aləminin ən önəmli tarixi əsərlərindən biri hesab olunur.

**əl-Bimarstan əl-Saləhi xəstəxanası:**

Sultan Səlahəddin Əyyubi Qüdsü, Məscid əl-Əqsanı və Fələstini xaçpərəstlərdən azad etdikdən sonra orada bu xəstəxananı inşa etdirmişdi. Həmin xəstəxana Qüdsə yenidən həyat bəxş etmişdi. Sultanın özü şəxsən ora nəzarət etmiş, lazımi dərman preporatları ilə təmin etmişdi. Həmçinin nəzəri və praktiki olaraq orada tibb elmi tədris olunurdu.

**Bimarstan Qaləvun (əl-Mənsuri xəstəxanası):**

Xəstəxananın digər bir adı da Qalavun xəstəxanasıdır. O, bəzi əmirlərin evi idi. Əmir əl-Mənsur Seyfəddin Qalavun hicri tarixi ilə 683-cü ildə (miladi tarixlə 1284-cü ildə) onu xəstəxanaya çevirmişdi. O, hər il oranın xərclərinin qarşılanması üçün min dirhəm ayırardı. Xəstəxanaya məscid, mədrəsə və yetimlər evi də əlavə olunmuşdu. Bu xəstəxana nizam-intizamına görə bir nümunə hesab olunurdu. Qadınlı kişili, kölə və azad, rəhbər və ya rəiyyət olmasından asılı olmayaraq hər kəs oraya daxil olaraq faydalana bilirdi. Orada sağalıb çıxan kəslərin xərcləri, habelə dünyasını dəyişmiş şəxslərin dəfn xərcləri xəstəxana tərəfindən ödənilirdi. İki nəfər hər bir xəstə üçün təxsis edilirdi və onlar lazımi yardımları göstərirdilər. Hətta deyilənə görə hər gün orada dörd minə yaxın xəstə müalicə ala bilirdi. Sağaldıqdan sonra isə ona lazımi miqdarda pul da verilirdi ki, özünü idarə edə bilsin.

Ola bilsin ki, biz nurada bizlərə tanış olmayan bir mövzu barədə danışırıq. Lakin sizləri bu əzəmətli işlərin təxəyyülünü yaşatmaq istəyirik. İslamda xəstəxanaların tarixi əsərinin müəllifi demişdir: "İnsan bu vəqflərin mahiyyətini anladıqda görür ki, o zaman xəstələrin bütün ehtiyacları qarşılanırdı. Onlara yeksək səviyyəli qida məhsulları, dava-dərmanlar nəfis qablarda təqdim olunurdu.Bununla belə

israfa yol verilmirdi və hər şeydən tələb olunan miqdarda istifadə olunurdu.

Hətta qeyd olunu ki, iki müsəlmana müxtəlif müamilələr edilir, onlardan birinə çüşidli şərablar, otlar, yağlar və icazə verilən digər ləvazimatlar təqdim olunur, digərinə isə yalnız onun xəstəliyinə uyğun qidalar verilirdi. Beləcə hər kəs onun üçün müəyyən olunmuş ləvazimatlardan istifadə edirdi.

O zamanın tələblərinə uyğun olan bir çox həkim, cərrah və mütəxəssislər məhz orada yetişmişdi. Onlar növbəli şəkildə öz işlərini icra edərək xəstələrin qayğısına qalırdılar. Onlar xəstələrin ehtiyacları olduğu məsələləri onlardan soruşur, onları lazımi dərman və qida məhsulları ilə təmin edirdilər. Gündəlik olaraq xəstə müsəlmanlar ora müraciət edərək lazımi qayğı ilə təmin olunurdurlar. Göz xəstələri isə xüsusi göz həkimləri ilə təmin olunurdu. Hətta sağaldıqdan sonra belə həmin həkimlər onlarla əlaqə saxlayaraq gözlərini müayinə edirdilər.

Xəstəxanada müalicəsini bitirən xəstələrə xüsusi geyim verilirdi. Həmin libas onun gündəlik olaraq istifadə etdiyi libaslardan fərqlənmirdi. Bu vəqfə sahib olan kəs Allahdan qorxaraq təqva sahibi olmalı idi. Həmçinin, burada heç kəs heç kəsdən üstün tutulmurdu. Hər kəsə bərabər gözlə baxlırdı.

Xəstəxanalar öz qapılarını hər kəsin üzünə açırdı və hamıya təmənnasız xidmətlər göstərilirdi. Kasıbla varlı, güclü ilə zəif arasında fərq qoyulmurdu. Xəstəxana iki qisimdən ibarət idi: Kişilər və qadınlar bölümü. Həkimlər növbəli şəkildə çalışırdılar. Hər bir həkimin öz iş vaxtı var idi. Orada çalışan həkim və tibb bacıları üçün xüsusi maaş təyin olunmuşdu. Xəstəxanaların tərkibində əczaxanalar da var idi. Həmçinin, mühazirələr üçün nəzərdə tutulmuş böyük otaq adlanan zallar da var idi. On əsrdən çoxdur ki, məşriqdən məğribə islam dünyasının bütün xəstəxanalarında, o cümlədən Dəməşqdə, Bağdadda, Qahirədə, Qüdsdə, Məkkədə, Mədinədə, Mərakeşdə və Əndülüsdə xətəxanalar bu cür fəaliyyət göstərmişdir.

**Mərakeş xəstəxanası:**

Bu xəstəxana Mərakeşin ən məşhur xəstəxanalarından biridir və o, Mənsur Əbu Yusuf tərəfindən inşa edilmişdir. Əvvəlcə ona gözəl

bir məkan seçmiş, ətrafında ağaclar əkdirmiş ki, xəstələr pəncərələrdən baxdıqda gözəl mənzərələr, bostandakı məhsulları görsünlər. Xəstəxananın döşəməsi ağ mərmərdən salınmışdır. Varlı və ya kasıb olmasından asılı olmayaraq hər kəs ondan yararlana bilirdi.

Meydana belə bir sual çıxır: Müsəlman ölkələrində səhiyyə sahəsi bu qədər mütərəqqi olduğu dönəmlərdə Avdopa ölkələrində səhiyyənin durumu nə yerdə idi? Məgər onlar o zaman müsəlman xəstəxanalarının gözəlliyindən və təmizliyindən bəhrələnmirdilərmi?

**Avropadakı xəstəxanaların o zamankı halı:**

Alman şərqşünası Maks Mayrhof o zaman Avropada olan xəstəxanaları vəsf edərək demişdir: "Ərəb dünyasındakı o zamankı xəstəxanalar bizlər üçün örnək sayılırdı. Avropada həmin vaxt mövcud olan xəstəxanaları İslam aləmindəkilərlə müqayisə etdikdə onların nə qədər mütərəqqi olduğunu anlamış oluruq."

Həmçinin Doktor Mustafa Sibayi öz "Mədəniyyətimizin özəllikləri" adlı əsərində demişdir: "On səkkizinci əsrədək (1710-cu il) Avropada xəstələr öz evlərində müalicə olunurdular. O zamanadək xəstəxanalar evsizlər üçün bir sığınacaq hesab olunurdu. Müsəlmanlar bu məsələləri qərblilərdən doqquz əsr öncə nizama salmışdılar. Müsəlman xəstəxanalarında təqdim olunan xidmətlər bu günədək qərb xəstəxanalarında mövcud deyildir."

**Doktor Süleyman Casir əl-Casirin əl-Vaqfus-sihhi anvauhu vastisməratuhu əsəri (01 : 25 : 42)**

**Doktor Süleyman Casir əl-Casirin Keyfə tuəssisu vaqfən muməyyəzən əsəri (37 : 21)**

## Dostumuz təsbeh xəstə və onların yaxınlarının yanında

Gərək xəstə və onun yaxınları Allahın qapısını daim, xüsusən də gecənin son üçdə birində döyərək Ondan şəfa diləsinlər. Hər kəs Allahın hüzurunda zəlilcəsinə dayanaraq Ondan yardım diləməlidir. Bunun üçün o, çoxlu dualar etməli, qibləyə tərəf yönələrək Allaha həmd sənalar etməli, Peyğəmbərə ﷺ isə salavat deməlidir. Duaya icabət olunmasına isə tələsməməlidir. Şübhəsiz ki, O, Eşidəndir, Dualara cavab verəndir.

**Xəstə və onun yaxınlarının ən gözəl dostu: təsbeh**

Müsəlmanın təsbeh vasitəsi ilə zikr etməsində də bir qəbahət yoxdur. Bura müasir dövrümüzdə istifadə olunan elektron təsbehlər də aiddir.

Şeyxul-İslam ibn Teymiyyə demişdir: "Əllə zikr etmək sünnədir, daşlar vasitəsi ilə zikr etmək isə olar. Səhabələrdən də belə edən olub. Bir dəfə Peyğəmbər ﷺ Möminlərin anası Aişəni daşlarla zikr edərkən görür və bir söz demir. Həmçinin, Əbu Hureyrənin ؓ də daşla zikr etdiyi nəql olunmuşdur. İplə olan təsbehlərə gəlincə isə bəziləri bunun bəyənməmiş, digərləri isə bəyənmişdir. Əgər niyyətin düzgündürsə bunda bir problem yoxdur. Ehtiyacı olmadan təsbeh götürmək, özünü insanlara göstərmək, təsbehi boyundan və ya qoldan asmaq və ya taxmaq kimi əməllər isə riyakarlıq və riyakarlara bənzəmək hesab olunur ki, bunun da birincisi haram, ikincisi isə məkruhdur."[5]

Təsbehdən istifadə etmək zikrlərin nizamla olunmasına yardım edir ki, subhanallah, əlhəmdulilləh, allahu əkbər, lə iləhə illəllah kimi zikrlər doğru nizamda olunsun. Allahız ikr edən kəs onun vasitəsilə daha çox zikr edə bilir.

**Allahdan bağışlanma diləməyin fəziləti:**

Hər birimiz istiğfarın mənasını və bunu etməyin fəzilətini anlayır. Hər birimizin, xüsusən də xəstələrin buna ehtiyacı var ki, Allahın bu imtahanından yaxa qurtara bilsin. Uca Allah buyurur: **"Ey qövmüm! Rəbbinizdən bağışlanma diləyin, sonra da Ona tövbə edin ki, göy-**

[5] Məcmu əl-Fətavə, 22/502.

**dən sizə bolluca yağış yağdırsın və gücünüzü daha da artırsın. Günahkarcasına üz çevirməyin."[6]**

Peyğəmbər ﷺ hər zaman davamlı şəkildə istiğfar etməyi buyuraraq demişdir: "Ey insanlar, Allahdan bağışlanma diləyərək, Ona tövbə edin, mən gün ərzində yüz dəfə Allahdan bağışlanma diləyərək, Ona tövbə edirəm."

Həmçinin Peyğəmbər ﷺ demişdir: "Əməl dəftərində çoxlu istiğfarı olan kəsə Tuba olsun."[7]

İbn Əbu Talhə demişdir: Tuba, Yəni onlara halal olsun. İbn Abbas isə belə demişdir: gözləri sevinsin. İkrimə demişdir: "Onlar özlərinə veriləcək nemətlərə layiqdirlər. Dahhək demişdir: Onlara qiptə olunacaqdır. İbrahim ən-Nəxai demişdir: Bu onların xeyrinədir.

Qatədə demişdir: Tuba ərəb sözüdür və mənası xeyirə nail olmaqdır. Başqa bir rəvayətdə deyilir: Tuba yəni nemətlər. Əli İbn Əbu Talib ؓ demişdir: Nicata çatmaq imkanı ola-ola həlak olanların halı necə də qəribədir. Soruşdular ki; nədir həmin imkan? O, dedi: "Tuba, bu cənnətdə olan bir ağacdır, uzunluğu yüz illik məsafə qədərdir. Cənnət əhlinin libasları qollarından çıxacaqdır."

Hər birimizə məlumdur ki, şeytanlar insanlara və xəstələrə əsla xeyir istəmirlər. Şeytan insanı yoldan çıxararaq onun fikrini və ağlını doğru saxlaya biləcək hər bir əməldən uzaqlaşdırır. Həmçinin, şeytanlar müxtəllif üsullarla insanları ruqyadan, duadan, zikrdən, istiğfardan uzaqlaşdırmağa çalışırlar ki, Uca və Nöqsansız Allah tərəfindən əcr və savaba nail olunlar.

Bütün bu qeyd olunanlar bizlərin zikr və istiğfar sayəsində nə qədər böyük əcr və savaba nail ola bildiyimizi anlamağımız üçündür.

Ümumiyyətlə xəstənin həyatı müxtəlif təsirlər altında olur ki, onların da bəziləri pozitiv, digərləri isə neqativ ola bilər. İnsan Allaha tərəf yönələrək Rəbbini zikr edərək, Ondan əfv olunmasını dilədikdə özündə bir təskinlik və rahatlıq tapmış olur. Fikrimizcə də elektron təsbeh də xəstənin Allahı hər vaxt yada salaraq zikr etməsi üçün əvəzolunmaz bir hadisədir. Bununla onun günahları da kəffarə olur və şübhəsiz ki, qəlblər zikr etməklə rahat olur. Əlində onu tut-

---

[6] Hud, 52.

[7] İbn Macə, 3818.

duğu zaman hər toxunuşda zikr etmək xəstənin yadına düşür. Beləcə insanın qəlbi zikr etməklə Rəbbinə bağlı qalır. Bununla da o, ya xəstəliyindən şəfa tapmış olur, ya da ki öz axirəti üçün bolluca savab və əcr.

Mərhum Abdullahın halı da belə idi. O, səbir edir, Allahın qəza və qədərindən razı qalır, Allahdan əfv, cənnət, xəstəliyinə görə mükafat və savab əldə etməsini diləyirdi.

Mərhəmətli və Rəhimli olan Allah sənə rəhmət eləsin, Həmd evində görüşənədək.

## Vəsvəsə verən şeytanın dəf olunması ([8])

İnsana və ya onun yaxınlarından birinə hər hansı bir xəstəlik üz verdikdə ən böyük imtahanlardan biri də şeytanın vəsvəsələr edərək onun qəza və qədərdən narazı olmasını aşılaması, habelə onu ümidsizliyə düçar etməsidir.

İmam İzz ibn Abdussalam öz təfsirində ən-Nas surəsindəki vəsvəsə verən şeytandan bəhs edərkən demişdir ki, vəsvəsə insanın özü ilə danışmasıdır. Buna görə insan günah qazanmır, çünki şeytan hər an insanın ürəyinə vəsvəsə verməyə çalışır. Allahı zikr etdikdə isə şeytan qaçıb gizlənir. Çünki Nəcm surəsində də qeyd olunduğu kimi xannəs gizlənən deməkdir. **"And olsun gizlənən ulduzlara."**[9]

Buna görə də Rəbbimiz bizə vəsvəsə verən şeytandan Allaha sığınmağı buyurur: **"De: "Ey Rəbbim! Şeytanların vəsvəsələrindən Sənə sığınıram! Onların mənə yaxınlaşmalarından Sənə sığınıram, ey Rəbbim!"**[10]

Bəzən şeytan gəlib insana vəsvəsə verir ki; Niyə başqası deyil məhz sən bu xəstəliyə tutulmusan? Niyə sənin gözlərinin işığı olan övladının başına bu bəla gəlib? Sən və ya övladın Allaha qarşı nə etmisən ki?

Belə olduğu təqdirdə gərək şeytanın qapısını bağlayaraq çoxlu Quran oxuyasan. Həmçinin, Peyğəmbəri ﷺ təqlid edəsən. Onun azyaşlı övladları öldüyü zaman onun imanı azalmamışdı. Onun sadəcə gözləri yaşarmış, qəlbi isə kədərlənmişdi. Allahı qəzəbləndirəcək bir söz dilə gətirməmişdi. Bu barədə məşhur hədislərdə qeyd olunur.

Odur ki, ey başına bəla gəlmiş qardaşım unutma ki, İbrahim peyğəmbər sənin bəlandan da böyük bəlalara düçar olmuşdu. Baxmayaraq ki, özü Allahın dostu və peyğəmbəri idi. Allah ona əmr etmişdi ki, oğlunu qurban kəssin. O, isə dərhal Allahın əmrini tərəddüd etmədən yerinə yetirməyə təşəbbüs göstərmişdi. Halbuki oğul Allahın ona bəxş etdiyi əvəzsiz bir nemət idi. Lakin o, nə sənin, nə də ki onun mülkü deyildi. Onun canı Allahın əlində idi.

---

[8] Bu məqalə, 20.12.2015 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[9] ət-Təkvir, 15.

[10] əl-Muminun, 97-98.

Bu mənaları düşünərək şeytanın vəsvəsələrinə qarşı mübarizə aparmaq lazımdır. Çünki onun məqsədi insanı Cəhənnəmə aparmaqdır. Allah qorusun!

Sən isə onun vəsvəsələrinin əksini etməlisən ki, sənin cəhənnəmə getməyəcəyindən əmin olsun. Bilsin ki, sən cənnətdə bir qəsr əldə etmək istəyindəsən. Bu da o zaman mümkündür ki, Allah görür ki, sən onu daim yad edərək Onun razılığını qazanmısan.

Allahım vəsvəsə verən şeytanı bizlərdən uzaqlaşdır, qəlblərimizi razı qaldığın əməllər üzərində sabit et, öldükyümüz zaman şəhadət kəlmələrini tələffüz etməyi bizlərə nəsib et.

## Şəriət elmi
## və onun xəstələri fitnə və vəsvəsələrdən qoruması

Uca Allah buyurur: **"Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə, onu yayarlar. Halbuki bunu Peyğəmbərə və özlərindən olan nüfuz sahiblərinə çatdırsaydılar, içərilərindən onun mahiyyətinə varan kəslər o xəbəri bilərdilər. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, az bir qisminiz istisna olmaqla, *hamınız* şeytana uyardınız."**[11]

Bu ayədə Uca Allah fitnələr və bəlalar baş verdiyi zaman elm əhlinə qayıtmağı buyurur. Şeytanın hava əhlinə, hədlərini aşanlara və xəvariclərə qarşı ən böyük fitnələrindən biri öz istəkləri ilə hərəkət etmələri və dini düzgün anlamamalarıdır. Onlar elm əhlinə müraciət etmirlər ki, onları doğru istiqamətə yönəltsinlər. Beləcə onlar zəlalətə düçar olurlar. Uca Allah buyurur: **"... nəfsin istəyinə uyma, yoxsa o səni Allahın yolundan azdırar."**[12]

**Şeytanın vəsvəsələri xəstənin Allaha iman gətirməkdə daha israrlı edir:**

Mömin olan kəs şeytanın vəsvəsələri ilə xüsusən də küfr vəsvəsələri ilə üzləşir və sinəsi daralır. Necə ki, səhabələr deyərdilər: "Ey Allahın Rəsulu, bəzən nəfsimizə elə sözlər gəlir ki, göydən yerə düşmüş olsaq həmin sözü deməyimizdən daha yaxşıdır." O, buyurdu: "Bu, imanın elə özüdür." Digər rəvayətdə isə: həmin fikirləri dəf etməsi- deyilir. O, dedi: "Şeytanın vəsvəsəsini dəf edən Allaha həmd olsun." Yəni bu çirkin fikirlərin və vəsvəsələrin dəf edilməsinin özü imandan hesab olunur. Sanki mücahidin üzərinə düşmən gəlir və o, düşməni dəf edib ona qalib gəlir. Bu da ən böyük cihad və səmimiyyətdir. Çünki insan həmin vəsvəsələrə qarşı nirət etdikdə onları dəf edir və xalis iman əldə etmiş olurlar.[13]

Nə qədər insan ibadətlərində və elmdə möhkəm olarsa, bir o qədər şeytana qalib gələ bilər. Çünki bu zaman onun gücü və iradəsi

---

[11] ən-Nisa, 86.

[12] Sad, 26.

[13] İbn Teymiyyənin Məcmu əl-fətava əsəri (7/282).

daha güclü olur. Beləcə o, şeytandan uzaqlaşır. Əgər vəsvəsələr ona qalib gələrsə o, böyük bir fitnəyə düşmüş olar.

Xəstə olan insan cisminin ən zəif halında olduğu üçün onun mənəvi cəhətdən zəifləməsi də təbiidir. Bu zaman şeytan ona vəsvəsə verərək həmin xəstəlikdən yaxa qurtarmaqğın qondarma yollarını təklif edir. Həmin təkliflər də təbii ki, İslamın buyurduğu təlimatlara müxalif olur. Həmçinin, ona Allahın qədərinə narazılıq bildirməyi təklif edir. Bütün bu fikirlərin əsası şeytandandır. Bununla o, insanın qəm-qüssə içərisində olmasını istəyir.

Məlum məsələdir ki, şeytan insanın əzəli düşmənidir və o, Adəmi və onun zürriyyətini yollarından azdıracağı barədə xəbər vermişdir. Deməli o, əlindən gələni edəcək ki, insanları hidayət yolundan yayındıra bilsin. Bəs görəsən o, bununla kifayətlənəcəkmi? Vallahi ki, xeyr. Çünki onun ədavəti həsəd və nifrət üzərində qurulmuşdur. Uca Allah buyurur: **"(İblis dedi): Palçıqdan yaratdığın birinəmi səcdə edim?"**[14]

Deməli bu düşmənçiliyin tarixi çox qədimdir və məqsəd bəllidir. Şeytanların da insanları yoldan çıxarmaları üçün öz üslubları vardır.

Şeytanın insanın iradəsini zəiflətdiyi üsullardan bəziləri aşağıdakılardır:

- Namazı tərk etmək, ona səhlənkar yanaşmaq və Allahı zikr etməmək.
- Vəsvəsə verərək insanın öz-özünə danışdırmaq.
- Gecələr oyaq qalmaq və qorxulu yuxular görmək.
- Xəstənin müalicəsinə fayda olan qidalardan imtina etməsi.
- Nəfsən və cismən yorğunluq.
- Tədricən günahlar etmək.
- Allahın mərhəmətindən ümidini üzmək.
- Sehrbazlara və falçılara üz tutmaq.
- Münkər əməlin gözəl görsənməsi, xəstənin zəlalətə düçar olması və Allahla bağlılığının azalması.

---

[14] əl-İsra, 61.

Bəzi xəstələrə şeytan bu yöndən yaxınlaşaraq onları nəfsi cəhətdən zəiflətməyə çalışırlar. Bu minvalla onlar imanlarını itirərək şeytana məğlub olurlar. İnsanlardan bəziləri şeytanın çağırışına cavab verir, digərləri isə buna qarşı çıxır. Allah dilədiyi kəsi bu vəsvəsələrdən qoruyur. Allah bizləri gizlində və aşkarda olan bütün fitnələrdən qorusun.

Həqiqi müsəlman iradəli olmalı və vilməlidir ki, Allahın iradəsi sehrbazların və falçıların əməllərinin fövqündə durur. Uca Allah buyurur: **"Allah istəmədikcə sizlər istəyə bilməzsiniz. Şübhəsiz ki, Allah Biləndir Hikmət Sahibidir."** [15] Gərək müsəlman şeytana uymamağın və ona təslim olmamağın yollarını axtarsın və başına iş gəlməsini gözləməsin. Xəstənin yaxınları da bəzi məsələlərə diqqət verməklə ona yardımçı ola bilərlər.

Çoxlu subhanallah, əlhəmdulilləh, əstəğfirullah deməklə vəsvəsələri aradan qaldırmaq.

Təqvalı olmaq və itaətləri artırmaq, habelə asiliklərdən çəkinmək. Uca Allah buyurur: **"Kim Allahdan qorxarsa Allah onun üçün bir çıxış yolu tapar."**[16] Həmçinin buyurur: **"Kim Allahdan qorxarsa Allah onun işlərini asanlaşdırar."**[17]

İbn əl-Qeyyim ﷺ Tibbun-nəbəvi kitabında buyurur: "Xəstəni ən çox müalicə edən cəhətlərdən biri də yaxşı işlər görmək, sədəqə vermək, zikr etmək, dua etmək, Allaha yalvarmaq, Allaha yönəlmək, tövbə etməkdir. Bu sadalananlar xəstəlikləri dəf edə bilir. Hətta dərmanlardan daha böyük şəfaya səbəb olur. Lakin bu insanın bunları qəbul edərək əməl etməsinə görə dəyişir."

Odur ki, ey xəstə qardaş bu məqamda sənə nəsihətim bunlardır:

- Şeytan sənə vəsvəsələr etdiyi zaan ona qarşı mübarizə apar.
- Sehr və ya cin barədə düşünmə, Quran oxumaqla, mühazirələr dinləməklə, zikr məclisləri ilə və qohumluq əlaqələrini möhkəmləndirməklə məşğul ol. Həmçinin faydalı kitablar oxu.

---

[15] əl-İnsan, 30.

[16] ət-Talaq, 2.

[17] ət-Talaq, 4.

- Şeytanların təhdidinin qarşısında cəsarətlə dayanmaq. Bu da yalnız səbir, nəfsi cihad və məsələlərə hikmətlə qiymət verməklə olur.

Bəzi xəstələr elə düşünürlər ki, filan şeyx onlara ruqya etməsə sağalmayacaq. Beləcə onun qəlbi zəif bir insana bağlanmış olur. Belələri gərək Allaha tövbə etsinlər və Onun barəsində yaxşı güman etsinlər. Şəfa verən Allahdır. Bəlanı göndərən Odursa, onu istədiyi vaxt dəf edə bilən də Odur. Heç bir şeyx Allahın izni olmadan heç kəsi müalicə edə bilməz. Uca Allah Qurani kərimdə buyurur: **"Quranı möminlər üçün şəfa və rəhmət olaraq göndərən Odur."**[18] O qədər eşitmişik ki, xəstələrə şəfa verən filan şeyx sonradan özü xəstəliklərdən əziyyət çəkərək xəstəxanaya yerləşdirilib. Əgər şəfa onun əlində olsaydı birinci elə özünə şəfa verərdi. Bu o demək deyil ki, ruqyadan ümumiyyətlə imtina etmək lazımdır. Möminlərin anası Aişə də Peyğəmbərə ﷺ ruqya oxuyardı. Bəzi hallarda əməlisaleh və təcrübəli insanların dua etməsindən yararlanmaq olar.

Muaz ibn Cəbəldən ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Canavar qoyunun üzərində olduğu kimi insanın da üzərində şeytan canavar kimi durur. Qarşısına çıxan hər qoyunu götürməyə çalışar. Odur ki, camaatla birlikdə olun. Camaatla, kütlə ilə birlikdə olun və məscidlərdən ayrılmayın."[19]

Təbii ki, bu cür önəmli mövzunnu bir neçə səhifəyə sığışdırmaq mümkün deyil. Lakin şəri elmə malik hər kəs öz Rəbbinə tərəf səy göstərməlidir ki, xəstəliyinə qalib gələ bilsin, bu bəlaya qalib gəlməsi üçün ona səbir versin, o da Allahın qəza və qədərindən razı qalsın. Beləcə o, dinini itirməsin, şeytana uyaraq doğru yoldan sapmasın və dinini itirməsin. Əksinə, Allahın ona vəd etdiyi böyük əcri əldə etmiş olsun.

Allaha həmd və şükürlər olsun ki, bizlərə bəxş etdiyi övladımız Onun qəza və qədərindən narazı deyildi. Bütün vasitələrdən istifadə edərək çalışırdı ki, müalicə olunsun. O, Allahın rəhmətindən əsla ümidini üzməzdi. Əminliklə bilirdi ki, şəfa Allahın əlindədir və

---

[18] əl-İsra, 82.

[19] Əhməd (22107).

Onun izni olmadan şeytan insanı yolundan azdıra bilməz. Əksinə, buna səbir etməklə insan böyük savablara nail olur.

Allahım, onu qəbul et və ona Firdovs cənnətlərini nəsib et. Ona Peyğəmbərin ﷺ əlindən Kövsər bulağından su içməyi nəsib et. Şübhəsiz ki, həmin sudan içən bir daha əsla susamayacaqdır. Bizlərə də müsibətimizə görə əcr ver ki, onunla həmd evində görüşə bilək.

**Doktor Ömər Abdulkafinin ər-Rida bil-qadai val qadər əsəri (4 : 55)**

**Şeyx Salih əl-Məğamisinin Fəidətun-nəfs əl-Mutməinnəh əsəri (4 : 53)**

## Həqiqi doğuşun xəbəri ... telefon risaləsində ([20])

Bu məktubun mənim üçün özəlliyi vardır, çünki mən oğlumun vəfat xəbərini yeni həyata doğulması hesab edirəm. Allahın mərhəməti ilə də o, həmd diyarı ilə bitəcəkdir.

Məsələ 2014-cü il sentyabr ayının iyirmi yeddisi səhər tezdən baş vermişdi. Həmin vaxt oğlum Abdullahın pak ruhu bədənini tərk etmişdi.

Mən və onun ailə üzvləri səhərə qədər onunla birlikdə oyaq qaldıq. Onun ruhu bədənindən çıxdıqda sanki bizim də ruhumuz bədənimizdən çıxdı. Hər bir halda Allaha şükürlər olsun.

O, vəfat etdikdə mən ailə üzvlərimdən xahiş etdim ki, onun vəfatı ilə bağlı onun məqamına layiq bir məktub yazacağam və onu bitirməyənədək heç kəsə xəbər verməyəcəyəm. Həmin məktub digər məktublara bənzəmirdi, çünki Abdullahın bizim qəlbimizdə özünəməxsus yeri var idi.

Təklikdə bir otağa çəkilib böyük qardaşım Nasirə məktubu yazdım ki, hər kəsə xəbər versin. Bilməzdim ki, bir neçə saat ərzində sosial şəbəkələr vasitəsi ilə xəbər bu qədər geniş yayıla bilər. Bu da onun xüsusiyyətlərindən biridir.

İndi həmin məktubun mətnini sizlərə təqdim edəcəyəm:

"Oğlum Abdullahın vasitəsilə bizlərə Cənnətdə həmd evi inşa edən Allaha həmd olsun. Bunu Uca Allah Peyğəmbərinin ﷺ dili ilə bizlərə vəd etmişdir.

Əbu Sinandan rəvayət olunur ki, o demişdir: Mən oğlum Sinanı dəfn etdikdə Əbu Talhə əl-Xəulani məzarın yanında əyləşmişdi. Mən oradan çıxmaq istədikdə o, mənə dedi: "Sənə müjdə verimmi, ey Əbu Sinan?" Mən: "bəli" – deyə cavab verdim. O, dedi: Dahhək mənə demişdir ki, Abdurrahmən Əbu Musa əl-Əşarinin ؓ belə dediyini rəvayət etmişdir: "Mən Rəsusulullahın ﷺ belə dediyini eşitmişəm: "Bir adamın uşağı öldükdə Allah mələklərindən soruşur: "Qulumun uşağınımı aldınız?" Onlar: "Bəli"– deyə cavab verirlər. Allah soruşur: "Qulumun ürəyinin meyvəsinimi aldınız?" Onlar: "Bəli"– deyə

[20] Bu məqalə, 06.12.2015 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

cavab verirlər. Sonra Allah soruşur: "Qulum nə dedi?" Onlar: "Sənə həmd və istirca[21] etdi"– deyə cavab verirlər. Onda Allah buyurur: "Quluma Cənnətdə bir ev tikin və adını da "Həmd evi" qoyun!"[22]

Mən yəqinliklə deyə bilərəm ki, Rəbbim mənə və onun anası Ummu Abdulaha, həmçinin Abdullahı üçün dualar etmiş bütün yaxınlarına və dostlarına öz vədi və mərhəməti ilə həmd evini nəsib edəcəkdir və biz onlarla orada görüşərək keçmiş xatirələrimizi bölüşəcəyik.

Az öncə bütün buları Allah bizlərə nəsib etdi. Bu Zil-hiccə ayının üçüncü şənbə günü Küveyt vaxtı ilə axşam saat beş radələrində baş verdi.

Həmçinin, bildirmək istəyirəm ki, Abdullahın xəstəlikdən müalicə dönəmi də olduqca asan keçdi. Onun xasiyyətinə hər biriniz bələddir deyə bu barədə danışmaq istəmirəm. Onun halı Allahın izni ilə günahlarının kəffarə olunmasına və dərəcələrinin artmasına səbəb olacaqdır. Şübhəsiz ki, Allah Rəhmlilərin Rəhmlisidir.

Aləmlərin Rəbbinə həmd olsun.

Hər bir halda Allaha həmd olsun.

Pis bir şeyə görə həmd olunan yalnız Allahdır.

Həqiqətən də biz Allahdanıq, dönüşümüz də Onadır.

---

[21] Yəni "innə lilləhi va innə ileyhi raciun/həqiqətən, biz, Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq!"- demək.

[22] Sunən ət-Tirmizi 1021.

## Övlad üçün dua edən əməlisaleh valideyn! ([23])

Ola bilsin ki, ilk öncə ünvan oxucunu çaşdırmış olsun və elə düşünsün ki, ünvan səhv yazılıb və valideyn sözü ilə övlad sözünün yeri dəyişik düşüb. Lakin həqiqət heç də belə deyil. Mən bu ünvanı məqsədyönlü şəkildə yazmışam və səbəbi də aşağıdakılardır:

Sevimli övladım Abdullah dünyasını dəyişdikdən sonra düşündüm ki, ona görəsən necə yaxşılıq edə bilərəm. Hər dəfə oturub bu barədə düşündükdə Peyğəmbərin ﷺ aşağıdakı hədisini xatırlayırdım: "Adəm övladı öldükdə onun bütün əməlləri dayanır. Yalnız üç şeydən başqa: davamlı sədəqə, faydalı elm, bir də onun üçün dua edən əməlisaleh övlad."[24]

Öz-özümə deyirdim ki, subhanallah, görəsən övladını itirmiş valideyin necə? O da buna aiddirmi? Görəsən o da övladı üçün nə isə yaxşılıqlar edə bilərmi?

Şübhəsiz ki, Allah Mərhəmətli, Rəhmli və Adildir. İnana bilmərəm ki, Uca Allah övladını itirmiş valideyin üçün bir şans buraxmayıb ki, öz övladının yerinə müəyyən yaxşı işlər görə bilsin. Əsas məqsəd övladın acısını azaltmaq, onun savabını artırmaqdır ki, övladın valideyni üçün etdiyi dualarda da məqsəd eynidir.

Necə ki, Uca Allah rəsullarını göndərməklə yer üzərindəki ədalətin bərqərar olmasını istəyib. Uca Allah buyurur: "**Biz elçilərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə Kitab və tərəzi nazil etdik ki, insanlar ədalətli olsunlar.**"[25] Dua etməkdə isə valideyinlə övladı bir-birindən fərqləndirmək isə ədalətdən deyil. Odur ki, övladı üçün dua edən valideyinin də əməlinin keçərli olması bəlli olur.

Həmçinin, övladımın dostları vaxtaşırı mənə zənglər edirdilər və mən onlara yaxşılıqlar etmək istəyirdim. Onlarla birlikdə oturub söhbət etmək ürəyimdən keçirdi. Çünki Peyğəmbər ﷺ demişdir: "Valideyinə qarşı yaxşı əməllərdən biri də onun ölümündən sonra onun yaxınlarına yaxşılıq etməkdir."[26] Həmçinin, səhabə Malik ibn Rabiə əs-Saidi ﵁ rəvayət edərək demişdir: "Bir dəfə biz Peyğəmbərin ﷺ ya-

[23] Bu məqalə, 14.12.2014 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.
[24] Muslim (1631).
[25] əl-Hədid, 25.
[26] Muslim (2552). Ədəbul-mufrad (3664).

nında oturmuş ikən Sələmə oğullarından bir nəfər onun yanına gəlib dedi: "Ey Allahın Rəsulu, valideyinlərim vəfat etdikdən sonra onlara yaxşılıq edə bilərəmmi?" Dedi "Bəli, onlara (cənazə) namazı qılmaq, onlar üçün bağışlanma diləmək, vəfat etdikdən sonra onlara verdiyin əhdi yerinə yetirməyin, qohumlarıı ziyarət etməyin və dostlarına qarşı səxavətli olmağın."[27]

Bəs görəsən övladını itirmiş valideyin onun dostlarına və yaxınlarına yaxşılıq etsələr necə?

Mən bu suala cavablar axtardım ki, rahatlıq tapım. Gördüm ki, İslam dini rəhmət dinidir. Gördüm ki, elə müjdələr vardır ki, valideyini övladına qarşı biçarə qoymur. Həmin müjdələrdən bəziləri aşağıdakılardır:

1. Valideyinin övladı üçün etdiyi dua həm o, sağ ikən, həm də öldükdən sonra müstəcəbdir. Belə ki, Peyğəmbər demişdir: "Üç növ duanın qəbul olunmasında şəkk-şübhə yoxdur: məzlumun duası, müsafirin duası və valideyinin övladı üçün etdiyi dua."[28]

Burada valideyinin nə zaman övladı üçün dua etməsi qeyd olunmur. Demək sağ ikən dua edə bilirsə, ölümündən sonra hüznü halda ürəkdən dua etməsi daha önəmlidir. Valideyin ağlayaraq müti bir qəlblə övladının əfv olunmasını diləyir. Dua edir ki, Rəbbi onu Cənnətə daxil etsin, dünyada evlənə bilməsə belə orada hurilərlə evlənsin.

2. Ölüyə yalnız valideyninin duası deyil, bütün müsəlmanların duaları fayda verə bilir. Bütün müsəlmanlar üçün dua etmək xüsusunda Uca Allah buyurur: ***"Səhabələrdən* sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"**[29]

Əməlisaleh övlad məfhumu isə həm oğula aiddir həm də ki qıza. Valideyinlərindən və ya qohumlarından birini itirmiş hər kəs buna aid ola bilər. Böyük alim Şeyx Abdullah ibn Bəzz ﷀ demişdir ki, dünyasını dəyişmiş valideyinə övladın, həmçinin müsəlmanların etdikləri dua kömək ola bilər. Dostları və qardaşları onun üçün dua edərək onun adından sədəqə versələr ona faydalı olar.

---

[27] Əbu Davud (5142), Əhməd (3664).

[28] Əbu Davud (1536), Albani hədisi səhih hesab etmişdir (596).

[29] əl-Həşr, 10.

Baxmayaraq ki, hədisdə əməlisaleh övladın dualarının qəbul olunması qeyd olunsa da bütün müsəlmanların dualarının da ölü üçün faydalı olduğu aydın olur. İmam Subki bunu açıqlayaraq demişdir: "Burada hər bir müsəlmanın duası faydalı olduğu halda övlad ona görə xüsusi ilə qeyd olunub ki, çox dua etsin." Yəni burada məqsəd övladları valideyinlər üçün dua etməyə təşviq etməkdir. Çünki ən çox dua etməli olan kəs övladdır.[30]

4) İnsanın öz insan qardaşına dua etməsi dinin buyurduğu tələblərdəndir. Dəlillərin mənalarını dərindən öyrənmədən onların zahiri ilə kifayətlənmək olmaz. Dəlillər bir-birilərini açıqlayaraq tamamlayırlar. Misal üçün İmam Muslimin aşağıdakı hədisini oxuduqda: "İnsanın öz atasının yaxınları ilə əlaqə yaratması ən yaxşı əməllərdən sayılır." Burada yalnız övladın nəzərdə tutulduğunu anlamamalıyıq. Dəlil də odur ki, insanın həyat yoldaşı öldükdən sonra onun yaxınları ilə də əlaqə saxlamalıdır. Necə ki, Peyğəmbər ﷺ həyat yoldaşı Xədicənin rəfiqələri ilə onun ölümündən sonra da əlaqə saxlayar, onlara qarşı səxavətlə davranardı. Aişədən nəql olunan hədisdə o demişdir: "Mən Xədicə qədər Peyğəmbərin heç bir qadınını qısqanmazdım. Halbuki mən heç onu görməmişdim. Lakin o, Xədicəni çox xatırlayardı. Bəzən o, qoyun kəsər, onu bölüb Xədicənin Rəfiqələrinə göndərərdi. Mən ona belə deyərdim: Sanki bu dünyada Xədicədən başqa qadın yoxdur. O isə belə cavab verərdi: "O, belə idi, belə idi."[31]

Əgər insanın öz yoldaşının yaxınları ilə belə davranması buyurulubsa atanın öz övladının dostlarına yaxşılıq etməsi daha önəmlidir. Deməli bu qapı hər kəs üçün açıqdır. Valideyin yaş fərqinə baxmayaraq oğlunun dostları ilə otura bilər. Bu zaman mərhum barədə xoş xatirələr yad olunur və lazım olan kəssə yardım oluna bilər.

5) Valideyinin öz övladına dua etmək haqqı vardır. Hər kimin övladı özündən qabaq dünyasını dəyişərsə və o da buna səbir edərək çoxlu dualar edərsə Uca Allah ona Cənnətdə həmd evi inşa edər ki, bu barədə də biz artıq söhbət açmışıq.

İslam nemətinə görə Allaha şükürlər olsun: Övlada şəhidlik valideyinə isə Cənnətdə ev.

---

[30] ət-Tənvir şərhu əl-cami əs-səğir, 2-ci cild, 208-ci səhifə.

[31] Buxari, 3818, Tirmizi, 3875, Musnəd imam Əhməd, 26379.

## Sərvətin balansının kəşf edilməsi: Mən milyarderəm! ([32])

İnsanların maddi vəziyyətlərinə görə və banklardakı maliyyə ehtiyatlarına görə adətən onlar arasında fərq qoyulur. Hətta ABŞ-da nəşr olunan jurnallardan biri hər il dünyanın ən zəngin adamlarının adlarını və malik olduqları sərvətləri nəşr edir. Bu da insanların diqqətini cəlb edir.

Zəngin olmaq insanların əsas arzularından biridir. Çoxları istəyir ki, gözlərini yumub açsın və görsün ki, çoxlu xəzinə və qızıl tapıb. Hətta bəzi şirkətlər insanları şirnikdirmək üçün bəxt oyunları da təşkil edirlər.

Demək, bu insan təbiəti üçün yeni bir şey deyil. Peyğəmbər demişdir: "Adəm oğluna bir vadi qızılversən ikincisini də istəyər, Lakin onun ağzını yalnız torpaq doydurar. Allah tövbə edənlərin tövbəsini qəbul edəndir."[33]

Əksər insanlar məhz mal-dövlət səbəbindən bir-biriləri ilə çəkişirlər. Hətta bir çox müharibələrin səbəbi də maddi sərvətlər olur.

Mən oğlum Abdullah xəstələndikdə və daha sonra vəfat etdikdə özümü bəxt oyunun qalibi kimi hiss etdim. Lakin burada söhbət mal-dövətdən getmir. Minlərlə insanın sevgisini qazanmış oldum. Onlardan bir qismi oğluma dua edərək şəfa diləyir, bəziləri sədəqələr verir, onun yerinə həcc edir, mənə haqqı və səbiri tövsiyə edir, mənə Quran ayələri və hədslər göndərirdi ki, övladım şəfa tapsın.

Bəziləri isə xüsusi ilə mənim və ailə üzvlərim üçün dualar edirdilər. Halbuki onları əvvəldən tanımırdım. Onlar sadəcə mənim və ailəmin müsibəti barədə eşitmiş və dualar etmişdilər.

Məsələ məktubların göndərilməsi ilə bitmir. KİV vasitəsilə və sosial şəbəkələrlə oğlum Abdullahın xəstəliyi barədə məlumatlar dərc olunur, insanlardan dua etmələri xahiş olunurdu. Vəfatından sonra isə onun üçün rəhmət diləyirdilər. Bütün bunlar mənim xahişimlə edilmirdi. Hətta çox zaman mənim bundan heç xəbərim də olmurdu.

Aman Allah!

---

32 Bu məqalə, 15.02.2015 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

33 Buxari, 6436, Muslim, 1048.

Bu necə də böyük səadətdir ki, bu qədər çoxsaylı insan heç bir müqabil və ya təşəkkür ummadan səni sevsin. Əksinə, çoxları bilirlər ki, bu barədə sənin məlumatının olması mümkünsüzdür. Çünki həmin vaxt insan xəstənin və ya dünyasını dəyişmiş övladımın dərdində, dəfn və digər məsələlərlə məşğul oluram.

Uca və nöqsansız Allahdan diləyim odur ki, bütün bu əməllər səmimi və sidq ürəkdən olsun. Çünki din müamilədir. Bu ifadə bir sıra Quran ayələrinin və hədislərin mənalarını ehtiva edir. Misal üçün Uca Allah buyurur: **"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara *haqqını* verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız."**[34] Peyğəmbər ﷺ demişdir: "İnsanlarla gözəl əxlaqla davran."[35] Buna bənzər ayə və hədislər olduqca çoxdur.

Həmçinin, Allahdan diləyirəm ki, mənim savablarımı artırsın və məni Cənnət sakinlərindən etsin. Əbul-Əsvəd əd-Duəlidən rəvayət olunur ki, o demişdir: "Mən Mədinəyə gəldikdə orada xəstəlik yayılmışdı. Mən gəlib Ömər ibn əl-Xəttabın ﷺ yanında oturdum. O vaxt onun yanından cənazə keçirdi. O, cənazə sahibi barəsində yaxşı sözlər söylədi. Ömər dedi: Vacib oldu. Sonra başqa bir cənazə də apardılar. Ömər dedi: Vacib oldu. Üçüncə cənazə də keçdikdə Ömər yenə: Vacib soruşdu – dedi. Əbul-Əsvəd dedi: Ey möminlərin əmiri, nə vacib oldu? Peyğəmbər ﷺ demişdir: "Hər hansı bir müsəlman barədə dörd nəfər yaxşı fikir söyləyərsə, Allah onu Cənnətə daxil edər." Biz soruşduq: "Bəs üç nəfər olsa?" O dedi: "Üç nəfər olsa da." Biz soruşduq: "Bəs iki nəfər olsa?" O dedi: "İki nəfər olsa belə." Bir nəfər barədə isə biz soruşmadıq."[36]

Bütün bu müsibət vaxtı mənə bəlli oldu ki, nə qədər böyük sərvətə sahibəm. Bu da insanlar tərəfindən sevilmək sərvətidir. Bu da ki, ümidvaram ki, Allahın bizləri sevməsinin təzahürü olsun. Çünki Allah bir insanı sevdikdə insanların qəlbində ona qarşı sevgi yaradır.

---

[34] ən-Nəhl, 90.

[35] Musnəd imam Əhməd, 21354, Tirmizi, 1987.

[36] Buxari, 1368.

Hədislərin birində deyilir: “Allah bir insanı sevdikdə Cəbraili çağırıb deyər: Allah filankəsi sevir, sən də onu sevin. Cəbrail də onu sevər. Sonra səma əhlini cağırıb deyər: Allah filankəsi sevir, sən də onu sevin. Səma əhli də onu sevər. Sonra yer üzərində o, qəbul buyurular.”[37]

İnsanların birini qəlbən sevməsi insanların Rəbbinin də sevgisinin təzahürü ola bilər. Bu da sevginin ən üstünü, əbədi bir sərvətdir.

Odur ki, mən dünyada milyarderəm, ümudvaram ki, bu mənim axirətdə də varlı şəxslərdən olacağımın göstəricisi olsun.

Aləmlərin Rəbbi olan Allaha həmd olsun.

**Adəm övladı öldükdə üç əməldən savayı digər əməlləri dayandırılar.**

**Şeyx Muhəmməd Ratib ən-Nəblusi (18/14).**

[37] Buxari, 3209, Muslim, 2637.

## Qəbulun əlamətlərindən ([38])

Mərhəmət Uca Allahın əlindədir.

O, həmin mərhəmət barədə öz qullarını müjdələmişdir.

O, bütün məqxluqlara, o cümlədən insanlara və digər canlılara öz mərhəmətini şamil etmişdir.

Bu mərhəmət isə Allahın Rəhminin cüzi bir hissəsidir. İnsanlar, cinlər, heyvanlar və cansız əşyalar, bir sözlə hər şey.

Ola bilsin ki, Allah qəbul əlamətlərini Özünün razılığı ilə ifadə etmişdir.

Aşağıda bəzi qəbul əlamətlərini qeyd edəcəyik. Allaha həmd olsun ki, həmin əlamətlər oğlum Abdullahda təzahür etmişdi.

**Birinci: Sevimli insanların və yaxınların ona dua etməsi.**

Abdullah həm xəstə ikən, həm də onun vəfatından sonra onun üçün edilən çoxsaylı dualar mənim diqqətimi cəlb etmişdi. Bəlkə də bu təbii bir haldır ki, səni sevən yaxınların və dostların sənin üçün dualar edirlər. Diqqətimi cəlb edən onu tanımayan bir çoxlarının onun üçün dualar etməsidir. Sadəcə insanlar onu sevdikləri üçün dualar edirdilər. Çalışırdılar ki, Abdullahı şəxsən tanımasalar belə onun kədərinə həmşərik olsunlar. Onların məqsədi bununla əcr və savaba nail olmaq idi. Həmçinin bu onların əsilzadə insanlar olduğunun göstəricisi idi. Vəfatından sonra da sosial şəbəkələr vasitəsi ilə mənə və onun anasına saysız hesabsız məktublar daxil olmuşdur. Həmin adamları da biz tanımırıq. Sayca çox olduğu üçün onlara cavab vermək də çox çətindir. Digər tərəfdən axı biz xəstə ikən oğlumuzun müalicəsi, vəfatından sonra isə onun dəfn məsələləri ilə məşğul idik. Odur ki, yəqin ki, bizi üzrlü sayarlar.

Aləmlərin Rəbbi oln Allaha həmd olsun. Mərhəmətli və Rəhmli olan Allahdan diləyim odur ki, onları heç vaxt çarəsiz buraxmasın. Ola bilsin ki, onların arasından ixlaslı birinin duasına cavab verildi.

---

[38] Bu məqalə, 11, 12 və13-ü oktyabr 2015 tarixində “əl-Qəbəs” qəzetində dərc edilmişdir.

**İkinci: Onun üçün sədəqələr vermək.**

Allahın izni ilə Abdullah həm sağ ikən, həm də vəfatından sonra onun üçün faydalı ola biləcək əməllər etməyə müvəffəq olmuşdu.

Necə ki hədisi şərifdə buyururlur: "Xəstələrinizi sədəqələrlə müalicə edin."[39] Bu barədə biz əvvəlki məqalələrimizdə qeyd etmişdik.

Yəqin ki, əcr və savabın kamil olması üçün onların adlarını qeyd etmək münasib deyil. Lakin bunu bildirmək istəyirəm ki, ona sədəqə verənlərin sayı-jesabı yox idi. Lakin Allah öz əmrində qalib olandır.

Lakin nə qədər Allaha yaxınlaşmaq məqsədi ilə sədəqələr verilsə, belə Allahın qədərindən başqa heç bir iş həyata keçə bilməz. Ehtiyacı olan yoxsulların gözəl niyyət sərgiləmələri normaldır.

Sözsüz ki, bu sədəqələrin əcri Allahın yanındadır. Bildiyimiz kimi əməllər niyyətlərə görədir. Qəlbdən çıxan dua Allaha ibadətdir. Hədislərdə də qeyd olunduğu kimi ya həmin şəxsin duası qəbul olunur, dərəcələri qalxır, ya da günahları silinir.

**Üçüncü: Onun üçün səkkiz dəfə həcc etmək.**

Allahın lütüfü ilə Abdullah Zil-hiccə ayının 3-ü vəfat etmiş, cüssəsi ABŞ-dan nəql olunduqdan sonra zil-hiccə ayının yeddisi dəfn olunmuşdu. Gecikmənin səbəbi isə cüssənin nəqli ilə bağlı mövcud prosedurların yerinə yetirilməsi idi. Həmin vaxt insanlar həcc ziyarətində idilər. Həmin vaxt onlar o mübarək məkandan Abdullaha ən dəyərli hədiyyələrini bəxş edə bilmişdilər. Belə ki səkkiz nəfər onun yerinə həcc ziyarəti yerinə yetirmiş oldu. Bu barədə bizlər yalnız həcc ziyarətindən qayıtdıqdan sonra xəbər tutmuşdur. Hətta ola bilsin başqaları da həcc etmiş, lakin bu barədə bizə xəbər verməmişdir.

Həmin vaxt həcc ziyarətində olan bir sıra insanlar mənimlə əlaqə yaradaraq ziyarətdə olmaları səbəbindən dəfn mərasimində iştirak edə bilməyəcəkləri üçün üzrxahlıq etdilər. O zaman mən onlara təşəkkürümü bildirərək deyirdim ki, Allah sizə bərəkət versin, hansı daha faydalıdır? Sizin zil-hiccə ayının yeddisində burada Küveytdə Suleyxat məzarlığında etdiyiniz dua, yoxsa həmin ayın doqquzunda Ərəfat vadisində edəcəyiniz dua? Təbii ki, bunların arasında müqa-

[39] əl-Mocəm əl-Kəbir, 10196.

yisə aparmaq doğru deyil. Hətta bir çox hacılar geri döndükdən sonra mənə xəbər verdilər ki, qrupun bütün üzvləri Abdullah üçün dualar edirdilər.

Yəqin ki, onları buna vadar edən onların ləyaqətləri, vəfaları və sevgiləri idi. Onlar Abdullahı tanımasalar da bacılarının tək qardaşı olması, yenicə ali məktəbi bitirmiş gənc olması barədə məlumatlandırılmışdılar. Bu barədə uzun-uzadı danışmaq istəmirəm.

**Dördüncü: Allahın qəza və qədərinə razı olmaq.**

Sevimli oğlum Abdullah xəstə olduğu dönəmlərdə məqbul sayılan kəslərdən idi. Yəqin ki, bu məqbulluğun əlaməti di. O, bədəninin ən önəmli üzvlərindən birində xərçəng xəstəliyinin aşkarlandığını öyrəndikdə bunun Allahın qədəri olduğunu hesab etdi. Xəstəlik onun beynində aşkarlanmışdı. ABŞ xəstəxanalarında nə qədər səmimi olsalar belə o həkimlərin açıqlamalarını və sonluğu ilə bağlı ehtimalları öyrənirdi. O, reallığı olduğu kimi qəbul edir və buna qarşı çıxmırdı ki, bu da özü-özlüyündə məqbulluğun əlamətlərindən biridir. Daha doğrusunu Allah bilir. Hər bir halda Allaha şükürlər olsun.

**Beşinci: Müalicə və vəfatda böyük asanlıq.**

Onun müalicəsi ilə bağlı məsələlərin necə asanlıqla həll olunduğunu yaxşı xatırlayıram. O zaman biz xəstəlik tapıldıqdan cəmi bir həftə sonra San Fransisko Universitetinin xəstəxanasına müraciət etmişdik. Bir həftə olduqca qısa bir müddətdir. Küveytin həkim və mütəxəssisləri minlərlə xəstəxanalar içərisindən məhz bu xəstəxananı məsləhət görmüşdülər. Həmin xəstəxana beyinlə bağlı xəstəliklər barədə ixtisaslaşmışdı. Bu məsləhəti verərkən həmin həkimlər bilmirdilər ki, Abdullahın bacısı öz əri ilə birlikdə məhz həmin şəhərdə stomatologiya üzrə təhsil alırlar. Onlar həmin şəhərdə yaşayır və oraları yaxşı tanıyırdılar. Xülasə bizlər yaşayış üçün yer, nəqliyyat vasitəsi axtarmaqda çətinlik çəkmədik. Bundan daha önəmlisi onların tibbi sahədə təcrübəyə malik olmaları idi. Belə ki, həkimlərlə və Abdullahla əlaqə saxlayan digər şəxslərlə rahat ünsiyyətdə olmaq imkanını da əldə etmiş olduq.

Həmçinin o, xəstə olduğu müddətdə nə özü əziyyət çəkdi, nə də ki, başqalarına əziyyət verdi. Çünki bəzən buna bənzər xəstəliklər aylarla davam etmiş olur. Onun xəstəliyi ilə vəfatı isə cəmi beş həftə sürdü. Baxmayaraq ki, biz bu müddətin daha çox olacağı qənaətində idik.

Onun bütün işləri belə oldu, həttayaxınları ilə əlaqələri də nəzər cəlb edəcək qədər asan idi. Bütün bunların səbəbkarı da şəksiz ki, Nöqsansız olan Allah idi.

**Əməlin qəbul olunmasının əlamətləri**

**Şeyx Saleh əl-Məğamisi (1 : 22)**

**Qəbul olunma və çatma yolları**

**Şeyx Muhəmməd Ratib ən-Nablusi (14 : 01)**

## Gözəl sonluğa işarə edən yaxşı yuxular

İnsanın rahatlıq tapma səbəblərindən biri də bir sıra şəxslərin Abdullah barədə gözəl yuxular görməsi idi. Təfsilatı fərqli olsa belə bütün yuxular saleh yuxular idi. Bunu da fayda olsun deyə bu kitabda qeyd etmək istəyirəm.

Yuxular Allahın zini ilə insanın qəlbinə qoyulmuş görüntülərdir. Onlara da xeyirli və ziyanlı olmaqla iki qisim olur.

Peyğəmbər ﷺ yuxuda gördüyü bəzi şeyləri səhabələr danışar və onu açıqlayardı. O demişdir: "Məndən sonra peyğəmbərlikdən yalnız gözəl yuxu qalacaqdır."[40]

Başqa bir səhih hədisdə deyilir: "Qiyamət saatı yaxınlaşdıqda müsəlmanların yuxusu gerçək olacaqdır. Ən doğru danışanlarınız daha doğru yuxu görəcəklər. Şübhəsiz ki, müsəlmanın yuxusu peyğəmbərliyin qırx beşdə biridir. Yuxular üç cürdür: Allah tərəfindən müjdə olan gözəl yuxular. Şeytan tərəfindən olan pis yuxular. Bir də insanın özü ilə danışması ilə bağlı olan yuxular. Sizlərdən biriniz pis bir yuxu gördükdə onu heç kəsə danışmasın."[41]

Məlum olur ki, yaxşı yuxu sahibinin fəzilətindən hesab olunur. Çünki bu peyğəmbərliyin bir hissəsidir və qeybdən xəbər verir ki, bu da peyğəmbərlərin xüsusiyyətlərindəndir.

Deməli yaxşı yuxu insan üçün bir müjdədir və gerçəyə çevrilən yuxu ilə eyni deyil. Bunun da aşağıdakı səbəbləri vardır:

**Birinci:** Hədisdə bu yuxunun müjdələyən olduğu qeyd olunur. Bir çox alimlər də məhz bu fikirdədirlər ki, ola bilsin bu bir işarə və ya xəbərdarlıq olsun. Çünki xəbərdarlıq müjdənin əksidir. Buna əsasən də gözəl yuxunun heç də müjdələyən yuxu ilə eyni olmadığı bəlli olur. Beləki, xeyir müjdələyən yuxu pisliyin xəbərdarlığı da ola bilər.

**İkinci:** Peyğəmbər ﷺ demişdir: "Peyğəmbərlik müjdələrindən yalnız müsəlmanın gördüyü saleh yuxular qalmışdır."[42]

---

[40] Əbu Davud, 5017.

[41] Muslim, 2263.

[42] Muslim, 479.

**Üçüncü:** Kafir olan kəsin gördüyü yuxu da gerçəyə çevrilə bilər. Quran və hədislərdə buna kifayət qədər dəlillər vardır. Onlardan bəziləri aşağıdakılardır:

Yusuf surəsində kafir bir padşahın yuxusu barəd Uca Allah buyurur: **"Padşah dedi: "Mən *yuxuda* yeddi arıq inəyin yeddi kök inəyi yediyini, həmçinin yeddi yaşıl sünbül və bir o qədər də qurusunu gördüm. Ey zadəganlar! Əgər yuxu yoza bilirsinizsə, yuxumun yozumunu mənə bildirin."**[43]

**Peyğəmbərlikdən yalnız müjdələr qalmaqdadır, bunlardan da ən önəmlisi gözəl yuxudur:**

Bu növ yuxu peyğəmbərliyin xüsusiyyətlərindəndir. Səhih bir hədisdə deyilir: "Peyğəmbərlikdən qalan yalnız gözəl yuxudur." Soruşdular: müjdələr nədir? Dedi: "İnsanın gördüyü gözəl yuxular."

Şəkk yoxdur ki, mömin gözəl yuxu ilə müjdələnir. Lakin bununla belə gərək işlərində tənbəllik etməsin və müvəffəqiyyət qazanmağın səbəblərini tərk etməsin. Əksinə o, çalışaraq səy göstərməli, xeyir tələb edərək şəri dəf etməlidir. Həmçinin o, yəqinliklə Allaha inanaraq lazımi tədbirlər görməyi də unutmamalıdır. Ola bilsin ki, yuxu saleh yuxu olsun, lakin açıqlamaya ehtiyacı olsun. Açıqlama isə doğru da ola bilər, yalnış da. Demək yuxu təfsiri yəqinlik deyil vəona bel bağlamaq olmaz. Daha doğrusunu Allah bilir. İmam Malik demişdir: Yuxu sevindirir, lakin zərər vermir.

Allah sənə rəhmət eləsin ey Abdullah, həmin şəxslərin səninlə bağlı gördükləri yuxuların çin olmasını diləyirəm.

Munər əl-qari şərh muxtasar səhih əl-Buxari əsərində Peyğəmbərin ﷺ aşağıdakı hədisi qeyd olunur və belə açıqlanır: "Sizlərdən biriniz sevdiyi bir yuxunu gördükdə bilsin ki, o, Allahdandır." Belə olduğu halda Allahahəmd etsin. Çünki həmin yuxu bir neməti müjdələyir. Kim istəyirsə ona inanaraq onu gerçəyə çevirə bilər. Əbu Qatədə Peyğəmbərdən ﷺ aşağıdakı hədisi nəql etmişdir: "Yaxşı yuxu gördükdə bilsin ki, bu bir müjdədir və bunu yalnız sevdiyi kəslərə desin."[44]

---

[43] Yusuf, 43.

[44] Buxari, (6994).

**Peyğəmbəri ﷺ yuxuda görmək barədə:**

Səhih hədislər Peyğəmbəri ﷺ yuxuda görməyin mümkünlüyünə dəlalət edir. Əlalxüsus da, bu əməlisaleh insanlara aiddir. Çünki şeytan Peyğəmbərin ﷺ qiyafəsinə girə bilməz. Hədislərdə deyilir: "Kim məni yuxuda görübsə, bilsin ki, o məni görüb. Çünki şeytan mənim qiyafəmə girə bilmir."[45]

**Uca Allahı yuxuda görməyin mümkünlüyü barədə:**

Şeyxulislam İbn Teymiyyə demişdir: "İnsan hətta Rəbbini belə yuxuda görüb onunla danışa bilər. Bu yuxuda mümkündür. Lakin gərək Rəbbinin yuxuda gördüyü kimi olduğunu etiqad etməsin. Həmçinin onun yuxuda gördüyü digər şeylər də həyatda oxşar olmaya bilər. Lakin onun Rəbbini görməsi Ona layiq şəkildə olmalıdır. Əgər insanın imanı və etiqadı güclüdürsə ona münasib yuxular da görə bilər, əks təqdirdə görməyəcək."[46]

Əhməd və başqaları Peyğəmbərin ﷺ yuxuda Allahı görməsini nəql etmişlər. Hədisin mətni belədir: "Bir dəfə Peyğəmbər ﷺ bizim yanımıza gəlmişdi və onun kefi kök idi, üzü isə parlayırdı. Biz soruşduq: "Ey Allahın rəsulu, nə isə kefin kökdür, üzün də parlayır." O, buyurdu: "Bu gecə Rəbbimi ən gözəl surətdə yuxuda görmüşəm." O buyurdu: "Ey Muhəmməd." Mən dedim: "Hüzrundayam, ey Rəbbim." O buyurdu: "Ən uca məqamda nə üçün mübahisə olunar?" Mən dedim: "Bilmirəm, ey Rəbbim." O, iki-üç dəfə bunu təkrarladı." Dedi: O, Əlini kürəyimə qoydu. Mən sinəmdə bir soyuqluq hiss etdim. Yerdə və göylərdə nə varsa mənə görsəndi. Sonra o, bu ayəni oxudu: "Beləcə Biz İbrahimə göylərin və yerin mülkünü göstərdik." Sonra Dedi: "Ey Muhəmməd, ən uca məqamda nə üçün mübahisə olunar?" Mən dedim: "Kəffarələr barədə." O, buyurdu: "Kəffarələr nədir?" Mən dedim: "Camaatlara doğru piyada getmək, namazlardan sonra məscidlərdə oturmaq, çətin şərtlərdə dəstəmaz almaq." Dedi: "Bunları edən xeyir içərisində yaşayar və xeyir içərisində ölər. Sanki anadan olduğu kimi günahlardan təmizlənər. Dərəcələrdən isə

[45] Muslim, (2261).

[46] Bəyan təlbis əl-cəhmiyyə, 1/73.

gözəl danışıq, salamı yaymaq, yemək yedirtmək, insanlar yatdığı zaman gecə namaz qılmaqdır." Sonra dedi: "Ey Muhəmməd, namaz qıldıqda belə de: Allahım Səndən gözəl əməllər etməyimi, pis əməlləri tərk etməyimi, yoxsulları sevməyi, tövbələrimi qəbul etməyini diləyirəm. İnsanlar arasında fitnə buyursan məni fitnəyə salmadan öldür."[47]

Dəyərli oxucularımıza yuxu barədə bir qədər məlumat verdikdən sonra kifayətlənirik. Kim istəsə bu barədə İslam kitabxanalarından müfəssəl məlumatlar əldə edə bilər.

[47] Əhməd (16621), Timizi (3223).

## Saleh əməllərin savabının ölmüş adama hədiyyə olunmasında İslamın əzəmətliliyi ([48])

Çoxlarımız valideyinlərimizin haqqında təqsirkardır. Onlar valideyinləri vəfat etdikdən sonra onlara yaxşılıq etmək istəyirlər. O qədər insanlar vardır ki, onların yaxınları dünyasını dəyişib. Övladı, qardaşı, dostu və ya başqa birisi üçün insan çalışır ki sağlığında edə bilmədiyi yaxşı işləri ölümlərindən sonra etsin. Digər bir məqsəd isə ümumiyyətlə yaxşı iş görməkdir.

İslam əzəmətli bir dindir və bu məsələyə də aydınlıq gətirmişdir. Əlbəttə axı Allah hər şeydən Xəbərdar, Müdrik, qulları həm həyatda ikən, həm də onların vəfatından sonra onlara qarşı Rəhmlidir.

İslam dini insana başqalarına qarşı yaxşı davranmağı, onun üçün dua etməyi, xəstələndikdə ziyarət etməyi, özünə istədiyini onun üçün də istəməyi, ona haqq işlərdə yardımçı olmağı, batil məsələlərdə isə çəkindirməyi, heç bir minnət qoymadan ona yaxşılıq etməyi, əziyyətlərinə səbir etməyi və digər yaxşı işləri buyurmuşdur.

Həmçinin, əzəmətli İslam dini insanın qardaşına yaxşılıq etməsi üçün böyük fürsətlər yaratmışdır. Təşviq etmişdir ki, yaxşı əməllər onun ölümündən sonra da davam etsin və dualar etmədkə davam etsin. Həmçinin icazə verilib ki, özünün etdiyi bəzi yaxşı işlərin savabını vəfat etmiş qardaşına hədiyyə etsin. Savabı verdiyi kəs onun qohumu da ola bilər, olmaya da bilər. Əsas odur ki, əməl Allahın rizası üçün edilmiş olsun, bir də şəri cəhətdən səhih əməl olsun.

Misal üçün Uca Allah buyurur: **"*Səhabələrdən* sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"**[49]

Bu ayə dəlildir ki, ümmətin əvvəli ilə sonu əməkdaşlıq etməlidir. Həmçinin, səhabələrin hamısını sevmək gərəkdir. Həmçinin imanda ötüb keçmiş qardaşlar üçün dualar etmək və qəlblə həsəddən və nifrətdən təmizləmək lazımdır.

---

[48] Bu məqalə, 07.12.2014 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[49] əl-Həşr, 10.

Buxari və Muslimin Səhih hədislərində İbn Abbasdan ﷺ nəql olunur ki, Bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: Ey Allahın Rəsulu, anam vəfat etmişdir. Onun bir ay oruc qəzası qalıb. Onun yerinə oruc tuta bilərəmmi? O, dedi: "Bəli, Allahın borcunun ödənilməsi gərəkdir."[50]

Aişənin belə dediyi rəvayət olunur: Peyğəmbər ﷺ demişdir: "Kim boynunda oruc borcu olaraq ölərsə, onun vəlisi onun yerinə tutmalıdır."[51]

Rəvayət edilir ki, Bureydə ﷺ demişdir: "Bir dəfə mən Peyğəmbərin ﷺ yanında oturmuşdum, bir qadın gəlib dedi: "Mən anamın yerinə bir cariyə sədəqə vermişdim, o isə ölüb." Peyğəmbər ﷺ dedi: "Sən savabını əldə etmisən, miras payına cariyə də, aiddir." Qadın yenə soruşdu: "Ey Allahın rəsulu, onun boynunda bir aylıq orucu da qalıb, onun yerinə tuta bilərəmmi?" Dedi: "Onun yerinə sən tut." Qadın dedi: "O həccə də getməmişdir, onun yerinə gedimmi?" Dedi: "Onun yerinə get."[52]

İmam İbn əl-Qeyyim əl-Cəuziyyə İslamın bu risaləsini gözəl bir şəkildə izah etmişdir. O bildirmişdir ki, ölmüş insanların ruhları alimlərin yekdil rəyinə əsasən dirilərin etdiyi yaxşı əməllərdən faydalanır. Bu da iki yolla baş verir: Birincisi: İnsanın sağ ikən həyatda etdiyi yaxşı əməllər. İkincisi: Müsəlmanların onlar üçün dua edərək bağışlanma diləməsi. Habelə onun yerinə sədəqə verməsi və ya həccə getməsi. Onlar yalnız bir məsələdə ixtilaf ediblər ki, meyitə sədəqənin savabı çatır yoxsa əməlin? Əksər alimlərə görə əməllərin savabı çatır. Bəzi hənəfi alimlərinə görə isə sədəqənin əvəzi çatır. Həmçinin, alimlərin hansı bədən ibadətlərinin yerinə yetirməyin caiz olduğu barədə də fikir ayrılığına düşüblər. Oruc, namaz, Quran oxumaq və zikr etmək kimi əməllərdə.[53]

İmam Qarafi isə savabı çata bilən əməlləri savabı çatmayan əməllərdən ayıraraq aşağıdakı üç qisimə bölmüşdür:

---

[50] Buxari (1953), Muslim (1148).

[51] Buxari (1952), Muslim (1147).

[52] Buxari (1816), Muslim (1935).

[53] ər-Ruhu fil-kələm alə arvah əl-əmvat val-əhyə biddələil minəl kitəbi vassünnə, 117-ci səh.

**Birinci qisim:** İman, tövhid və Allahı əzəmətləşdirmək kimi məsələlərdə bunun savabının başqasına köçürülməsi mümkün deyil. Namaz barədə də eyni fikir söylənmişdir. Baxmayaraq ki, şafii alimlərindən Əbu İshaq bunun caiz olduğunu deyərək fərqli fikir yürütmüşdür.

**İkinci qisim:** dua, sədəqə və qul azad etmək kimi əməllərin savabının meyitə köçürülməsi xüsusunda alimlər yekdilliklə icazə hökmü vermişlər.

**Üçüncü qisim:** Oruc, həcc, Quran oxumaq kimi əməllərdə ixtilaf etmişlər. Bəziləri bunun savabının ölüyə çatmadığını bildirmişdir. Digərləri isə bunun caiz olduğu qənaətində olmuşdur. Maliki, Şafii məzhəblərinə görə belədir. Əhməd ibn Hənbəl və Əbu Hənifədən də bunu mümkün hesab etdikləri nəql olunmuşdur. Şafii həcc məsələsində bu rəyi dəstəkləmişdir.[54]

**Xülasə:** Həcc, ümrə, istiğfar, oruc, sədəqə, dua, Qurani Kərim oxumaq, qul azad etmək kimi əməllərin savabının ölüyə hədiyyə olunması məsələsində fikir ayrılığı vardır.

Mən oğlum Abdullahla Həmd evinə səfər edərkən anladım ki, bu nə qədər də qiymətli nemətdir. Çünki onun vəfatı heç də əməllərinin tamamilə dayanması anlamında deyildir. Belə ki, onun yaxınlarından bəziləri onun yerinə yaxşı əməllər görə bilirlər. Belə insanların sayı olduqca çoxdur. O, Ərəfat günündən bir neçə gün öncə vəfat etmişdi. Bəzi xeyirxah insanlar da onun yerinə mənim tələbim olmadan həcc edə bilmişdilər. Onları bu işə vadar edən yaxşılıq etmək sevgisi idi. Özləri ehtiyac duyduqları halda başqasına yaxşılıq etmişdilər. Mən də bu əməli təqdir etmişdim. Çünki onun üçün dua etmək ənə əzəmətli əməllərdən hesab olunur. Həcc və ümrə əməllərinin savabı barədə isə ümumiyyətlə danışmağa dəyməz. Həmçinin, Qurani Kərim xətmləri, sədəqələr, xeyriyyə layihələri, məscid inşası, su quyularının inşası, suyun təmizlənməsi, Suriya qaçqınlarına yardım layihələri, qurbanlar, yoxsullara yardım kimi yaxşı əməllər də onun üçün yerinə yetirilmişdir.

---

[54] Anvar əl-baruq fin anvail-furuq, 221-ci səh.

Əzəmətli Allahdan diləyim budur ki, onların həccini, yaxşı əməllərini qəbul edərək Abdullahın mizanına qoysun, həmçinin müsəlmanların bütün ölülərinin günahlarını bağışlasın. Həqiqətən də, O, rəhimlilərin Rəhmlisidir.

**Məl-əaməl əlləti yəsilu savabuhə lil-meyyit?**

**Şeyx Saleh əl-Məğamisi (1 : 02)**

## Qəbir əhlinə nə cür sevinc bəxş etmək olar? ([55])

Ölülərin öz ziyarətçilərini hiss etmələri barədə dəlillər çoxdur. Misal üçün Buxarinin Səhih əsərində[56] Rəvayət edilir ki, İbn Ömər ﵄ demişdir: “Peyğəmbər ﷺ quyuya atılanların[57] cəsədinə baxıb dedi: “Rəbbinizin sizə vəd etdiyinin haqq olduğunu gördünüzmü?” Ondan soruşdular: “Sən ölülərəmi xitab edirsən?” Peyğəmbər ﷺ buyurdu: “İndi onlar məni sizdən yaxşı eşidirlər, lakin cavab verə bilmirlər.” Həmçinin ibn Əbdul-Bərr öz isnadı ilə İbn Abbasdan ﵄ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Kim dünyada tanıdığı mömin qardaşının məzarının yanından keçərsə ona salam verərsə, o da onu tanıyaraq salamına cavab verər.”[58]

Həmçinin, Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: “İnsan məzara qoyulduqda yaxınları onu tərk edib getdikdə onların ayaq səslərini eşidər.”[59]

Həmçinin, Peyğəmbər ﷺ qəbirləri ziyarət edənlərə öyrədərdi ki, belə desinlər: “Ey mömin və müsəlman diyarının sakinləri sizlərə salam olsun. Biz də sizlərin ardınca gələcəyik.”[60]

İmam İzz ibn Abdussalam bunu dəlil gətirərək belə fitva vermişdir: “Deməli meyit onu ziyarət edəni tanıyır. Çünki bizə əmr olunub ki, onlara salam verək. Şəriət eşitməyənə xitab etməyi əsla buyurmaz.” İbn Qeyyim isə sələflərin bu məsələdə yekdil rəydə olduqlarını bildirmişdir. Bir çox dəlillər meyitin ziyarətçini tanıdığını göstərir.”[61]

Lakin bu o demək deyil ki, bu barədə icma var. Bu qeybi məsələdir və varid olmuş dəlillərdən o yana keçmək doğru deyildir. Dəlillər göstərir ki, ölülər onları ziyarət edənləri kim olduğunu bilirlər. Lakin onların bütün danışdıqlarını eşitmələri doğru deyil.

---

[55] Bu məqalə, 07.06.2015 tarixində “əl-Qəbəs” qəzetində dərc edilmişdir.

[56] Buxari (1370).

[57] Bunlar Bədr döyüşündə öldürülmüş və cəsədləri boş qalmış bir quyuya atılmış Məkkə müşrikləri idi.

[58] əl-istizkar İbn Əbdul-Bərr (1/185).

[59] Buxari (1374), Muslim (2870).

[60] Muslim (975).

[61] Ibn Qeyyimin ər-Ruh əsəri, 5-ci səhifə.

İbn əl-Qeyyim "Ruh" əsərində ölülərin ziyarətçilərini gördükdə sevinmələri barədə gözəl bir hekayə nəql etmişdir. Həmin hekayə qeyd olunanlara zidd deyildir. O, demişdir: Osman ibn Səvad ət-Tavafi danışır ki, onun anası Allaha çox ibadət edən bir qadın olmuşdur. Hətta ona rahibə də deyərdilər. Ölüm ayağında olarkən o, başını qaldırıb dedi: "Ey Rəbbim, ey həm sağ ikən, həm də öldükdən sonra etimad göstərdiyim Rəbbim, ölüm anında məni rüsvay etmə. Məni qəbrimdə qorxutma. Bunu deyib o öldü. Mən hər cümə gəlib onun üçün dua edər, həm onun üçün, həm də digər müsəlmanlar üçün bağışlanma diləyərdim. Bir dəfə mən onu yuxumda gördüm. Ona dedim: "Anacan necəsən?" O, dedi: "Oğlum, həqiqədən də ölüm böyük kədərdir. Lakin mən bərzəx həyatında yaxşıyam. Burada reyhanlar qoxur, qiyamətədək burada cah-cəlal içərisindəyəm." Mən soruşdum: "Bir şeyə ehtiyacın varmı?" Dedi: "Bəli. Bizləri ziyarət etməyi tərk etmə. Sən cümə günləri mənim yanıma gələrkən mən sevinirəm. Mənə deyirlər ki; Ey rahibə, oğlun gəlib, mən də sevinirəm, ətrafımdakı ölülər də sevinir."

Hörmətli oxucu qardaşım və bacım, ölülərinizi ziyarət olunmaqdan və sevinməkdən məhrum etməyin. Bu təkcə onları sevindirmir. Bu sizlər üçün də bir ibrətdir ki, dünyanın faniliyini anlayasınız. Geci-tezi bizlər sevdiklərimizdən ayrılacağıq. Allah sizin ömürlərinizi uzun etsin və sizi istədiklərinizdən ayırmasın.

Mənə gəldikdə isə, sizə nəsihət etməmişdən öncə bunun özüm şahidi olmuşam. Peyğəmbərin ﷺ sünnəsinə əməl edərək cənazəni müşaiyət edib, onu dəfn etdikdən sonra sahibi üçün dua etdikdə özümü sanki Abdullahın yanına qalxaraq ona salam vermiş kimi hiss edirdim. Sonra da onun üçün dua edərdim. Sonra mən atamın və anamın yanına gedərək onlar üçün də dualar edərdim ki, onların da ruhu şad olsun.

Allahım bizləri onlarla həmd evində bir araya gətir. Həqiqətən də, Sənin vədin haqqdır. Həqiqətən də, Sən Nöqsansızsan.

**Şeyx Mahmud əl-Misrinin**
**Nəim əl-məral muslimə əsəri (22 : 55)**

**Şeyx Saleh əl-Məğamisinin**
**Həlil əmvat fi həyətil bərzəxi yəşurunə bil-əhyə əsəri (7 : 16)**

## Cənnət yalnız hurilərdən ibarət deyil ([62])

Bəziləri elə təsəvvür edir ki, Cənnət ancaq hurilərdən ibarətdir. Hərçənd, orada şəhvani nemətlər bol olacaq, əvəzsiz nemətlər oranı bəzəyəcəkdir, lakin bu hiss, qadınlarda narahatlıq yaradır, sanki cənnət elə kişilər üçündür.

Əslində isə Cənnət içərisindəki həmd evləri və digər mənəvi nemətlər hissi nemətlərdən daha üstün olacaqdır. Həmin nemətlər həm kişilər üçün, həm də qadınlar üçün olacaqdır. Çoxları bu nemətlərə diqqət yetirmir. Həmin nemətlərdən bəziləri aşağıdakılardır:

1 - Cənnət əhli üçün qorxu və hüzn olmayacaqdır. Yəni onlar əmin-amanlıq və səadət içərisində olacaqlar. Bu da dünyada insanların ən çox istədikləri nemətdir. Uca Allahın bu ayəsinə fikir verin: **"Cənnətə daxil olun, orada qorxu olmayacaq və siz kədərlənməyəcəksiniz."**[63]

2 - Cənnət əhli gözəl dost və yaxınları ilə birlikdə olacaqlar və onlarla qarşı-qarşıya əyləşəcəklər. Bundan öncə isə onların qəlblərindən kin və nifrət hissləri çıxarılacaq. Bu da ən böyük nemətlərdəndir. Uca Allah buyurur: **"Biz onların köksündəki kin-küdurəti çıxarıb kənar etdik. Onlar taxtlar üzərində qarşı-qarşıya əyləşən qardaşlar olacaqlar."**[64]

3 - Cənnət əhli əməlisaleh zürriyyətləri ilə birlikdə olacaqlar. Çoxumuz qorxuruq ki, öldükdən sonra övladlarımız ilə görüşməyəcəyik. Lakin Uca Allah bizlərə Cənnətdə onlarla birlikdə olacağımızın müjdəsini vermişdir. Uca Allah buyurur: **"Möminlərin imanda onların arxasınca gedən nəsillərini də *Cənnətdə* özlərinə qovuşduracağıq. Onların əməllərindən heç bir şey əskiltməyəcəyik. Hər kəs qazandığının girovudur."**[65]

4 - Cənnət əhli heç bir yoğunluq və ya məşəqqət hiss etməyəcəklər. Onlar beləcə Cənnətdə daimi olaraq qalacaqlar. Uca Allah buyu-

---

[62] Bu məqalə, 12.04.2015 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[63] əl-Əraf, 49.

[64] əl-Hicr, 47.

[65] ət-tur, 21.

rur: **“Onlara orada heç bir yorğunluq toxunmayacaq və onlar oradan çıxarılmayacaqlar.”**[66]

5 - Cənnətdə insanlar izzət içərisində olacaqlar. Onların bədəninə tox belə qonmayacaq və onlar alçalmayacaqlar. Bu hər kəsin istədiyi böyük bir nemətdir ki, izzətli olsun və alçalmasın. Uca Allah buyurur: **“Yaxşı iş görənlər üçün ən yaxşısı və bundan da üstünü (Cənnət, üstəlik də Allahı görmək) vardır. Onların üzünü nə bir qubar, nə də bir zillət bürüyər. Onlar Cənnət sakinləridirlər və orada əbədi qalacaqlar.”**[67]

6 - Cənnət əhlinə Uca Allah heç kəsə vermədiyi bir neməti də bəxş edəcəkdir. Həmin nemət bütün öncəki nemətlərin fövqündə duracaqdır. O da Uca Allahı görmək nemətidir. Səhabələr və elm əhli bu xüsusda yekdil rəydədirlər. Uca Allah buyurur: **“O gün insanlar Rəblərinə baxacaqlar.”**[68]

---

[66] əl-Hicr, 48.

[67] Yunus, 26.

[68] əl-Qiyamət, 22-23.

## Cənnətdə müsəlman qadının əzəmətinin müjdəsi ([69])

Bu məqamda Cənnətdəki və Həmd evindəki bəzi nemətlərdən söhbət açmaq istəyirik. Belə ki, oradakı mənəvi nemətlər hissi nemətlərdən daha çoxdur.

Cənnətdə Uca Allahın qullarına verəcəyi hissi nemətlərdən biri hurilərdir. Həmin nemət yalnız kişilərə veriləcəkdir. Lakin bununla belə qadınlara da haqsızlıq edilməyəcəkdir. Çünki Uca Allah zərrə qədər haqsızlıq etməz. Qadınlar da kişilər kimi əsla Cənnətdə hüzn çəkməyəcəklər. Çünki onların yaxınları da hüzn çəkməyəcəklər. Hətta onlar hurilərdən daha gözəl olacaqlar. Onlar Cənnətdə sevdikləri həyat yoldaşları ilə birlikdə olacaqlar. Əgər qadının bir neçə əri olubsa əxlaq baxımından daha yaxşı olanının yanında öz istəyi ilə olacaqdır. Buna da dəlil Ummu Sələmədən rəvayət olunmuş hədisdir. O, Peyğəmbərdən ﷺ soruşmuşdu ki; "Ey Allahın Rəsulu, dünyadakı qadınlar daha yaxşıdır yoxsa hurilər?" O, belə cavab vermişdi: "Dünyanın qadınlarının hurilərdən üstün olması zahirin batindən üstünlüyü kimidir." Dedi: "Ey Allahın Rəsulu, necə?" O, dedi: "Onlar namaz qılır, oruc tutur, ibadət edir deyə Allah onların üzünə nur yerləşdirəcək. Onlar ipəkdən libas geyinəcək, rəngləri bəyaz olacaq, libasları yaşıl olacaq, dürrdən sarı  zinətlər taxacaq, qızıl daraqlardan sitifadə edəcəklər. Deyəcəklər: Biz əsla ölməyəcək və əbədi yaşayacağıq. Biz həmişə incə olacaq və kobudlaşmayacağıq. Hər zaman bir yerdə qalıb başqa yerə getməyəcəyik. Hər zaman razı olacaq və qəzəblənməyəcəyik. Bizim üçün olana Tuba olsun." Mən dedim: "Ey Allahın Rəsulu, bəzən elə olur ki, bəzi qadınlar iki, üç hətta dörd dəfə ərə getmiş olur, sonra da onlar Cənnətə düşürlər, bu halda o, hansı ərinin yanında olacaq?" Dedi: "Ey Ummu Sələmə, qadın seçim edəcək və ən əxlaqlı olanını seçəcək və deyəcək: Ey Rəbbim bu adam mənimlə ən yaxşı davranan olub, məni onunla evləndir." Ey Ummu Sələmə, gözəl əxlaq həm bu dünyada, həm də axirətdə xeyirə səbəb olacaqdır."[70]

---

[69] Bu məqalə, 03.05.2015 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[70] Musnəd İmam Əhməd, 27334; Mocəmul-Kəbir, Təbərani, 3141.

Cənnət əhlinin qadınlarına və kişilərinə halal olsun. Allah bizləri də Cənnət sakinlərindən etsin, bizləri altından çaylar axan qəsrlərdə məskunlaşdırsın. Allah məni, Abdullahı və onun anasını vəd etdiyi Həmd evinə daxil etsin. Rəbbimə hüsni zənn etdiyim üçün sanki həmin evi gözümlə gözümlə görmüş kimiyəm. Həmd evinin bizlərə əta olunması Onun mülkündən heç bir şey əskiltməz. O Varlıdır, Bəxş edəndir, Nemət verəndir, Ruzi verəndir, Səxavətlidir, Qadirdir, Əzəmətlidir və hər şeyə Qadirdir.

Bu sifətlərə malik olan Allah vədinə əsla xilaf çıxmaz. İstər Həmd evi olsun, istərsə də başqa bir şey. Uca Allah buyurur: **"Allahdan daha doğru söz söyləyən kim ola bilər?"**[71] Həmin surənin digər ayəsində buyurur: **"Allahdan daha doğru xəbər verən kim ola bilər?"**[72]

Bu iki ifadə arasındakı fərq barəsində bu səfərim zamanı söhbət açmışdım.

---

[71] ən-Nisa, 122.

[72] ən-Nisa, 87.

## Arxayın nəfs:
## Həm Rəbbindən razı qalmış, həm də razılıq qazanmış kəs ([1])

**([1])**

Bir çox hallarda əl-Fəcr surəsinin aşağıdakı ayələri ilə təskinlik tapırıq: **"(O gün möminə deyiləcəkdir): "Ey arxayın olan kəs! Razı qalmış və razılıq qazanmış halda öz Rəbbinə tərəf dön! Mənim qullarımın *cərgəsinə* keç! Cənnətimə daxil ol!"**[2] Hər kəs istəyir ki, özü və dünyasını dəyişmiş yaxını bu arxayın kəslərdən olsun.

Subhanallah, bu ayələr ifrata varmış kəslər qeyd olunduqdan sonra gəlir. Həmin şəxslər deyəcək ki, kaş ki, bu həyatda yaxşı işlər görəydim. Uca Allah da onun barəsində qeyd etdikdən sonra, dünyada vüqarla yaxşı işlər görənləri zikr edir. Bunu Səid Qatədədən nəql etmişdir.

Qatədə Həsəndən belə nəql etmişdir: "Bəli, bu nəfslər rahatlıq içərisində olacaqdır."

Mücahid demişdir: "Bu o kəsə aiddir ki, Allaha iman gətirib itaətlərə atılıb."

Həsən əl-Bəsri demişdir: "Uca Allah beləsini öldürmək istədikdə Allah barədə rahat olar, çünki Rəbbi də ondan razı olar."

İbn Abbas demişdir: "Uca Allahın bəxş etdiyi savablar sayəsində rahat olacaqdır."

Allah onu Cənnətlə müjdələyərək mömin qullarının yanına getməyi buyurur. Qiyamət günü onun nəfsi razı olacaqdır. Çünki o, Allahından hər zaman razı olub. Allah da ondan razı qalaraq onu razı etmişdir.[3]

Beləliklər rahat nəfslə razı nəfs eynidir. Odur ki, müsibətlər gəldikdə qorxma və rahat ol, sevincli olduqda isə həddi aşma, İnsan dünyanın mahiyyətini dərk edərək axirətə bağlanmalıdır.

Bunun üçün də aşağıdakı amillərin olması gərəkdir:

---

[1] Bu məqalə, 30.09.2015 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

[2] əl-Fəcr, 27-30.

[3] Təfsir ət-Təbəri, 24/423.

Allahla səmimi olmaq, Peyğəmbərin ﷺ sünnəsinə tabe olmaq, Allahı sevmək və Ondan qorxmaq, habelə Peyğəmbəri sevmək.

Hər bir halda təqvalı olmaq lazımdır ki, bu da insanın əməllərində özünü mütləq göstərməlidir. Yaxşı işlərə dəvət etmək, pis işlərdən çəkindirmək, gözəl əxlaq sahibi olmaq, insanlara yaxşılıq etmək, onların sıxıntılarını aradan qaldırmaq, Allahla, insanlarla və nəfslə sadiq olmaq.

Allahım bizlərə rahatlıq nəsib et ki, hər zaman Sənin qədərinlə razılaşaq, şahidlik edirəm ki, Abdullah da bu cür rahat idi, ona və bu duanı oxuyanlara da rahatlıq nəsib et.

## Abdullah ([1])

Abdullahla Həmd evinə səfərimlə bağlı otuz altı məqalə yazdıqdan sonra faydanın ümumi olduğu qənaətinə gəldim. Çünki xəstəsi olan və ya dünyasını dəyişmiş yaxını olan kəsin bu mövzulara ehtiyacının olduğu qətidir.

Xəstəliklə vəfatın mədəniyyətinin öyrənilməsi lazımdır.

Lakin Abdullahın özü bu vəsfdən lazımi haqqını almamışdı. Çünki burada mövzunun episentirində məhz o, dayanır.

Bu baxımdan mən bu söylədiklərimi yaralı qəlbimlə qələmə ala bildim. Lakin vallahi ki, nir çoxları şahiddir ki, bu yazdıqlarım həqiqətdən başqa bir şey deyil.

Mərhum sakit təbiətli, xoş rəftar edən, başqalarına, xüsusən də valideyinlərinə ehtiram göstərən, bağışlayan, özünə pislik edənlərə kin bəsləməyən birisi idi. Hətta ona qarşı haqsız davrananlar onun halını görüb öz əməllərindən utanırdılar.

O, insanlara xidmət göstərməyi sevərdi. Dostları və yaxınları ilə xüsusi münasibəti var idi. Onlara qarşı çox diqqətli idi.

O, başqalarına etdiyi xidmətlər barəsində əsla danışmağı xoşlamazdı. Ədəb-ərkanı və ehtiramı ilə həmin şəxslərlə xoş xatirələrə sahib idi. Dostları olduqca dəyərli bir insanı itirmişdilər.

Mərhum təvazökarlığı ilə valideyinləri, bacıları və dostları üçün bir örnək idi.

O, böyüklü kiçikli hər kəsi sevərdi. Bacardığı qədər hər kəsə yardım etməyə çalışardı.

O, həmçinin olduqca mərhəmətli idi, yoxsullara və kasıblara həm maddi, həm də mənəvi cəhətdən yardımlar edərdi. Özünü əsla tək oğlan olduğu üçün başqalarından üstün tutaraq lovğa aparmazdı. Bacıları ilə təhsillə bağlı Küveyti tərk edib səfər etdikdə də onlara qayğı göstərərdi.

Dostları arasında isə o, xüsusi nüfuza və hörmətə malik idi. Onların hər biri hörmətli ailələrin nümayəndəsi idi. Birisi onun haqqına girdikdə peşman olub qayıdardı. Birisi onun dostlarından birinin

---

[1] Bu məqalə, 30.09.2015 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

haqqına girdikdə isə məzlumu müdafiə edər, qarşı tərəfi isə geri çəkilməyə məcbur edərdi.

Dostları danışır ki, bir dəfə dini məsələ barəsində onların arasında baş vermiş ixtilaf özlləri də bilmədən kəskin xarakter almışdı. Dostu Abdullaha demişdi ki, Abdullah mən səndən yaşca böyüyəm, səndən çox bilirəm. Abdullah isə cavabında deyirdi: Sən məndən yaşca böyük olduğuna görə fikir ayrılığımız olsa belə mən sənə ehtiram göstərirəm.

O, uşaqlıqdan bəri hər yerdə böyüklərə hörmət göstərərdi. Həm məktəbdə, gimnastika, karate, tayekvando müəllimlərinə ehtiramla yanaşar, bütün müəllimlərinə də eyni cür yanaşardı.

O, bütün məsələləri mükəmməl öyrənməyə çalışardı. Harada olursa olsun, istər evdə, istərə də başqa yerdə çalışırdı ki, öyrəndiyi işi mükəmməl mənimsəsin. Dil qabiliyyəti də çox yüksək idi, dostları xəta etdikdə çalışırdı həmin səhvi düzəltsin.

Dostları həmçinin deyərdilər ki, restoranlardan yemək tələb etdikdə onların başbiləni Abdullah idi. Çünki o, yeməklərin adlarını və dadını yaxşı bilirdi. Hətta onu yaxşı tanımayan bəzi dostları belə ona zəng edərək nələrisə öyrənməyə çalışardılar. O da öz növbəsində onlara yardım edirdi.

Yeni universitet tələbələrinə də beləcə yardımlar edərdi. Təvazökarlıqla onlara lazımi tövsiyələr verər, hətta məzunlara belə öz ixtisası olmasa belə müəyyən məsləhətlər verərdi.

O, əsla heç kimin qeybətini etməzdi. Eyni zamanda kiminsə onun hüzurunda qeybətinin olunmasını da xoşlamazdı. Hətta yeniyetmə vaxtlarında dostları ilə mübahisə etdikdə belə buna peşman olur və dostlarının razılığını almağa çalışırdı. Sonra da özünü danlayaraq deyirdi: "Görəsən niyə belə oldu?"

Onun xasiyyəti belə idi ki, bir şey xoşuna gəlmədikdə başqasının xətrinə dəyər deyə onu pisləməzdi. Hətta anası və ya bacısının bişirdiyi yemək onun xoşuna gəlmədikdə: Keçən dəfə bişirdiyin daha dadlı idi – deməklə kifayətlənərdi. Hər dəfə ləziz təamları tərif edərdi.

Tələbələrə və məzunlara xidmət göstərməsinə rəğmən özünə icazə vermirdi ki, kimdənsə yardım və ya kömək tələb etsin. Hətta bir

dəfə o ayağından zədələndikdə və ayağı sarğıda olduqda və əsa ilə gəzdikdə belə başqasından yardım istəmirdi.

Xərçəng xəstəliyinə tutulduqdan sonra da o, yüksək əxlaq nümayiş etdirirdi.

O, Allahın qəza və qədəri ilə razılıq nümayiş etdirərək bu xəstəliyə qarşı mübarizə aparırdı. Onunbaşında şiddətli ağrılar başladıqda həkimlər onun çox yaşamayacağını deyirdilər. Onların xəstə ilə səmimi olmaları apardıqları siyasət idi.

Çalışırdı ki, ətrafındakılar onun üçün kədərlənməsinlər. Xüsusən də anasının kədərlənməməsi üçün əlindən gələni edirdi. Hətta ona yaxınlaşdıqda anası elə güman edirdi ki, ağrının şiddətindən belə edir. O, isə telefonundakı maraqlı bir şəkili ona göstərərək fikrini dağıtmağa çalışırdı.

Bu baxımdan onu tanıyan və tanımayan çoxsaylı insan kütləsinin onun  üçün dua etməsi təəccüblü deyil.

O, ictimai həyatda, evdə, ailədə, universitetdə yalnız xoş təəssüratlar buraxıb getmişdi.

Allah sənə rəhmət eləsin, məni və ananı Həmd evində sənə qovuşdursun.

Hər bir halda Allaha həmd olsun.

## Əməli təcrübə:
## Xanım Mİ Abdullah Abduləziz əl-Faris

Başqalarının təcrübəsindən faydalanmaq lazımdır ki, insan sıfırdan başlamasın. Bu da həmin təcrübələrdən biridir. Sahibi bunu dəfələrlə minlərlə nüsxədə nəşr etdirmişdir. Həmin şəxs xanım Mi Abdullah Abduləziz əl-Farisdir və onu buna təşviq edən əri Doktor Həsən Abdulaziz əs-Sənəd olmuşdur. O, xəstəlik və onun müalicəsində malik olduğu təcrübəni bölüşmüşdür. Öz təcrübəsini 36 səhifəlik kitabçada müləxxəs edən xanımın bu əsəri bir çox insanlar tərəfindən coşqu ilə oxunmaqdadır. İstəyirəm həmin kitabçanın mündəricatını nəzərinizə çatdırım, çanki mündəricat kitabın mövzularından xəbər verir:

- Bu kitab nə üçündür?
- Müqəddimə
- Döş xərçəngi, xoşxassəli və bədxassəli şişlər barədə.
- Hansı qadınlar daha çox döş xərçənginə tutulurlar?
- Döş xərçənginin əlamətləri hansılardır?
- Döşlərin müayinəsi
- Şiş tapıdıqda nə etməli?
- Xərçəng şişləri necə müayinə olunur?
- Cərrahi müdaxilədən sonra nəsihətlər
- Cərrahi müalicə
- Kimyaterapiya
- Şüa ilə müalicə
- Hormonlarla müalicə
- İkiqat dozalı kimyaterapiya.
- Birinci: Bədənin zəifliyi
- İkinci: İmmunitetin zəifləməsi
- Üçüncü: Saçların tökülməsi
- Dördüncü: Ürəkbulanması
- Beşinci: Ağızın quruması

- Ac qalma
- Dırnaq rənglərinin dəyişməsi
- İman müalicəsi: xəstəliyə qarşı həqiqi tədarük.
- Dərmandan öncə çoxlu dua edilməsi
- Şəri ruqya
- Alternativ müalicə
- Həyatda yeni bir dərsin öyrənilməsi

Bu kitab məlumatlarla nə qədər də zəngindir. Həmin kitabın sonuncu bəndi olan Həyatda yeni bir dərsin öyrənilməsi bölməsini qeyd etmək istəyirəm.

**Xanım Mi əl-Faris deyir:**

Xəstəliyə mübtəla olmaqla mən çox qiymətli dərslər... və dəyərli xəzinələr ... öyrəndim.

1. İlk öncə mən İslam və İman nemətlərinə görə Rəbbimə şükür etdim. Ey qəlbləri çevirən Allah, mənim qəlbimi dininüzərində sabit et. Ey gözləri çevirən Allah, gözlərimizi itaətinə yönəlt, Allahım sabit sözlə bizləri həm bu dünyada, həm də axirətdə sabit et.
2. Bu imtahan mənə istiğfar, zikr və innə lilləhi va innə ileyhi raciun deməyi öyrətdi. Həmçinin dedim ki, Allahım bu müsibətimdə mənə əcr ver və bundan daha xeyirlisini mənə nəsib et. Allah mənə yetər Ondan başqa ilah yoxdur, mən Ona təvəkkül edirəm, O, əzəmətli ərşin Rəbbidir. Bunları dedikdən sonra qəlbim sakitləşərək rahat olurdu.
3. Səhər-axşam mənə bəxş olunmuş saysız-hesabsız nemətlər barədə düşünməyə başladım. Uca Allah buyurur: **“O sizə istədiyiniz hər şeydən vermişdir. Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, çox nankordur.”**[2] Allahın nemət və möcüzələrinə şükür etmək lazımdır. O, həmçinin, buyurur: **“Qullarımdan şükür edəni azdır.”**[3] Allahım bizləri şükür edən az zümrədən et.

---

[2] İbrahim, 34.

[3] Səba, 13.

4. Razılıq və qəbul etmək kimi sərvətlə yaşamış olursan. Uca Allah buyurur: **"De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim Himayədarımızdır. Qoy möminlər Allaha təvəkkül etsinlər!"**[4]
5. Ümidin mənasını anlamaq. Belə ki, insan tamamilə sağlam ikən qəflətən ən ağır xəstəliyə düçar ola bilər. Bir göz qırpımında insan haldan-hala düşə bilər.
6. "Allah hər şeyə Qadirdir" - ayəsinin mənası barədə düşünmək. Tək şəfa verən, Qadir olan yalnız Allahdır. Göylərdə və yerdə Onun aciz olduğu məsələ yoxdur.
7. Bəla gəldikdə yaxınlarının yanında olmasından sevinmək. Onlardan qayğı görmək insanı olduqca sevindirir. Allaha dua edirdim ki, onları hifz etsin və onlara afiyət versin.
8. Anladım ki, insan Allahın Ona ayırdığı paydan razı olduqda həyatda təbəssümlə yaşaya bilir.
9. Bir çoxlarının qəlbində özümə qarşı sevginin olduğunu hiss etdim. Onlar mınim üçün dualar edir sevgi izhar edirdilər. Bu sevgi xəstəliyə qalib gələməkdə mənə stimul verirdi.
10. Öyrəndim ki, bəla insanın itaətə yönəlməsinə səbəbdir. Bəlanın getməsi ilə Allaha yaxınlaşma bitmir. Odur ki, bəla həm də bir mükafatdır.
11. Allah yolunda qardaşlığın mənasını dərk etdim. Bir çoxları mənim üçün narahat olub, barəmdə soruşurdular. Məni sevindirmək üçün onlar əllərindən gələni əsirgəmirdilər. Müxtəlif reseptlər və dualar gətirib mənə verirdilər. Həmçinin zəm-zəm suyu gətirməkdə də yarışırdılar. Mən də müalicəm boyu həmin sudan istifadə edirdim. Bu nemətə görə Allaha həmd etdim və onları xeyir işlərdə yarışanlardan etməsini dilədim.
12. Bəladan Allahın insanı sevdiyini öyrəndim. Bəlaya görə ALlaha şükür etdim.
13. "Xəstələrinizi sədəqə ilə sağaldın."[5] hədisinin mənasını dərk etdim. Sədəqələrini təsirini müşahidə etdim.

---

[4] ət-Tovbə, 51.
[5] Mocəmul-Kəbir, Təbərani, 10/128-10196.

14. Xəstəliyə görə Allaha həmd etdim. Bu bir fürsət idi ki, tövbə edib Allaha yönəlim və sağlamlığımın qədrini bilim, yaxşı əməllərlə Allaha yaxınlaşım.
15. Peyğəmbərin ﷺ vəsiyyətinin mahiyyətini anladım. O İbn Abbasa demişdi: "Allahı qoru ki, O da səni qorusun. Allahı qoru Onu önündə görərsən. Firavan vaxtlarda Allahı tanı ki, çətinlik vaxtı da o, səni tanısın. Bil ki, səni səhvə vadar edən başına gələnə görə deyil, səninbaşına gələn isə xəta etməyin üçün deyil. Bil ki, yardım səbirlədir, qurtuluş müsibətlədir və hər bir çətinlikdən sonra asanlıq gəlir."[6]
16. Allahın mənə olan lütüfünü və mərhəmətini dərk etdim. O, mənə şəfa verdi və mən gündəlik həyatıma qayıtdım. Allaha həmd və şükürlər olsun.

**Başqalarının təcrübələrinin təsdiqlənməsinə çağırış:**

Bu kiçik bir təcrübə idi, Mi əl-Faris bacımızın da başına gələnlər bir başqa təcrübədir. Mən ondan olduqca faydalanmışdım. Onun təcrübəsinin xülasəsi kiçik bir kitabça şəklində nəşr olunmuşdur. Bir neçə dəfə nəşr olunan bu kitabça minlərlə nüsxədə paylanmışdır. Baxmayaraq ki, onun mövzusu müəyyən bir mövzunu əhatə edir o, olduqca faydalı idi. Oxşar təcrübələrə malik şəxslərdən də xahişim budur ki, onları başqaları ilə bölüşsünlər. Çünki təcrübələr bir-birindən fərqli olur. Bu da onların imanlarının səviyyəsinə, ətraf mühitlə uyğunlaşmalarına görədir. İnsanların fikir və düşüncə tərzləri müxtəlif olur.

Təcrübələrin başqaları ilə bölüşülməsi olduqca faydalıdır. Bu zaman yeni imani səyahətlərlə tanış olursan ki, bu da ola bilsin sənin şəfa tapa bilməyinə səbəb olsun. Allaha həmd edib müsibətə səbir edərək innə lilləhi va innə ileyhi raciun deyənlər isə Həmd evi də qazana bilərlər.

Lazım ola yalnız həmin hadisələri qələmə almaqdır. Təcrübə şəklində insanlar bundan faydalana bilsinlər. Məncə bu olduqca asandır və hər kəs bunu edə bilər. Allah hər kəsi müvəffəq etsin. Kim bu barədə yardım istəsə biz öz əllərimizi ona uzada bilərik. Allah hər bir xeyirə müvəffəq edən, doğru yola yönəldəndir.

---

[6] əd-Dua, Təbərani, 41.

## Son söz [7]

İlk öncə, hər şeydən əvvəl Abdullahla Həmd evinə başladığımız bu səfərin haqq vədi olduğundan əminəm. Ümidvaram ki, hamılıqla Həmd evində görüşəcəyik. Bu mübarək kitabda Quran və Sünnədən dəlillər gətirərək qeyd olunan mövzunu açıqlamağa çalışdıq.

Qurani kərimdəki açıq-aşkar ayələr və Sünnədəki səhih hədislər buna sübutdur.

Odur ki, hörmətli oxucu Quran və sünnədə varid olmuş dəlillərlə tanış olduqda rahatlıq tapır. Dünyasını dəyişmiş kəsin yaxınları da bu dəlillərlə tanış olurlar. Çünki mən onlara lazım olan bütün mövzuları imkan daxilində toplamağa çalışmışam.

Bu müxtəsər təcrübəni başqalarına paylaşmaqla onların məsuliyyət daşıdıqlarını bilmələrini istədim. Onlar bun məsələnin təfsilatına həm bu dünyada, həm də axirətdə ehtiyac duyurlar. Mən təvazökarlıqla bu əsəri onlara təqdim etmək istəyirəm. Baxmayaraq ki, özümü onlardan daha elmli hesab etmirəm. Ola bilsin ki, elmli birisi daha elmli olana bir şey öyrətmiş olsun. Hikmət möminin itmiş dəvəsidir, gərək harada onu tapsa götürsün. Qəlbi olanların bundan faydalanmasının savabı mənə yetər. Ümidvaram ki, onların əldə etdikləri savab qədər mənə də savab yazılacaqdır. Çünki bu kitabın məğzini də hədis təşkil edir.

Hər bir halda, çalışan istəyinə çatar. Allahdan ikiqat əcr diləyirəm, çalışmağımın və müvəffəqiyyətin əcri.

Ümidvaram ki, hörmətli oxucu da bu kitabdan faydalanmış oldu. Əlǝlxüsus da onun mənalarını dərk edən oxucu. Aləmlərin Rəbbi olan Allaha həmd olsun.

[7] Bu məqalə, 14.02.2016 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

## Nəfsdəki son titrəyiş

Son sözdən sonra kitab bitir və Abdullahla Həmd evinə səyahətim yekunlaşır. Ola bilsin ki, səfərə aidməlumatları təsdiq etmiş oldum.

Lakin son olaraq Abdullahın ruhuna təşəkkürlər etmək istəyirəm:

Çox sağ ol ey Abdullah...

Sağ olanda da, öləndən sonra da təşəkkür edirəm sənə

Məni Rəbbimi zikr etməyə vadar etdin.

Sayəndə dinim və əqidəmlə daha çox fəxr etməyə başladım. Ruhunla məni bu kitabı yazmağa sövq etdin və mən heç kəsin toplamadığı bu misilsiz əsəri yaza bildim. Həmçinin Allah mənə Həmd evini də vəd etdi.

Çox sağ ol, ey əzizim Abdullah, kifayətdir ki, sən gözlərimdən yaş çıxara bildin. Dünyaya başım qarışmış ikən məni Rəbbimə yönəltdin. Hiss etdim ki, göz yaşlarım artıq mənim dostuma çevrilib.

Mən daha çox namaz qılıb zikr etməyə başladım.

Mən sənə əsla əlvida deməyəcəyəm.

Həmd evində inşəAllah görüşənədək deyirəm

Bu Allaha üçün çətin deyil.

## Səfərdəki dayanacaqlar bitdimi? ([8])

Başqa sözlə desək kitabın mövzuları bitdimi?

Cavab təbii ki, aydındır. Kitabda yadıma düşən mövzuları qeyd etmişəm. Həmçinin bəzi təcrübələri paylaşdıq ki, əksər hallarda bundan faydalananlar üç növ olur:

Xəstə

Xəstənin yaxınları

Vəfat edənin yaxınları

Bir də başqa üç tərəf var:

Başqalarının təcrübələrindən faydalanmaq istəyən ağıllı insan.

1. Dəvətinin yayılması üçün azuqə toplamaq istəyən dəvətçi.
2. Xəstəyə qulluq edən, vəfat etmiş yaxınına qulluq edən həkim, mütəxəssis, xəstəxanadakı şəxslər.
3. Təbii ki, bu kitab nəşr olunduqdan sonra yadımıza bəzi xatirələr də düşür. Lakin buna baxmayaraq kitabın nəşrini gecikdirməmək münasibdir. Əlhəmdulilləh ki, əsas mövzular barədə danışa bildik.

Beləliklə bu kitabın gördüyünüz şəkildə nəşr olunması vaxt söhbətidir. Necə deyəllər işi sona çatdırmaq lazımdır. Ümid edirik ki, kitabdan və oradakı məlumatlardan az da olsa faydalananlar olacaqdır.

Müvəffəqiyyət Allahdandır.

Aləmlərin Rəbbi olan Allaha həmd olsun.

---

[8] Bu məqalə, 31.01.2016 tarixində "əl-Qəbəs" qəzetində dərc edilmişdir.

## Bəs şəkillər haradadır?

Ola bilsin ki, hörmətli oxucu bu kimi kitabla tanış olduqdan sonra soruşsun ki, bəs Abdullahın şəkilləri haradadır?

Təbii ki, kitabda barəsində danışılan Abdullahın şəkili olmalıdır, ya da onun həyatını xülasə edən şəkillər yerləşdirilməlidir. Lakin mən kitabın üz qabığındakı şəkillə kifayətlənməyi tərcih etdim.

Çünki şəkillər şəxsidir. Həm də insanların fikri mövzulardan kənara yayınmasın.

Həmçinin, səbəbin xüsusi olması faydanın ümumi olmasının qarşısını almır. Yəqin ki, xəstəliklə və ya yaxınlarının vəfat etməsi ilə qarşılaşan kəslər bu kitabdan faydalanacaqlar. Belə olduğu halda həmin oxucu sözün həqiqi mənasında kitabdan faydalanacaq və anlayacaq ki, bu kitab yalnız xatirələrdən ibarət deyil.

Şəkillərin yerləşdirilməməsinin daha bir səbəbini qeyd etmək istəyirəm ki, o da Abdullahın ana və bacılarının istəklərinin yerinə yetirilməsi idi.

## Kitabın özəllikləri nədən ibarətdir

Abdullahla həmd evinə etdiyim səfər kitabının əvvəlində kitabın özəlliyi barədə qeydlər yer alır. Lakin bu məqamda mən orada əziz qardaşım Doktor Əhməd Seyf Əhmədin dil baxımından mülahizələri barədə yazmaq istəyirəm.

Belə ki, Doktor Əhməd demişdir:

Allaha həmd olsun, cənabımız Peyğəmbərə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun.

Kitabla tanış olduqdan sonra bəzi yenilikləri və kitabın fərqliliyini kəşf etdim. Onların bəzilərini fayda üçün qeyd etmək istəyirəm.

Kitabın sözlərinin düzgünlüyü, ifadələrinin doğruluğu gözə çarpır. Orada qəribə və gizli sözlər nəzərə çarpmır.

Kitabın mövzuları və hədəfləri müxtəlifdir. Belə ki, burada həm xəstəyə rahatlıq gətirən, həmd də ölünün yaxınlarına başsağlığı verən mövzular, habelə səbir və razılığa səbəb olan mövzular, fayda üçün kədərli mövzular, nəsihət və tövsiyələr, yardımlar, Həmd evi barədə müjdələr, itki üçün ağlamaq, ərəb şeirləri vardır. Ona görə kitab elm, ədəbiyyat, ruh və nəsihət baxımından zənginliyi ilə seçilir. Allah səbəbkara rəhmət eləsin, onun ayxınların səbir versin.

Kitab bir faciə iə üzləşmiş atalı, analı, bacılı ailənin çəkdiyi izdirabları tərənnüm edir. Hər bir bölümdə yeni bir faciəli məsələdən söhbət gedir. Bu təcrübə ürəkləri lərzəyə gətirən çətin bir mövzunu əhatə edir. Allahın mərhəməti olmasaydı buna tab gəirmək də çətin olardı. Odur ki, kitabı oxumaq məsləhətdir.

Kitabda övlad itkisi ilə Həmd evində Allahla görüşə ümid yer alır. Övladını itirən kəsin həmd edərək innə lilləhi va innə ileyhi raciun - dediyi təqdirdə ona həmin evin bəxş olunacağı bildirilir.

Kitab çoxlarının unutduğu bəlaya düçar olmuş kəslərdən bəhs edir. Onların qarşılaşdıqları ağrı və acını sətirlərdə cəm edir.

Kitabda xəstənin psixoloji vəziyyəti dəqiqliklə vəsf olunur. O, xəstələnməyinə baxmayaraq səbir və razılığını bildirməkdə davam edir. Sanki öz yaxınlarına deyir ki, narahat olmayın, Həmd evində görşəcəyik.

Kitabda şəri məsələlərlə şəxsi təcrübə bir yerə toplanıb. Bəla, səbir, razılıq, şivən salmamaq kimi fəsillər yer alır. İnsanın qəlbi rəbbi ilə görşəcəyini bildikdə rahatlıq tapır. Kitabdakı: Bu səfər mənə nələri öyrətdi- bölümü sənə çoxlu faydalar verəcəkdir.

Həmçinin, kitabda Həmd evi haqqında, onun vəsfləri, orada Allahın öz qullarına bəxş edəcəyi nemətlər barədə geniş məlumatlar da vardır. Bu iman səfərinin əsasını səbirlə razılıq təşkil edir.

Kitab xəstəliyin və ölümün fəlsəfəsini anladır, dua və ruqyalara geniş yer verir. Orada insanın ağlı və qəlbi ilə söhbət edilir, onlar həqiqətə yaxınlaşdırılır. Buna riayət edən xəstəliyin Allah tərəfindən bir lütf olduğunu dərk edir. Sağalmaz xəstəlikdən, insanı öz yaxınlarından ayıran ölümdən  daha çətin imtahan nə ola bilər?

Kitab ərəblərlə avroplalıların qədim zamanlardakı hallarını müqayisə edir. Vaxtilə müsəlmanlarda tibbin və səhiyyə xidmətlərinin nə qədər yüksək səviyyədə olduğu göstərir. Ilk xəstəxanaların da məhz müsəlman ölkələrində yarandığını və o zamankı Avropa xəstəxanalarından kəskin şəkildə fərqləndiyini açıqlayır.

Həmçinin, müasir dövrümüzdə tibb elminin müsəlmanlar arasında nə üçün gerilədiyini və qərb lkələrində inkişaf etdiyini açıqlayır. Belə ki, müasir qərb tibbi müsəssisələrində şəffaflığa üstünlük verilir. İndiki dövrdə qərbdə tibbə xüsusi önəm verildiyi və onların bu sahədə xeyli irəli getdikləri bildirilir. Indi onlarda tibbi sığorta sahəsi tərəqqi dövrünü yaşayır və bu sahəyə külli miqdarda pullar xərclənir. Qərb xəstəxanalarında indi xəstənin yaxınları ilə görüşməsi üçün xüsusi otaqlar, düşünmə otağı, ibadət otağı, əməliyyat gözləmə otağı, böyük, orta və kiçik reanimasiyalar və bu kimi bir çox mütərəqqi tibbi irəliləyişlər əldə olunmuşdur. Hansı ki, bu sadalananlara bizim tibb müəssisələrində daha böyük ehtiyac vardır. Hikmət möminin itmiş dəvəsidir, onu harada tapsa götürməlidir. Bütün bu qeyd olunanlar barədə bu kitabda məlumat almaq mümkündür.

Kitabda sağalmaz xəstəliyə malik şəxslərin nələr etməli olduqları göstərilir. Müəllif öz təcrübəsini bölüşməklə başqalarının faydalanmasını istəyir. Özünün başına gəlmiş müsibətdən başqalarının faydalana bilmələri üçün əlindən gələni əsirgəmir. Bir işdə başqalarını

qabaqlayan kəs onlara yol göstərdiyi üçün böyük savab qazanmış olur.

Övladını itirmiş bir çox insanların verdikləri suallara bu kitabda cavablar verilir. Övladının duasından məhrum olan kəsin ölmüş övladına dua etməsinin mümkünlüyü bildirilir.

Bir çoxları mal-dövlət toplamağın əsl xoşbəxtlik olduunu güman etdikləri halda bunun əslində belə olmadığı kitabda göstərilir. əsl sərvət insanın öz Rəbbini sevməsidir. Kitabdakı: Mən milyarderəm – bəhsində bu mövzu ilə tanış ola bilərsiniz.

Kitabda qəlblərini qısqanclıq hissi bürümüş bir çox müsəlman qadınlar rahatlıq tapır. Bu sual şəxsən mənə dəfələrlə verilib ki, hurilər kimlərdir? Onları qısqanmaq lazımdırmı? Mömin qadınların halı cənnətdəki hurilərdən qat-qat yüksəkdə olacaq və onlar daha gözəl olacaqlar. Bu barədə: Müsəlman qadına cənnətdəki müjfə - adlı bəhsdə tanış ola bilərsiniz.

Kitabda şeir və şairlərdən də söhbət açılır. Xüsusi bir fəsildə övlad itkisi ilə üzləşmiş şairlərən də sitatlar gətirilir. Kitabda bu barədə də eyni adlı bəhs yer alır.

Həmçinin kitabda ata və analara öz övladlarının daxili aləmlərinin və özəl bacarıqlarının kəşf edilməsinə çağırılır ki övladlarla valideyinlər arasında əlaqə olsun.

Kitab sağlamlıq nemətinə malik şəxslərin Allaha şükür etməli olduqları təkid olunur.

Ümumilikdə kitab dəvət, səbir, Allahın qədərinə razılıq, övliyalara verdiyi vədə inam mövzularını ehtiva edir. Lakin bu dəfə dəvət təcrübəli bir şəxs tərəfindən həyata keçirilmişdir.

Həmçinin kitab sehr və falçıların əməllərindən çəkinmək üçün bir xəbərdarlıqdır. Əvəzində şəri elmdən yapışaraq xəstənin fitnələrdən, vəsvəsələrdən uzaq olması tələb olunur.

Müəllif öz əsərində fiqhi məsələlərə də toxunaraq bəzi fiqhi məsələləri müzakirə edir. Misal üçün Xərçəng xəstəliyindən ölən kəs şəhiddir, yalnız beyni sağ olan kimsənin aparatdan ayrılmasının caiz olması, savab əməllərin ölüyə hədiyyə olunmasının caiz olması kimi mövzular buna sübutdur.

Kitaboxucuya mümkün qədər fayda verməyə çalışıb. Üstəlik xəstəlik və onun fəlsəfəsi barədə ədəbi fikirlər də yer almaqdadır. Xəstəni ziyarət etmək, ona qulluq etmənin savabı, xəstənin yanında çox oturmamaq kimi bəhslər də buna sübutdur.

Sonda göylərin və yerin Rəbbinə çoxlu həmd sənalar etmək istəyirəm. Diləyirəm ki, Abdullahı əfv etsin, onu Firdovs cənnətinin sakinlərindən etsin. Onun yaxınlarına, ailə üzvlərinə və onu sevənlərə səbir versin və onları Həmd evində bir araya gətirsin.

**Allahın izni ilə tamamlandı.**

**Bu kitab Abdullahın il dönümü vaxtı tamamlanmışdır.**

**O, bizi həmd evinə getməkdə qabaqlamışdır.**

## Bu kitabdan yararlananlar

- Özləri, yaxınları və ya dostlarından xəstəliyə mübtəla olmuş kəslər.

- Xəstəlikləri müalicə edənlər.

- Övladlarını və ya yaxınlarını itirmiş kəslər.

- Küveytdə və ya onun hüdudlarından kənarda, əiəlxüsus da, Amerika Birləşmiş Ştatlarında müalicə almış kəslər.

- Sağlam olan kəslərdən xəstəlik, onun müalicəsi, övlad və ya yaxınlarından birini itirmiş kəslər barədə məlumat toplamaq istəyənlər.

Onlardan dua etmələrini diləyir və təşəkkürümüzü bildiririk.

## Kitabın başlanğıcı

Kitabın başlanğıc nöqtəsi Uca Allahın vədlərinin şübhəsiz həyata keçiriləcəyinə tam əminlikdir. Belə ki, hədisdə buyururlur ki, övladını ittirən kəs bu bəlaya səbir edərsə ona Cənnətdə həmd diyarı adlanan bir ev inşa edilər. Bunun üçün insan bəlanın ilk anında Uca və Nöqsansız Allaha şükür etməli və "[İnnə lilləhi va innə ileyhi raciun] həqiqətən, biz, Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq" deməlidir. Mövzu ilə bağlı inşallah Quran və Sünnəyə müraciət edəcəyik. Xəstəlik və vəfat dövründəki kiçik təcrübəmizi nəql edəcəyik ki, istəyən kəs bundan istifadə edə bilsin.

Bu kitabı yazmağa məni təşviq edən daha bir amil mövzu ilə bağlı "əl-Qəbəs" qəzetində nəşr etdirdiyim silsilə məqalələrə olan maraq idi. Həmin məqalələrin də ünvanı "Abdullahla həmd diyarına səfərim" idi.